BORAN ƏZİZ

4359

# XOCALI SOYQIRIMI:

## SƏBƏBLƏRİ, HƏYATA KEÇİRİLMƏ ÜSULLARI VƏ NƏTİCƏLƏRİ

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI
AZƏRNƏŞR-2008

BBK 46.3.1
Ə-37

**Dünya Azərbaycanlıları Konqresinin Kitabxanası-2**

Elmi redaktor: *tarix elmləri namizədi, dosent M.Q.Abdullayev*

Rəyçilər: *tarix elmləri doktoru, professor F.F.İbrahimli*
*tarix elmləri doktoru, professor K.K.Şükürov*
*tarix elmləri namizədi, dosent A.Ə.Rzayev*

Redaktor: *Əlövsət Ağalarov*

**Ə-37.** ***Boran Əziz. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri – Bakı, Azərnəşr, 2008, 224 səh.***

Kitabda Xocalı soyqırımının baş verdiyi tarixi şərait və həyata keçirilmə üsulları, səbəbləri faktlar və sənədlər əsasında müqayisəli şəkildə araşdırılmışdır. Araşdırma nəticəsində bu qənaətə gəlinmişdir ki, Xocalı soyqırımını həyata keçirən təşkilatçının və sifarişçinin başlıca məqsədi xalqımızı müstəqillik yolundan döndərmək, onu yenidən öz təsir dairəsinə qaytarmaqdan ibarət olmuşdur. Bu soyqırımda icraçı kimi iştirak edən ermənilərin əsas məqsədi Qarabağı və digər ərazilərimizi işğal etmək idi.

Düşmənlər məqsədlərinə çatmaq üçün xalqımıza qarşı görünməmiş vəhşiliklərlə, insanlığa yaraşmayan üsullarla dəhşətli soyqırım həyata keçirmişlər. Bunun nəticəsində torpaqlarımızın bir hissəsi işğal olunmuş, minlərlə azərbaycanlı qətlə yetirilmişdir. Ancaq düşmənlərin xalqımızı qorxutmaq və onu müstəqillik ideallarından uzaqlaşdırmaq cəhdi baş tutmamışdır.

**Ə-37 $\frac{\text{4603010000}}{\text{M-651 (07) 2008}}$ qrifli nəşr**

**© Boran Əziz, 2008.**



**BORAN AZIZ**

# KHODJALI GENOCIDE: REASONS, REALIZATION METHODS AND RESULTS

In the book historical conditions, realization methods and reasons of Khodjali genocide were investigated based on facts and documents in comparative way. As a result of investigation it was come to conclusion that the main aim of the Khodjali genocide's organizer and orderer was consist of to avoid our people from the independence way, to return them to its sphere of Influence again. The main reasons of this genocide was Armenian aggressors' intention of occupying Karabagh .

In order to reach their aim they realized terrible genocide by indecent methods and unprecedented savagery toward our nation. At the result of this, a part our territory was occupaid and hundreds of Azerbaijani were killed. But their efforts to terrify our people and estrange them from their independent ideals were not succeeded.

Baku–2008

# MÜNDƏRİCAT

Ön söz ........ 7
I. Azərbaycanın qədim yaşayış yerlərindən biri-Xocalı ........ 10
II. Xocalı soyqırımının səbəbləri ........ 18
III. Xocalı qətliamı: həyata keçirilmə üsulları və nəticələri ........ 76
IV. Xocalı soyqırımı haqqında sənəd və materiallar ........ 136
-"Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 136
-"Xocalının müdafiəsində fərqlənmiş şəxslərin təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 137
-Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına Azərbaycan Respublikası Prezidentinin müraciəti ........ 145
-Xocalı soyqırımı zamanı şəhid olanlar ........ 148
-Xocalı soyqırımı zamanı şəhid olan uşaqlar ........ 168
-Xocalı soyqırımı zamanı bir valideynini itirmiş uşaqlar ........ 170
-Xocalı soyqırımı zamanı hər iki valideyni şəhid olmuş uşaqlar ........ 177
-Xocalı soyqırımı zamanı tamamilə məhv olmuş ailələr ........ 178
-Xocalı soyqırımı zamanı itgin düşən və taleyi məlum olmayanlar ........ 180
-Xocalı soyqırımı ilə bağlı məlum olmayan həqiqətlər ........ 185





- Xocalı faciəsi beynəlxalq cinayət olaraq Ermənistanın Azərbaycan xalqına qarşı apardığı məqsədyönlü soyqırım siyasətinin tərkib hissəsidir ........ 199
- Qaradağlı kəndində öldürülənlər haqqında ........ 205
- Xocalının işğalı ərəfəsində Azərbaycan kəndlərinin zəbt olunma xronologiyası ........ 209
- Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən kənarda işğal edilmiş rayonlar ........ 211
- Erməni terror təşkilatlarının Azərbaycandakı vəhşiliklərinin bir hissəsi ........ 213
-Xocalı dərdi bayatılarda ........ 217
- Ədəbiyyat ........ 221

# ÖN SÖZ

XIX əsrdən başlayaraq ermənilərin türk-müsəlman əhaliyə qarşı həyata keçirdikləri soyqırımı siyasətləri son dövrlərdə elmi tədqiqata cəlb edilir və müasir dövrün problemlərinin kökü araşdırılaraq ictimaiyyətə çatdırılır. Oxuculara təqdim olunan bu monoqrafiya XX əsrin ən dəhşətli faciəsinə - Xocalı soyqırımının tarixi tədqiqinə həsr olunub. Xocalı faciəsi həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə Azərbaycan xalqına qarşı ən dəhşətli cinayətlərdir. Elmi dövriyyəyə daxil olan bu əsərdə Xocalı soyqırımına tarixi sənədlər, faktlar və şahidlərin məlumatları əsasında qiymət verilir.

Mövzunun araşdırılmasının çox böyük elmi və siyasi əhəmiyyəti vardır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xocalı soyqımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti, Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında fərmanı, qarşıya qoyduğu tələblərin həyata keçirilməsinin vacibliyi bu kimi məsələlərin fundamental araşdırmasını zəruri edir.

Monoqrafiyada qədim dövrlərdən başlayaraq, Xocalının təbii-coğrafi şəraiti, maddi-mədəniyyət abidələri, əhalisi, əhalinin məşğuliyyəti haqqında tarixi mənbələr əsasında məlumat verilir. Müəllif Xocalının qədim Azərbaycan yaşayış məntəqəsi olmasını əsaslandıraraq regionun beynəlxalq əlaqələrində rolunu qiymətləndirir və göstərir ki, Xocalı-Gədəbəy abidələrinin kompleks şəkildə öyrənilməsi nəticəsində Yaxın Şərq ölkələrinin bir-biri ilə mədəni-iqtisadi əlaqələrini öyrənmək mümkün olmuşdur. Bunlarla yanaşı, ermənilərin bölgəyə köçürülmələri, azərbaycanlı əhaliyə nisbət-

də say tərkibləri Rusiya imperiyasına aid mənbələr əsasında göstərilir. Eyni zamanda, Qarabağ xanlığından başlayaraq Qağlıq Qarabağ Muxtar Vilayətinin yaranması da daxil olmaqla Qarabağın tarixinə ekskurs edilir. Bu məlumatlardan sonra Xocalı faciəsinin həyata keçirilməsi ərəfəsində SSRİ və Azərbaycan SSR-də yaranmış mövcud vəziyyət, milli-ərazi quruculuğu prinsipi əsasında yenidən meydana atılmış "Dağlıq Qarabağ" probleminin yaratdığı siyasi vəziyyət şərh olunur, faciə ərəfəsində Xocalıda vəziyyət ermənilərin apardıqları hərbi əməliyyatlar, bir-birinin ardınca işğal olunan yaşayış məntəqələri və onların əhalisi haqqında məlumatlar toplanmış və şərh edilmişdir. Tədqiqata cəlb edilmiş mənbələr arasında əməliyyatda iştirak etmiş rus zabitlərinin və erməni hərbçilərinin məlumatlarından da istifadə edilmişdir.

Faciənin həyata keçirilmə üsulları erməni vəşhiliklərini bütün açıqlığı ilə əks etdirir: təqdim edilən faktlar xırdalıqlara qədər şərh edilir və araşdırılır. Bunların nəticəsində isə dinindən və milliyyətindən asılı olmayaraq istənilən oxucu hadisələrin canlı şahidinə çevrilir və insanlığa qarşı yönəlmiş bu vandilizmi həyata keçirənlərin beynəlxalq məhkəməyə cəlb olunmasını istəyir.

Əsər cəlb olunan mənbə bazasına əsasən, Xocalı soyqırımı həqiqətlərinin dünyaya çatdırılması, soyqırım aktı kimi tanıdılması istiqamətində atılan mühüm addımlardan biri, aparılan tədqiqatlardan ən sanballısıdır. Müəllif faciənin beynəlxalq ictimaiyyətə çatdırılması sayəsində görülən işləri qiymətləndirir və bu işin daha da uğurla həyata keçirlməsi üçün konkret təkliflər verir.





Əsərin sonunda təqdim edilən sənədlərdə soyrımı zamanı öldürülmüş, əsir götürülmüş və itkin düşmüş əhali, onların yaş və cins tərkibi barədə geniş məlumat verilir, rusların ermənilərə həm siyasi, həm də maddi (silah-sursat təminatı, həmçinin soyqırımda iştirakı) köməyi faktlar əsasında açıqlanır. Bu əsər, həm də faciə haqqında çox qiymətli bir sənəddir.

Monoqrafiya geniş oxucu kütləsi, tarixçilər və diplomatların marağına səbəb olacaq əsil sənəd toplusu və hadisənin xronologiyasıdır. Həmçinin, müəllifin təqdim etdiyi rəsmi sənədlər, faktik məlumatlar Azərbaycan Respublikasının xarici siyasəti ilə məşğul olanlar üçün dəyərli töhvə ola bilər.

***Bakı Dövlət Universitetinin Tarix fakültəsinin dekanı, dos. S.T.Hacıyev***

# I. AZƏRBAYCANIN QƏDİM YAŞAYIŞ YERLƏRİNDƏN BİRİ-XOCALI

Azərbaycanın qədim tarixə malik ərazilərindən biri Xocalıdır. 0,94 kv.km ərazisi və münaqişəyə qədər 7.000 nəfərdən çox əhalisi olan Xocalı Şuşadan sonra ermənilər yaşayan kəndlərin əhatəsində olan ən böyük, qədim türk yaşayış məskəni olmuşdur.* Xocalı Dağlıq Qarabağda Qarqar, Xocalı və İlis çaylarının qovşağında mühüm strateji əhəmiyyətli bir ərazidə yerləşir.

Şəhərin əhəmiyyətini artıran səbəblərdən biri də Dağlıq Qarabağın yeganə hava limanının məhz burada yerləşməsi idi. Bundan başqa Aran Qarabağdan yaylaq yerlərinə gedən köç sürülərinin yolu da buradan keçirdi. Əsgəranla Xankəndi arasında yerləşməsi də onun əhəmiyyətini artırırdı (Bax: Xəritə 1).

Əhalisi üzümçülük və heyvandarlıqla məşğul olan Xocalıda orta məktəb, mədəniyyət evi, kitabxana, şə-

* Qafqaz canişinliyinin Mülki işlər üzrə Baş idarəsinin Zaqafqaziya Statistika Komitəsinin 1886-cı ildə Zaqafqaziya diyarı üzrə ailə sayımına görə keçirdiyi siyahıyaalınmaya əsasən Xocalıda 34 tüstü (yəni ev- qeyd Boran Əzizindir. Bundan sonra B.Ə.) olmuş və burada 98-i kişi, 94-ü qadın olmaqla cəmi 192 nəfər yaşamışdır. Orada göstərilir ki bu əhalinin hamısı şiə məzhəbinə mənsub olan tatarlardır. (yəni –türklərdir. B.Ə.) Siyahıyaalınmadan aydın olur ki, 9 bəy ailəsində 24 nəfər kişi, 22 nəfər qadın bəy olmuşdur. Bu kənddəki sahibkar torpaqlarında 28 ev, 146 nəfər (74 kişi, 72 qadın) adam yaşamışdır. (41, Елисаветопольская губерния- Шушинский уездъ –I участокъ).

1921-ci il kənd təsərrüfatı siyahıyalınmasında göstərilir ki, Malıbəyli kənd cəmiyyətinin tərkibində 6 kənddən biri olan tatar (yəni türk – B.Ə.) Xocalısında təsərrüfatın sayı 70, burada yaşayan adamların sayı - kişilər 128, qadınlar 190 olmaqla cəmi 318 olmuşdur (34a, 2).





hər statusu aldıqdan sonra xəstəxana, bir sıra orta-ixtisas və ali məktəblərin filialları mövcud olmuşdur.

Xocalıda 1356-1357-ci illərə aid memarlıq abidələrindən dairəvi türbə, onun yaxınlığında isə son Tunc və ilk Dəmir dövrünə aid Nekropol, kurqan çölü və s. vardır.

Ərazinin əlverişli təbii coğrafi şəraitə malik olması uzun bir dövrdə ibtidai insanların burada düşərgə salmasına, tayfa ittifaqları yaratmasına, əkinçilik, sənətkarlıqla məşğul olmasına imkan yaratmışdır. Belə ki, e.ə. II-I minilliklərdə bu ərazidə yaşamış tayfa ittifaqları əkinçilik, maldarlıq təsərrüfatını intensiv inkişaf etdirməklə yanaşı, metallurgiya və metalişlətmə sənəti sahəsində də mühüm nailiyyətlər əldə etmişlər.

Buradan tapılan maddi-mədəniyyət abidələrinin zənginliyi və növləri hələ XIX əsrin II yarısından xarici ölkə alimlərinin diqqətini cəlb etmişdir. Vaxtilə Şuşa realnı məktəbində alman dili müəllimi işləmiş Emil Resler 1892-1903-cü illər arasında Qarabağda və Gəncəçay boyunda bir sıra abidələri öyrənmiş, eneolit, tunc və dəmir dövrlərinə aid maraqlı material toplamış və bu barədə geniş hesabat yazmışdır. Rus şərqşünası M.Xanıkov, ingilis F.Bajer, fransız A.Berje və başqaları da buradakı arxeoloji abidələrlə tanış olmuş və oradan tapdıqları əşyaları öz ölkələrinə aparmışlar.

Azərbaycan alimləri içərisində Xocalıda ilk dəfə tədqiqat işləri aparan Ə.Ələkbərov olmuşdur. O, XX yüzilliyin 20-ci illərində burada tədqiqat işləri apararaq belə nəticəyə gəlmişdir ki, Azərbaycan abidələri haqqında tam təsəvvür əldə etmək istəyənlər üçün Xocalıdakı abidələr çox mühüm açar rolunu oynayır.

Xocalı-Gədəbəy mədəniyyətinin səciyyəvi cəhətlərinin müəyyənləşdirilməsində, eləcə də dövrün iqtisadi-

ictimai, siyasi, dini-ideoloji dünyagörüşlərinin və mədəniyyət problemlərinin öyrənilməsində Xocalı, Gədəbəy, Xanlar, Daşkəsən bölgələrindəki tunc abidələri müstəsna əhəmiyyətə malikdir.

Hələ sovetlər dönəmində Xocalıda tapılan maddi mədəniyyət abidələri zənginliyi və qədimliyi ilə diqqət çəkdliyi üçün son tunc və ilk dəmir dövrü arxeoloji abidələrin böyük bir qrupu elmi ədəbiyyatda Xocalı-Gədəbəy mədəniyyəti adı ilə tanınmışdır.

Bəzi hallarda bu abidələr kompleksi Gəncə-Qarabağ və ya mərkəzi Zaqafqaziya mədəniyyəti kimi də adlanmışdır (Bax: 4a; 12, 46; 13, 13).

Əsasən eramızdan əvvəl II-I minillikləri əhatə edən Xocalı abidələri kompleksi ətrafı müdafiə divarları ilə möhkəmlənmiş yaşayış yerlərindən, istehsal ocaqlarından, siklop tikintilərindən*, kurqan, daş qutu, torpaq qəbirlərdən və s. ibarətdir.

Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələrin öyrənilməsi onun üç inkişaf mərhələsindən keçdiyini göstərir. İlk mərhələ XIV-XI, ikinci mərhələ XI-IX, son mərhələ IX-VII əsrləri əhatə edir.

Tədqiqatlardan aydın olur ki, Xocalı-Gədəbəy mədəniyyətinə aid yaşayış yerləri adətən çay kənarlarında, təbii-coğrafi cəhətdən əlverişli yerlərdə, xüsusilə strateji baxımdan müdafiəsi qismən asan olan təpələr üzərində salınmışdır.

İstər qəbir, istərsə də yaşayış yerlərindən tapılmış maddi-mədəniyyət qalıqları Xocalı-Gədəbəy mədəniyyəti sakinlərinin xarakterik əmək alətlərinin, məişət əşyalarının, təsərrüfat həyatının və dini ideologiyasının

* Nəhəng, xalq əsatirlərinə görə təpəgöz tərəfindən çox iri daşlardan düzəldilmiş qala və ya qalaçıq tipli tikililər nəzərdə tutulur.





bəzi xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir.

Xocalı-Gədəbəy mədəniyyətini yaratmış qədim Azərbaycan tayfaları arasında metalişləmənin sirlərinə yiyələnmiş, yüksək ustalıq bacarığına malik olan peşəkar sənətkarlar nəsli yetişib formalaşmışdır. Onların istehsal etdikləri tunc əmək alətləri, silahlar, müxtəlif bəzək nümunələri, xüsusilə bədii tərtibatlı sənət əsərləri nəinki Azərbaycanda, eləcə də Cənubi Qafqazda yaşamış müxtəlif tayfalar arasında geniş yayılmış və həmin ərazilərin metalişləmə sənətinə öz mədəni təsirini göstərmişdir.

Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik tunc əşyalara yastı baltalar, geniş dairəvi kəsərli təbərsin baltalar, xəncərlər, enliağız qılınclar, yarpaqvari nizələr, Zaqafqaziya tipli ox ucları, kəmərlər, baş bəzəkləri, müxtəlif formalı qolbaqlar, düymələr və digər əşyalar daxildir. Buradakı arxeoloji qazıntılardan misdən hazırlanmış qazan və sərniclər də tapılmışdır. Bu mədəniyyətin son mərhələsində nazik nizə ucları, kiçik ölçülü bıçaq, xəncər və silah növləri geniş yayılmağa başlamışdır.

Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələrin əksər hissəsini siklop tikililəri təşkil edir. Yerli əhali tərəfindən «Qalaça», «Örtük daşı», «Hasar», «Düzülü daş» və s. adlanan yerlərdəki bu abidələr əsasən yüksək təpələrdə və alçaq dağlarda bina edilmişdir. Bu tikililər yonulmamış iri daşlardan, suvaqsız, müəyyən bir plana əməl olunmadan, iki, bəzən hətta üçqat divarla əhatə olunmuşdur.

Arxeoloqlar Xocalıdakı tədqiqatlar zamanı çoxlu sayda qədim qəbirlərə rast gəlmişlər. Qəbirlərdə aparılmış arxeoloji tədqiqatlar göstərmişdir ki, skeletlər bükülü vəziyyətdə, müxtəlif istiqamətlərdə dəfn edilmiş-

dir. Arxeoloqlar belə dəfn adətinə Orta Asiyada, İranda, Türkiyədə və s. ölkələrdə də rast gəlindiyini göstərirlər. Tədqiqat zamanı məlum olmuşdur ki, burada dövr etibarilə biri digərini əvəz edən beş tip qəbir abidələri olmuşdur ki, bunların da böyük bir qrupunu kurqan qəbirləri təşkil etmişdir.

Xocalı kurqanlarında aparılan qazıntılar zamanı müəyyən edilmşidir ki, 3-4 min il bundan əvvəl bu ərazidə iki cür: ölünü olduğu kimi və ya yandıraraq dəfn adəti olmuşdur. Lakin burada hər iki halda kurqan qəbirləri üçün xarakterik olan ümumi bir əlamət də var. Bu əlamət həmin qəbirlərdə dəfn olunan adamın axirət dünyasına var-dövlətlə yola salınması idi. Bəzi kurqanlarda bir neçə adamın bir yerdə dəfn olunduğunu görmək olar. Görünür bu sosial təbəqəlşmə dövrünə aiddir. Çünki məhz bu dövrdə iri qəbilə başçıları öldükdə onun xidmətçilərindən bir nəfərini də ölən adamla birlikdə dəfn edirdilər ki, axirət dünyasında ona xidmət göstərsin. Ümumiyyətlə, kurqan qazıntıları zamanı oradan aşkar edilmiş maddi-mədəniyyət qalıqları yerli əhalinin ibtidai dini dünyagörüşünü, təsərrüfat həyatını, hərbi ləvazimatını, incəsənətini, məişətini və bir sıra başqa sahələrini öyrənmək üçün böyük əhəmiyyət kəsb edir.

Xocalı kurqanlarının tədqiqi nəticəsində məlum olmuşdur ki, danışdığımız dövrdə Qarabağın sakinlərinin həyatında sənətkarlığın iki böyük sahəsi – dulusçuluq və metalişləmə mühüm yer tutmuşdur.

Xocalı-Gədəbəy abidələrinin ən zəngin materialı gil məmulatdır. Bu mədəniyyətə aid qablar əsasən qara və tünd boz rəngdə olub narın gildən hazırlanmış, bir qismi dulus çarxında formalaşdırılmışdır. Qabların əksəriyyətinin üzəri cızma üsulu ilə həndəsi fiqurlarla, nəbati təsvirlərlə bəzədilmişdir. Maraqlıdır ki, üzü cilalanmış qablar üzərindəki xətlərin içərisini xüsusi ağ maddə ilə doldurmuşlar. Bu da Qarabağ qablarının ən mühüm xüsusiyyətlərindən biridir.





Xocalı-Gədəbəy mədəniyyətinə məxsus qablar əsasən qabarıq gövdəli küplərdən, darboğaz təkqulplardan, nehrələrdən, cam formalı qablardan ibarətdir. Qabların bir qisminin üstündə göbəkvari çıxıq vardır. Qazıntılar zamanı buradan həmçinin daşdan kuzə, vaza, enliağız və qapaqlı qablar da tapılmışdır.

Xocalıdakı 5 saylı kurqandan aşkar edilmiş bir ədəd gil qabın qulpu üzərində isə buğda dənələri təsvir edilmişdir. Alimlərin tədqiqatı nəticəsində məlum olmuşdur ki, 3-4 min il bundan əvvəl Qarabağın sakinləri mədəni buğda növlərinin əkinçiliyi ilə məşğul olmuşdur. Qeyd edək ki, Xocalıda Qarabağda qədim bağçılığın inkişafını da sübut edəcək xeyli maddi mədəniyyət qalıqları aşkar edilmişdir.

Tunc dövründə Qarabağda inkişaf etmiş mühüm sənətkarlıq sahələrindən biri metalişləmə olmuşdur. Bütün Zaqafqaziyada tuncun alınması sirlərinə ilk dəfə bələd olanlardan biri də Qarabağın qədim sakinləridir. Bu materialdan yerli əhali əsasən silah hazırlamışdır. Bəzən isə ondan bəzək əşyaları hazırlanmasıda da istifadə etmişlər. Tuncdan hazırlanmış qılınclar, xəncərlər və çoxlu ox ucluqları demək olar ki, Qarabağ abidələrindən toplanmış ən çox silah növləridir.

Xocalı abidələrinin öyrənilməsi nəticəsində burada bütün Azərbaycan üçün yeganə olan iki mühüm tip abidə aşkar edilmişdir. Onlardan biri çox böyük çəkiçi olan uzun daş - menhirlərdir. Menhir ingilis sözü olub «uzun daş» deməkdir. Avropada menhirlərin əsas vətəni Böyük Britaniyadır. Orada elə menhirlər vardır ki, ağırlığı 50-60 tona yaxındır. Xocalı menhirləri isə nis-

bətən kiçikdir. Menhir qəbilə quruluşu dövrünün məhsulu olub, ölən adamın qəbiri üzərində dik basdırılmış, bir növ heykələ oxşar daşdır. Adətən belə daşları qəbilə başçılarının qəbirlərinin üzərinə qoyurdular. Maraqlıdır ki, ibtidai dini təsəvvürlərin qalığı olan həmin daşlardan biri XX yüzilliyin 70-ci illərinə kimi dindarların ibadət yeri olmuşdur.

Xocalı abidələri içərisində nadir tapıntılardan biri də kromlexlərdir. Kromlex dairəvi düzülmüş bir neçə dik və onların üzərinə qoyulmuş bir ədəd köndələn daşdan ibarətdir. Bu abidələr yerli əhalinin mənəvəi mədəniyyət tarixini öyrəmək üçün son dərəcə böyük elmi əhəmiyyət kəsb edir.

Xocalıdakı 11 saylı kurqandan arxeoloji qazıntı zamanı tariximiz üçün böyük əhəmiyyət daşıyan, üzərində mixi yazısı olan bir ədəd kiçik əqiq muncuq, şirli saxsı qablar, şüşə muncuqlar, qızıldan bəzək əşyaları, silindrik möhür və s. şeylər tapılmışdır. Akademik İ.-İ.Meşşaninov müəyyən etmişdir ki, bu muncuğun üzərində eramızdan əvvəl VIII əsrdə yaşamış Assuriya çarı Adadnirarinin adı yazılmışdır. Qeyd edək ki, bu Azərbaycanda tapılmış ən qədim yazı olmaqla təkcə Qarabağın deyil, bütövlükdə Vətənimizin siyasi tarixini öyrənməkdə mühüm əhəmiyyətə malikdir.

Xocalı-Gədəbəy mədəniyyəti sahiblərinin ən böyük texniki tərəqqisi gil qab isthesalında dulus çarxından geniş istifadə etmələridir. Bu dövrdə sənətkarlığın bir çox sahələri, xüsusən bəzək əşyaları istehsalı xeyli inkişaf etmişdir.

Xocalı-Gədəbəy abidələrinin kompleks şəkildə öyrənilməsi tədqiqatçılara bir sıra ümumi nəticələr söyləməyə imkan vermişdir. Qeyd edək ki, bu mədəniyyətin izi ilə məşğul olan bir çox Qafqazşünas alim təkcə





Azərbaycanın deyil, ümumiyyətlə, Yaxın Şərq ölkələrinin maddi-mədəniyyət tarixi ilə əlaqədar bir sıra problemlərin həlli üçün ondan geniş istifadə edirlər. Məhz bunun nəticəsində 3-4 min il bundan əvvəl Yaxın Şərq ölkələrinin bir-biri ilə mədəni və iqtisadi əlaqələrinin səviyyəsini öyrənmək mümkün olmuşdur. Xocalı abidələri sübut edir ki, belə əlaqələr geniş və qarşılıqlı olmuşdur.

Qeyd edək ki, qədim yaşayış yeri olan Xocalıda xalqımıza məxsus zəngin maddi mədəniyyət abidələri ermənilərin XX yüzildəki təcavüzkarlığı nəticəsində dağılıb məhv olmaq təhlükəsi ilə qarşılaşmışdı. Həm bu, həm də XX yüzilliyin 80-cı ilərinin sonu 90-cı illərin əvvələrində yarınmış sosial, iqtisadi və siyasi səbəblərdən Azərbaycan dövləti 1991-ci il noyabrın 26-da keçmiş DQMV-nin azərbaycanlılır yaşayan 52 kəndini əhatə edən, 930 km$^2$ sahəsi olan Xocalı inzibati rayonunu yaratdı. (Bax: Xəritə 1.)

Təəssüf, 1992-ci ilin fevralında erməni və rus ordusunun birləşmiş qüvvələri Xocalıda əhalini vəhşicəsinə qırarkən bəşəriyyət üçün nadir abidələr toplusu olan Xocalı abidələrini də dağıtdılar.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

# II. XOCALI SOYQIRIMININ SƏBƏBLƏRİ

XX yüzildə Azərbaycan türklərinin tarixində xeyli sevincli, şərəfli günlər olmuşdur. Belə qürur doğuran günlərə, illərə misal olaraq Yaxın və Orta Şərqdə müsəlman və türk dünyasında ilk dəfə xalqımız tərəfindən yaradılmış Azərbaycan Cümhuriyyətinin mövcud olduğu (1918-1920), Sovet işğal rejimindən qurtardığı (1991) və s.kimi illəri göstərmək olar. Tariximizdəki belə sevincli günlər təsadüfən olmayıb, kimsənin hədiyyəsi deyildi. O, illərlə aparılan əzablı, çətin milli mübarizənin nəticəsində yaranmışdı. XX yüzildə milli haqları uğrunda mübarizə aparan xalqımız sevincli günlərlə bərabər bir çox faciələrlə də üzləşmişdir. Xalqımızın qarşılaşdığı belə faciələrdən biri də 1992-ci ilin fevralında baş vermiş Xocalı qırğınıdır. «Xocalı faciəsi təsadüfi hadisə deyildi. Dəhşətli Xocalı faciəsini törətməklə ermənilər xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq, onu tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin hiyləgər düşmən məqsədinə çata bilmədi. Xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətnləşdi, qəhrəmanlıq və dəyanət nümayiş etdirdi» (2).

XX yüzildə ermənilərin Osmanlı İmperatorluğuna və Azərbaycan türklərinə məxsus olan torpaqlara qarşı ərazi iddiaları irəli sürməsi qanlı toqquşmalara səbəb olmuşdur. Bu torpaqların onlara məxsusluğunu iddia edən ermənilər əslində "Dənizdən-dənizə Ermənistan" planını həyata keçirmək istəyirdilər. Bu amili nəzərdə tutan Ö.F.Nemanzadə hələ 1905-ci ildə "İrşad" qəzetində yazırdı: "Ermənilər öz planlarını həyata keçirmək üçün bizi İrəvandan,Qarabağdan və Qarsdan qovmağa çalışacaqlar. Biz bilməliyik ki, ermənilər bu yolda hər





bir alçaqlığa əl ata bilərlər. Onlar qəsdən müsəlmanları öz üzərlərinə qaldıracaq, onların hücumuna və özlərinin bir qədər artıq itkisinə şərait yaradacaq və beləliklə bütün Avropanın diqqətini əzabkeş bir xalq olmalarına cəlb edəcəklər. Onlar öz cinayətləri üçün tədricən planlar hazırlayır və onları həyata keçirməyə yollar axtarırlar".

Ermənilərin bu metodu tarix boyu onların bütün torpaq iddialarında mühüm rol oynamışdır və indi də oynayır.

Məlumdur ki, ermənilər yaşadıqları ölkələrdə həmişə türklərin onlara qarşı soyqırım apardığı iddiası ilə hay-küy salmış, təbliğat şousu düzənləmişlər. Bu iddia tarixi həqiqətdən uzaqdır. Əksinə, ermənilər özləri XX yüzildə türk xalqlarına, o sıradan Azərbaycan türklərinə qarşı insanı dəhşətə gətirən qətliamlar törətmişlər. Ancaq biz taleyimizdəki bu kədərli və faciəli günlər haqqında dünya ictimaiyyətinə vaxtında xəbər çatdırmamışıq, bunu özümüzə, qürurumuza sığışdırmamışıq. Bu əslində mənəviyyatımız, əxlaqımız və aldığımız tərbiyədən irəli gəlmişdir. Xarakterimizdəki bu cəhəti hələ 1919-ci ildə Ə.Topçubaşov Parisdə,Versal sülh konfransına təqdim etdiyi memorandumda çox doğru göstərmişdir: "Azərbaycanlıların səciyyəvi xüsusiyyəti bu millətin hədsiz təvazökarlığıdır ki, bu da onların özlərini reklama doğru atıla biləcək hər bir addımının qarşısını alır. Azərbaycanlılar özlərini gözə soxmağa, başqalarına nisbətən onların payına daha çox düşən dərd və fəlakətləri uca səslə elan etməyə, hamıya çatdırmağa öyrənməmişlər.Bütün bu dərd və fəlakətləri onlar səslərini çıxarmadan,mətbuat vasitəsilə dünyaya car çəkmədən, millətlərə və dövlətlərə ağlayıb-sıtqamadan öz içlərində çəkirlər.

Bu vəziyyət bir neçə cəhətdən qüsur sayılmalıdır. Məhz azərbaycanlıların xarakterindəki bu cəhət onların bir sıra fəlakətlərinin mənbəyinə çevrilmiş, bu xalqa öz milli varlığını bütün dolğunluğu ilə göstərməyə mane olmuşdur. Azərbaycanlılar haqqında Avropanın və Amerikanın bir sıra mətbuat orqanalarında yalan məlumatlar yayılmasına da bu şərait əsas vermişdir".

XX yüzilliyin 80-ci illərinin sonunda dünyada və o cümlədən SSRİ-də baş verən iqtisadi-siyasi proseslər nəticəsində sosializm sistemi iflasa uğradı. SSRİ dünyada oynadığı hegemon rolunu itirməyə başladı. Belə bir vaxtda digər amillərlə yanaşı, Sovet İmperiyasına qarşı ərazisi ruslar tərəfindən işğal edilərək zorla bu dövlətə birləşdirilən xalqlar tərəfindən başladılan milli azadlıq hərəkatı Sovetlər Birliyinin çöküşünü sürətləndirdi və o sonda öz siyasi nəticəsini verdi. Xalqımızın illərlə uğrunda mübarizə apardığı müstəqillik arzusu gerçəkliyə çevrildi. Lakin, SSRİ süqut etdikdən sonra ***müstəqil milli dövlət quruculuğu dövrünə qədəm qoyan Azərbaycanın vəziyyəti, həm götürdüyü xarici siyasi kurs, həm də 1988-ci ildən başlayan erməni təcavüzü*** nəticəsində xeyli ağırlaşdı.

Qeyd edək ki, milli azadlıq hərəkatının güclədiyi ərəfədə Azərbaycanın Dağlıq Qarabağ bödgəsində Moskvanın və erməni lobbisinin təhriki ilə ərazimizin bir hissəsinin qoparılması istiqamətində fəaliyyət planı işə düşdü.

Münaqişənin ilkin vaxtlarında Moskva DQMV-nin nə Ermənistana birləşdirilməsinə, nə də Azərbayanın tərkibində qalmasına aid qəti bir söz söyləmirdi. Bunu o dövrdə Sov.İKP MK-nın Dağlıq Qarabağ haqqındakı qərarlarında, Sov.İKP MK-nın Baş Katibi M. Qorbaçovun 1988-ci il 26 fevral çıxışında da görürük. İlkin baxışda belə təəssürat yaranır ki, Baş Katibin SSRİ-nin milli-ərazi quruculuğu prinsipləri haqqında kifayət qədər aydın mövqeyi, məlumatı yoxdur. Ancaq hadisələrin sonraskı gedişi və təhlili göstərir ki, M. Qorbaçov düşünülmüş, dəqiq plan əsasında fəaliyyət göstərmişdi.





SSRİ-də milli münaqişələrin qızışması yönündə edilən hərəkətlərə qarşı mərkəz tərəfindən heç bir tədbir görülmürdü. Problemlə bağlı apardığımız tədqiqat və hadisələrin müqayisəli təhlili bunun ***iki başlıca səbəbinin olduğunu*** göstərir. ***Bu səbəblər eyni zamanda baş verən, bir-birilə bağlı olan proseslər olmuşdur. Bunlardan birincisi – SSRİ-nin rəhbərliyinə daxil olan adamların əksəriyyəti milli münaqişələr vasitəsilə Sovet imperiyasının bütövlüyünü qoruyub saxlamaq niyyətində idi.*** Onlar əzəli Azərbaycan torpağı olan Qarabağı ermənilərə vəd etməklə erməni-Azərbaycan müharibəsinə start vermiş oldular. Bu yolla ruslar həm Azərbaycanı, həm də erməniləri əllərində saxlamağı düşünürdülər. Ölkəmizin müstəqillik uğrunda mübarizəyə qalxması və suverenliyini elan etməsi Qarabağın işğalına təkan verdi. Rus-erməni birgə işğalı Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kiçik məntəqələrindən başlandı.

Qeyd edək ki, XX yüzildə Rusiya iqtisadi-siyasi cəhətdən zəiflədikdə bu imperiyanın bütövlüyünü qoruyub saxlamaq üçün bir neçə dəfə milli münaqişələr, qırğınlar törətmək siyasətindən «uğurla» istifadə etmişdir. Xalqımız bu siyasətin ağrı-acısını bir neçə dəfə – 1905-1907, 1917-1920-ci illərdə dadmışdır. Çar və sovet Rusiyası «parçala, hökm sür» siyasəti həyata keçirməklə xalqları, o cümlədən azərbaycanlıları əsarət altında saxlamaq, onları milli-azadlıq mübarizəsindən yayındırmaq, Rusiya əsarətindən qurtarmaq niyyətindən uzaqlaşdırmaq siyasəti yeritmişdi.

***İkinci mühüm səbəb birincidən heç də az əhəmiyyət daşımayan, ilk baxışda ona zidd görünən, ancaq mahiyyətcə onunla sıx bağlı olan Sovet İttifaqının dağılmasına təkan verən proses olması idi.*** Bəzi politoloqlar və siyasətçilər belə hesab edir ki, bu prosesdə beynəlxalq güclərin və böyük dövlətlərin rolu çox olmuşdur. Onlar milli münaqişələr vasitəsi ilə silah gücünə məğlub etməyin mümkün olmadığı SSRİ-ni dağıtmaq niyyətində idilər və sovet rəhbərliyinə daxil olan bir çox adamlar da hələ də dəqiqləşməyən səbəblərdən onlara yardımçı oldu. Maraqlıdır ki, 1987-ci ilin yanvarında ABŞ prezidenti Karterin sabiq köməkçisi Zbiqnev Bjezinski «Vaşinqton Tayms» qəzetinin bir qrup müxbiri və redaktoruna «.. şər imperiyasının»» gələcəyi ilə bağlı demişdir: «Gələcək 20-30 ildə dünyada milli və etnik münaqişələrin mərkəzi Sovet İttifaqı olacaqdır. Burada millətçilik canlı dinamik qüvvəyə çevriləckdir. Sovetlər öz millətlərinin problemini nəzarətdə saxlaya bilməyəcəklər. Onların sistemi ölümcül böhran ərəfəsindədir». (Sitat üçün bax: 27, 13).

Qeyd edək ki, bir neçə il sonra bu məşhur siyasətçinin dünyada baş vermiş qlobal dəyişikliyə həsr olunan «Möhtəşəm iflas: XX əsrdə kommunizmin doğulması və məhvi» kitabı çapdan çıxdı.

Avropada və Amerikada ermənilərin separatçı hərəkətləri «yenidənqurmanın» ilk dövrlərində demokratiya, insan haqları uğrunda mübarizə adı altında mütərəqqi, sovet totalitarizminə qarşı çıxan qüvvə kimi müdafiə və təbliğ olunmağa başlandı. Öz torpaqlarını müdafiə edən, separatizmin əleyhinə olan Azərbaycan xalqı isə guya SSRİ-ni qoruyub saxlamaq istəyən mühafizəkar, dindar, islam fundametalistləri kimi təqdim edildi.





Bəzi tədqiqatçılar belə hesab edir ki, əslində beynəlxalq güclər erməni lobbisi vasitəsilə SSRİ-ni dağıtmağa görə gördüyü işlər müqabilində Qarabağı ermənilərə vəd etmişdir. Məhz buna görə ABŞ Səddam Hüseyni 150-yə yaxın şiəni qətlə yetirdiyinə görə edam etdirdiyi halda, minlərlə azərbaycanlını insanlığa yaraşmayan vəhşiliklə qətlə yetirən ermənilərə heç bir söz demir, Avropa dövlətləri ermənilərin törətdikləri qətliamlara, özgə torpaqlarını işğal etmələrinə göz yumur.

Dünyanın qloballaşması sükanı arxasında dayanmış BMT və onun Təhlükəsizlik Şurası isə özünün 4 mötəbər qərarının arxasında dayanmır.

Sovet imperiyasının rəhbərliyi milli münaqişələrdən istifadə edərək SSRİ-nin bütövlüyünü qoruya bilmədilər.

Bir çox analitiklər doğru olaraq belə hesab edir ki, ***Dağlıq Qarabağdakı hadisələr müstəqilliyimizin əleyhinə yönəlmişdir və Xocalı soyqırımı da həmin prosesin kulminasiya nöqtəsi idi. Bu, əslində xalqımızın müstəqillik mübarizəsinin məhv olması üçün hazırlanmış ssenari olsa da, bu ssenarinin həyata keçirilməsində alət rolunu oynayan ermənilər planı soyqırım kimi həyata keçirdilər.***

1986-cı ildə Moskva Qazaxıstana D.Ə.Kunayevin yerinə milliyyətcə rus olan Gennadi Kolbini birinci katib təyin etdi. Bu, Qazaxıstanda böyük narazılığa, xalqın etirazına səbəb oldu. Bu əslində Qorbaçovun türk xalqlarına qarşı ilk fitnəkarlığı idi. Bir qədər sonra, 1987-ci ilin əvvəllərində «Literaturnaya qazeta» da İqor Belyayevin «İslam» adlı məqaləsi dərc edildi. Müəllif məqaləsində göstərirdi ki, islam dini SSRİ üçün təhlükəlidir və düşməndir, ümumiyyətlə, müsəlmanlar çox məkrli və xaindirlər. Bir qədər sonra, həmin ilin fevral və may aylarında Sov.İKP-nin orqanı olan

«Pravda» qəzetində da eyni məzmunda yazı çap olundu. Bu yazıda qazaxlar, qırğızlar «milli qapalılıq meylinə, milli lovğalılıq əhval-ruhiyyəsinə», «ayrı-ayrı millətçilik təzahürlərinə» görə ciddi tənqid olunurdu. Beləliklə, Moskva tərəfindən qatar hərəkətə gətirildi.

***Xocalıda həyata keçirilən soyqırım və bütövlükdə «Dağlıq Qarabağ problemi» SSRİ rəhbərliyinin ümumilikdə Azərbaycan siyasətinin tərkib hissəsi idi. Bu siyasəti özlüyündə bir neçə mərhələyə bölmək olar.*** Belə ki, o vaxtkı mərkəzin, yəni Moskvanın «yenidənqurmanın» ilk dövrlərində Azərbaycan-Ermənistan münasibətlərinə, Dağlıq Qarabağ məsələsinə münasibəti bir cür (gözləmə; qızışdırma; daha çox Ermənistana üstünlük vermə; problemi SSRİ-nin ərazisi daxilində bir parça torpağın, yəni Azərbaycan torpağının bir respublikadan başqasına – Ermənistana verilməsi; buna qədər Krım Rusiya Federasiyasının tərkibindən çıxarılaraq Ukraynaya verilmşdi və bununla presedent yaradılmışdı), «yenidənqurma»nın dalana dirəndiyi vaxtlarda isə başqa cür olmuşdur.

***Bu hadisə əslində birdən-birə deyil, uzun illər ərzində diqqətlə hazırlanmış, ciddi siyasi-maliyyə dəstəyi alan partiya, sovet orqanları tərəfindən himayə edilən bir addım olmuşdur.***

Xocalı hadisələrinə qədər Ağdam, Sumqayıt və s. bu kimi hadisələr baş vermişdi. Bəzi publisistlər, politoloqlar belə hesab edirlər ki, əgər Sumqayıt hadisəsinə qədər Qorbaçov Dağlıq Qarabağı Ermənistana verməyə daha çox meylli idisə, bu hadisə və Azərbaycan xalqının sərt müqaviməti onun tərəddüd etməsinə səbəb oldu. O, bundan sonra problemi kompromis yolu ilə həll etməyə üstünlük verdi.





***Əslində Rusiya hökuməti Xocalı faciəsini planlaşdırıb həyata keçirməklə xalqımızın müstəqillik əzmini sındırmaq niyyətində idi. Ancaq nə qədər çətin də olsa xalqımız mübarizə əzmini daha da artırmaqla düşmənin öz niyyətinə çatmasına imkan vermədi.***

Xocalı faciəsi ümumilikdə Rusiyanın Şərq siyasətinin, müsəlman, türk dünyasına qarşı yeritdiyi siyasətin nəticəsdir. Bu siyasətin icraçısı isə ruslar tərəfindən XIX əsrin I rübündən Azərbaycana köçürülüb yerləşdirilən ermənilər olmuşdur. «Xocalı faciəsi iki yüz ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırım siyasətinin qanlı səhifəsdir» (3).

SSRİ-nin dağılması ərəfəsi və ondan sonrakı dövrdə Ermənistan beynəlxalq hüquq normaları və BMT nizamnaməsini kobud şəkildə pozaraq Moskvanın himayəsi ilə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı işğal etmək məqsədilə məkrli fəaliyyətə başladı.

Azərbaycan torpaqlarının bir hissəsi olan Qarabağ Aran və Yuxarı, yaxud Dağlıq hissədən ibarətdir (Bax: Xəritə 2). Azərbaycana gəlmə olan ermənilər Qarabağın dağlıq ərazisinin hamısında deyil, yalnız bir hissəsində yaşamışlar. Təsadüfü deyil ki, «Dağlıq Qarabağ» ifadəsi termin kimi I dünya müharibəsinin sonlarından işlənməyə başlanmışdır. (Daha geniş məlumat üçün bax: 19; 32). Rusiya Kommunistr (bolşeviklər) partiyası Zaqafqaziya Ölkə Komitəsinin Dağlıq Qarabağda milliyətcə erməni olan məsul nümayəndəsi Ş.Şaduns bütün Qarabağın Azərbaycan Xalq Cümhuriyyətinə daxil olduğunu bildirərək 20 dekabr 1922-ci ildə yazırdı: «elə bu dövrdə daşnaklar tərəfindən yaradılmış yeni termin –Dağlıq Qarabağ əmələ gəldi. Daşnaklar Ermənistanda hakimiyyəti ələ aldıqdan sonra yenidən Dağlıq Qarabağ uğ-

runda mübarizəyə girişir» (sitat K. Şükürovun «Dağlıq Qarabağ: anlayışı və ərazisi haqqında (tarix və müasirlik)» məqaləsindən götürülmüşdür. Bax: 32, 103).

***Beləliklə, ermənilər Qarabağın dağlıq ərazisinin bir hissəsindən ibarət olan Dağlıq Qarabağı coğrafi anlam kimi deyil, siyasi termin kimi irəli atmaqla onu ələ keçirmək uğrunda mübarizəyə başladılar.***

İstedadlı Azərbaycan tarixçisi K.Şükürov yazır: «Lakin Muxtar Dağlıq Qarabağ Vilayətinin (Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul dekabrında qurum rəsmən belə adlanır) yaradılması ilə onun, yəni Qarabağın bütövlüyü yenidən və qəti şəkildə pozulur. Muxtar Dağlıq Qarabağ Vilayətinin ərazisi elmi-coğrafi yox, volyuntarist prinsip əsasında formalaşdırılıb. Yəni o, erməni yaşayan məskənlərin üstün olduğu lokal əraziləri müxtar qurum adı altında birləşdirməklə təşkil edilmişdir. (Qeyd etmək lazımdır ki, bu prinsipi əsas götürməklə dünyanın əksər ölkəsi və ya iri şəhərində kompakt yaşayan hər hansı gəlmə əhalinin inzibati-siyasi qurumunu təşkil etmək mümkündür. Belə ki, Nyu-Yorkda Çin məhəlləsi əsasında çinlilərlə, yaxud müvafiq qaydada yaponlara muxtariyyət tələb etmək olar). (32, 104).

Görkəmli Qafqazşünas M.A.Skibitski 1899-cu ildə Tiflisdə nəşr etdirdiyi «Материалы для устройства казенных летних и зимных пастбиш и для изучения скотоводствана Кавказа» adlı kitabında Qarabağla bağlı çox maraqlı məlumatlar vermişdi. O, burada onverstlik miqyasda (müasir ölçülərlə 1:420 000) tərtib etdiyi xəritəni də vermişdir. Bu xəritələrdən biri də «Карта Карабахских казенных летних пастбищ» adlanır. O, yazır: «Qarabağın yay otlaqları Qarabağ adlanan, 1828-ci ildə Rusiyaya birləşənədək (işğal edilənədək-





Boran Əziz) xüsusi Qarabağ xanlığını təşkil edən torpaqlarda yerləşmişdir. O... uzunluğu 102.4 verst, ... enlikdə isə 146 verst uzanır.* ...Təsvir edilən yaylaqlardan istifadə edənlərin umumi sayı 452 kənd arasında paylanmış 26038 təsərrüfatdır, onlardan 4048 təsərrüfat Cəbrayıl qəzasının 81 kəndində, 5064 təsərrüfat Cavanşir qəzasının 102 kəndində, 331 təsərrüfat Yelizavetpol (Gəncə) qəzasının 4 kəndində, 9432 təsərrüfat Zəngəzur qəzasmnın75 kəndində, 5223 təsərrüfat Şüşa qəzasının 81 kəndində 1940 təsərrüfat Cavad qəzasının 9 kəndində yaşayırdı».

Skibitskinin fikrincə tayfa tərkibinə görə Qarabağ yaylaqlarından istifadə edənlər azərbaycanlılar, ermənilər və başqaları olmuşdur.O, yazır ki, 18919 təsərrüfatdən ibarət azərbaycanlılar-türklər bütün Qarabağ ərazisində səpələnmiş 333 kənddə və Gəncə ovalığında olan 2 kənddə;.. 3408 təsərrüfatdan ibarət ermənilər Cavanşir, Zəngəzur və Cəbrayıl uyezdlərinin yüksəklik hissəsində 47 kənddə yaşayırdı.**

1986-ci ilin ortalarında Dağlıq Qarabağ erməniləri

---

* Qarabağ xanlığının tarixində mühüm rol oynamış İbrahim xanın dövründə onun vəziri olmuş M.C.Cavanşir (1773-1895) «Qarabağ tarixi»ndə yazır: «Qədim tarix kitablarının yazdığına görə Qarabağ vilayətinin sərhədi belədir: Cənub tərəfdən Xudafərin körpüsündən – Sınıq körpüyə qədər Araz çayıdır. İndi (Sınıq körpü) Qazax Şəmsəddin və Dəmirçi-Həsənli camaatı arasındadır... Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla Kür çayına qədər- Goran çayıdır... Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan Qarabağ dağlarıdır (17, 107-108). (Bax: Xəritə 3)

** Görkəmli rus yazıçısı Y.Pompoyev bu rəqəmələri faizlə hesablayaraq göstərir ki, «əsrin əvvəli üçün yaylaqlardan istifadə edənlərin sayının 72,6%-i türklərə, 13%-i ermənilərə, 14,6%-i isə digər xalqlara məxsus olmuşdur (27, 39).

özlərinin Yerevandakı və xaricdəki havadarlarının köməyilə seperatçılıq hərəkatına yenidən başladılar. Azərbaycanın tərkibindəki siyasi, iqtisadi, sosial və mədəni muxtariyyətə malik olan Dağlıq Qarabağda yaşayan erməni icması millətlərin öz müqəddaratını təyin etmək hüququnu bəhanə edərək Azərbaycan dövlətinə tabe olmaqdan imtina etdi. Rusiya və Ermənistan isə Dağlıq Qarabağ ermənilərinin müdafiəçisi kimi çıxış etdi.

Çar Rusiyası hələ XVIII əsrin 80-ci illərində erməni «dövləti»ni məhz Qarabağ ərazisində yaratmağı nəzərdə tuturdu. Hətta bu planı həyata keçirmək üçün Rusiya imperatoru II Yekatrina (1762-1796-cı illər) 1783-cü il aprelin 6-da göstəriş də vermişdi. İmperatriçanın göstərişində qeyd olunurdu ki, «İbrahim xanı devirməli və Qarabağda müstəqil erməni əyaləti təsis etməli» (32,80).

Qeyd edək ki, ermənilər himayədarlarının köməyi ilə XX yüzildə bir neçə dəfə Qarabağı ələ keçiməyə cəhd etmişdilər.

Leninin, Stalinin yaxın dostu, silahdaşı xalqımıza qarşı rəğbəti ilə tanınmayan A.İ.Mikoyan 1919-cu il mayın 22-də Leninə yazırdı ki, «Erməni hökumətinin daşnaq agentləri Qarabağı Ermənistana birləşdirməyə calışırlar. Bu, Qarabağ əhalisi üçün Bakıdakı həyat mənbəyindən məhrum olma və heç zaman və heç nə ilə əlaqəsi olmadığı Erivanla bağlanmaq deməkdir. Erməni kəndliləri beşinci qurultayda Azərbaycanı tanımağı və ona birləşməyi qərara aldılar».

XI Qırmızı Ordunun Azərbaycana hücumu ərəfəsində Moskvaya gəlmiş erməni nümayəndələri ərazi güzəştləri, o cümlədən Qarabağın onlara verilməsi müqabilində Azərbaycan hökumətini devirmək işində Sovet Rusiyası ilə razılığa gəlmişdilər. 1920-ci il mart ayının 22-də Qarabağda Moskvanın təhriki ilə erməni qiyamının baş verməsi və Azərbaycan ordusunun Qarabağa cəlb edilməsi əvvəlcədən hazırlanmış təxribatın nəticəsi idi.





Məhz buna görə 1920-ci ilin aprelində Azərbaycan rus sovet ordusu tərəfindən işğal edildikdən bir qədər sonra torpaqlarımızın bir hissəsi Ermənistana və Gürcüstana verildi (Bax: Xəritə 4). Bununla yanaşı ermənilər Qarabağın dağlıq hissəsini də ələ keçirmək üçün fəallaşdılar.

Qarabağın dağlıq hissəsini ermənilərə verib onu birdən-birə Ermənistana birləşdirməyin mümkün olmadığını görən ermənilər rus sovet hakimiyyəti ilə daha hiyləgər bir yol tutdular. 1921-ci il iyulun 5-də Rusiya Kommunist (bolşeviklər) Partiyasının Qafqaz bürosu Moskvanın göstərişi ilə Qarabağın dağlıq hissəsində ermənilər üçün vilayət yaradılması və onun Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində saxlanılması haqqında qərar qəbul etdi (36,90-91,92).

«RK(b) MK-nın Qafqaz bürosu plenumunun axşam iclasının protokolundan

5 iyul 1921-ci il

İştirak edirlər: RK (b) P MK üzvü Stalin, Qafbüronun üzvləri: yol. Orcanikidze, Kirov, Nazaretyan, Oraxelaşvili, Fiqatner, Nərimanov, Myasnikov, ASSR Xalq Xarici İşlər Komissarı Hüseynov.

| Dinlənildi: | Qərara alındı: |
|---|---|
| 1. yol. Orcanikidze və Nazaretyan əvvəlki plenumun Qarabağ haqqında qərarına yenidən baxılması məsələsini qaldırdılar. | a) Müsəlmanlar və ermənilər arasında milli sülhün zəruriliyini və Yuxarı və Aşağı Qarabağın Azərbaycanla kifayət qədər iqtisadi əlaqələrini nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-nin tərkibində saxlanılsın, ona inzibati mərkəzi muxtar vilayətin tərkibindəki Şuşa ş. olmaqla geniş vilayət muxtariyyəti verilsin.<br>Səs verirlər -4 lehinə, 3 bitərəf<br>b) Azərbaycan MK-ya tapşırılsın ki, sonradan RKP MK Qafqaz bürosunun təsdiqinə verməklə, muxtar vilayətin sərhədlərini müəyyən etsin.<br>v) RKP MK Qafqaz bürosunun Rəyasət Heyətinə Dağlıq Qarabağın Fövqəladə Komitəsinə namizəd haqqında Azərbaycan və Ermənistan MK ilə danışıq aparması tapşırılsın.<br>q) Azərbaycan MK tərəfdən Dağlıq Qarabağın muxtariyyət həcmi müəyyən edilsin və təsdiq üçün MK-nın Qafqaz bürosuna təqdim edilsin.<br>RKP MK Qafqaz bürosunun katibi: Fiqatner |





Doğrudur, Azərbaycan rəhbərliyi, xüsusən Aşağı Qarabağ rayonlarının nümayəndələri belə bir bölgüyə etirazlarını bildirmişdilər. 1921-ci ilin sentyabrında AK (b) P MK siyasi və təşkilat bürosunun iclasında qəbul edilən qətnamədə Qafbürodan Dağlıq Qarabağa geniş müxtariyyət verilməsi haqqında qərara yenidən baxılması xahiş edildi. Ancaq Qafbüronun 1923-cü il 27-28 iyun plenumu AK(b) P MK-ya ultimativ formada bir ay müddətində Dağlıq Qarabağa muxtariyyət verilməsi işini başa çatdırmağı tapşırdı. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1923-cü il iyulun 7-də Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradılması haqqında dekret verdi. Dekretin birinci bəndində göstərilirdi ki, «Dağlıq Qarabağın erməni hissəsindən Azərbaycan SSR-in tərkib hissəsi kimi Xankəndi* adlanan yer mərkəz olmaqla muxtar

* Qeyd edək ki, Xankəndi kiçik yaşayış məntəqəsi olmaqla Qarabağ xanı İbrahimxəlil xanın şəxsi malikanəsi olmuşdur. Xana məxsus olan cins atlar və sağlam heyvanlar burada saxlanılırdı. Sonralar ərazinin strateji əhəmiyyətini nəzərə alan çar Rusiyası buradan yerli əhalini –türkləri çıxarıb əvəzinə rus ordusunun əsgərlərini yerləşdirdi. Belə ki, Qafqaz canişinliyinin Mülki işlər üzrə Baş idarəsinin Zaqafqaziya Statistika Komitəsinin Zaqafqaziya diyarı üzrə keçirdiyi 1886-cı il siyahıyaalmasında göstərilir ki, Xankəndi kənd cəmiyyəti Xankəndində yerləşir və Yelizavetpol quberniyasının Şuşa ərazsinin I sahə pristavı da məhz burada məskən salmışdır. Orada göstərilir ki, Xankəndində 71 tüstü (ev-B.Ə.) olmaqla 279 nəfər adam (149-kişi, 130 –qadın) yaşayır. Milli tərkibə görə qeyd edilir ki, buradakı evlərin 69-u ruslara, 1- ermənilərə, 1-i isə tatarlara (yəni türklərə-B.Ə.) məxsus olmuşdur.Dini inanc üzrə buradakı əhalinin 276-sı rus-provoslav, 2-si qriqoryan erməni, 1-i isə sünni müsəlman –türk idi. Burada mövcud olan 71 ev və yaşayan 279 nəfər adamın hamısı xəzinə torpaqlarında yaşayırdılar. Çar Rusiyası «Kürəkçay müqaviləsi»nin şərtlərini ayaq altına ataraq 1822-ci ildə Qarabağ xanlığını ləğv etdi. Xan və onun ailəsinə məxsus olan torpaqların böyük əksəriyyəti

vilayət yaradılsın». (36, 152-153). (Bax: Xərtiə 5) Dekretdən göründüyü kimi ermənilər Dağdıq Qarabağın bütün ərazisində yox, ancaq bir hissəsində məskunlaşmışdılar. Bundan başqa, onlar üçün ayrılan mərkəzin – Xankəndinin adı da xalqımıza məxsus idi. Lakin yer adlarının dəyişdirilib «özününküləşdirilməsində» xüsusi məharəti olan erməni xisləti bu işdə də özünü göstərdi. Belə ki, 1923-cü il 10 avqust tarixli fərmanla qədim Xankəndinin adı dəyişdirilərək xalqımıza qarşı 1918-ci ildə törədilmiş Mart soyqırımının təşkilatçısı, Azərbaycan xaplqının və onun müstəqilliyinin qəddar düşməni olan Stepan Şaumyanın adı verilərək Stepanakert adlandırıldı.

Ancaq dövlətimiz öz müstəqilliyini bərpa etdikdən sonra, Azərbaycan dövlətinin 1991-ci il noyabr qərarı ilə bu qədim torpağımızın əvvəlki adı yenidən bərpa olundu.

Qarabağın, o cümlədən onun dağlıq hissəsinin Azərbaycanla bağlı olduğunu başqa bir erməni dövlət xadimi, o dövrdə RK(b) P-nın Zaqafqaziya partiya təş-

Rusiya dövlətinin xəzinəsinə qatıldı. 1898-ci ildən sonra çar hökuməti buranı hərbi qərargaha çevirdi. (42, Елисаветопольская губарния-Шушинский уездь- I участокь). Azərbaycan Cümhuriyyəti də 1918-1920-ci illərdə Qarabağdakı qoşun hissələrinin qərargahını burada yerləşdirmişdi.

1921-ci il kənd təsərrüfatı siyahıya alınmasında göstərilir ki, Xankəndi kənd cəmiyyətinin təkibində 9 kənd olmuşdur. Bu kənd cəmiyyətinin mərkəzi olan Xankəndinin əhalisi artıq yalnız ermənilərdən ibarət idi və onların sayı1379-a (683-kişi, 696-qadın) çatdırılmışdı. Ermənilərin 16-sı isə işğalçı Qırmızı Ordunun tərkibinə daxil olmuşdu (34a, 2-3).

Beləliklə, rusların yeritdiyi məkrli siyasət nəticəsində Xankəndinin erməni əhalisinin sayı XIX yüzilin sonuna nisbətən 1921-ci ildə 5 dəfə artaraq iri yaşayış məntəqəsinə çevrilmişdi.





kilatının rəhbərlərindən biri olan, xalqımıza qarşı nifrəti ilə tanınan Levon Mirzoyan da etiraf edərək 1923-cü ildə yazırdı ki, «Xalis Qarabağ məsələsi yoxdur. Erməni kəndlisi Bakı və Ağdamla sıx əlaqəsi olmadan yaşaya bilməz, yalnız onun ovalıq hissəsi yolunu təhlükəsiz etmək və mədəni inkişafına imkan vermək lazımdır» (Bax: 27, 17).

Tariximizi saxtalaşdırmaqdan çəkinməyən, şovinist baxışları ilə tanıdığımız başqa bir erməni yazıçısı, Marietta Şaginyan 1927-ci ildə DQMV-nı uzun müddət gəzib-dolaşdıqdan sonra belə fikrə gəlir ki, bu torpaq «özünün coğrafi və iqtisadi mövqeyi baxımından üzünü daha çox Azərbaycana çevirmişdi. Əsrarəngiz meşəli yaylaqlar buraya enir, çaylar buraya axıb gedir, yollar buraya uzanır, çay axarı və yollar boyunca kəndlər və adamlar da dəyişir: ticarətlə məşğul olur, mal alır, mal dəyişir, uyğunlaşır, tələbata cavab verir, məişət cizgilərini mənimsəyir, ümumi məqsədlərlə bir-birilə bağlanırdılar» (46).

1920-1930-cu illərdə Qarabağı tam ələ keçirə bilməyən ermənilər II dünya müharibəsinin sonlarında yaranmış şəraitdən istifadə edib yenidən fəallaşdılar. Bununla bağlı 1946-1950-ci illərdə Azərbaycan Kommunistr (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin ikinci katibi olmuş Həsən Seyidovun xatirələri bizə çox maraqlı məlumatlar verir. O, yazır: «Bizim hamımızı Cənubi Azərbaycanda işlərin vəziyyəti narahat edirdi. ***Bununla belə mərkəzdə (yəni Moskvada – red) çoxları ciddi şəkildə inanırdılar ki, Azərbaycanın hər iki hissəsinin birləşdirilməsi yaxın günlərin işidir.*** Hakimiyyətin yuxarı eşalonlarında, hətta Stalinin ətrafında olanlar buna şübhə etmirdilər, çünki öz gözləri ilə görürdülər ki, Stalin bu işdən necə möhkəm yapışıb.

Bununla əlaqədar Azərbaycanın, Gürcüstanın və Ermənistanın aparıcı şəxsləri arasında belə bir söhbət də olmuşdu: soyuq bir payız günü M.C.Bağırov Stalinin qəbul otağında Gürcüstanın və Ermənistanın hamiləri Beriya və Mikoyanla qarşılaşdı. Onlar qəbul gözləyərkən Zaqafqaziyanın inzibati xəritəsi qarşısında durmuşdular. Beriya Bağırova dedi: «Mir Cəfər! Tezliklə hər iki Azərbaycan birləşib vahid böyük dövlətə çevriləcəkdir, sizin respublikanız Rusiya və Ukraynadan sonra Sovet İttifaqının üçüncü respublikası oacaqdır». O, barmağını Şəki-Zaqatala zonasının bir hissəsi – Qax, Zaqatala və Balakən zonaları üzərində gəzdirdi: «Düşünürəm ki, o zaman sən Sovet Azərbaycanın şimal-qərbində, bax, bu zonanın Gürcüstana verilməsinə etiraz etməzsən. Həm də bu zonada qədimdən gürcülər-ingiloylar yaşayırdılar». Sonra xəritəyə Mikoyan yaxınlaşır. Azərbaycanın gələcəyi haqqında əvvəlki həmsöhbətə nisbətən bir qədər laqeyd tonda, sanki ürəyində buna təəssüf edərək Beriyanın sözlərini təkrar edir, əlindəki qələmi Şaumyan (kənd) (əvvəlki adı Gülüstan-B.Ə.), Kəlbəcər, Laçın, habelə Xanlar rayonunun ermənilər məskunlaşan hissəsi də daxil olmaqla Dağlıq Qarabağın üzərində gəzdirir və deyir: «Düşünürəm ki, bu rayonların və kəndlərin Ermənistana verilməsinə də etiraz etməzsən. O zaman Ermənistan azərbaycanlıların, rusların və kürdlərin ermənilərlə sülh və dostluq şəraitində yaşadığı çoxmillətli böyük respublika olar».

M.C.Bağırov xəritədən bir qədər uzaqlaşıb həmsöhbətlərinin - «dostlar»ın üzünə təəccüblə baxdı və dedi: «hələ öldürülməmiş ayının dərisini bölüşdürmək tez deyilmi?» (24, 31- 32).

Ermənilərin II Dünya müharibəsinin qurtarmasından sonra Qarabağı ələ keçirmək sahəsində fəaliyyəti





daha da güclənmişdi. Belə ki, 1945-ci ilin noyabrında Ermənistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin birinci katibi Arutyunyan (bəzən sənədlərdə Arutyunov göstərilir). Ermənistan K(b) P MK-si və Ermənistan Xalq Komissarları Sovetinin ÜİK (b) P MK-na və İttifaq hökumətinə – İ.V.Stalinin adına Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Qarabağ vilayəti adı altında Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında məsələ qaldırmışdı.

Şübhəsiz ki, Ermənistan rəhbərliyi bu məsələni Moskvanın razılığı və «xeyri-duası» ilə qaldırmışdı. Moskva həmişəki kimi, dərhal qərar verməyib Azərbaycan rəhbərliyinin fikrini öyrənmək qərarına gəlir. Bu məqsədlə ÜİK (b) P MK-nın katibi G.M.Malenkov 1945-ci il noyabrın 28-də Ermənistan rəhbərliyinin müraciətini Azərbayan K(b) P MK-nın birinci katibi M. C.Bağırova göndərir və ondan bu məsələyə öz münasibətini bildirməyi təklif edir (7; 19, 76-77; 26, 36-37).

Məktub maraqlı olduğu üçün olduğu kimi verməyi məqsədəuyğun hesab edirik.

«Moskvadan 28.XI. 1945-ci
il Azərbaycan K(b)P MK-nın
katibi Bağırov yoldaşa

Ermənistan K(b) P MK-nın katibi Arutyunov yoldaş (əslində onun familiyası Arutyunyandır-B.Ə.) hazırda Azərbaycan SSR-nin tərkibində olan Dağlıq Qarabağ vilayətinin Ermənistan SSR-nin tərkibinə qatılması haqqında təklifi ÜİK(b)P MK-nın müzakirəsinə təqdim edib.

Arutyunov yoldaş öz məktubunda bu barədə aşağıdakıları yazır; « Ermənistana bitişik olan Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildən Azərbaycan SSR-

nin tərkibinə daxildir. Bu vilayətin əhalisi əsasən ermənilərdən ibarətdir. 153 minlik əhalinin 137 mini ermənidir. Dağlıq Qarabağın kənd təsərrüfatı Ermənistanın dağlıq hissəsindəki təsərrüfatla eyniyyət təşkil edir. Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi onun inkişafına xeyli köməklik göstərər və təsərrüfatın inkişafını xeyli yaxşılaşdırardı. Ermənistan respublika orqanlarının rəhbərliyi əhaliyə ana dilində mədəni-kütləvi və siyasi xidmətin göstərilməsi işini gücləndirərdi.

Dağlıq Qarabağ vilayətinin Ermənistanın tərkibinə qatılması yerli kadrlara Ermənistanın ali məktəblərində öz təhsillərini ana dilində davam etdirməsinə imkan yaradardı.

Eyni zamanda Ermənistan Respublikası üçün Dağlıq Qarabağdan olan ixtisaslı kadrlara tələbatı təmin etmiş olardıq.

Bundan və Dağlıq Qarabağ əhalisinin arzusundan çıxış edərək, Ermənistan Mərkəzi Komitəsi və Xalq Komissarları Şurası Azərbaycan SSR-nin Dağlıq Qarabağ vilayətinin Qarabağ vilayəti qismində Ermənistan SSR-nin tərkibinə daxil edilməsi təklifini ÜİK(b)P MK-nın və İttifaq hökumətinin sərəncamına təqdim edir.

Bu məsələnin müsbət həlli halında Ermənistanın MK-sı və Xalq Komissarları Şurası Qarabağın keçmiş mərkəzi olan və Sovet hakimiyyətinin qurulması ərəfəsində dağıdılmış Şuşa şəhərini bərpa etmək təklifi ilə hökumətə müraciət edəcəkdir».

Ermənistan K(b)P MK-nın təklifi ilə əlaqədar Sizin rəyinizi bilmək istərdik.

ÜİK(b) P MK katibi (Malenkov)
HR 17»





Göründüyü kimi, erməni rəhbərliyi bu məktub- müraciətdə də xeyli saxtakarlıq və təhriflərə yol vermişdilər. Məsələn, orada göstərilir ki, «Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistan ərazisinə bitişikdir» və o «1923-cü ildən Azərbaycan SSR-in tərkibinə daxildir». Halbuki bu vilayətin heç bir zaman Ermənistanla sərhədi olmamışdır və bunu xəritəyə baxmaqla çox asanlıqla görmək olar (Bax: Xərtiə 5). Digər tərəfdən, bu torpaqlar Qarabağın yalnız yuxarı hissəsini- dağlıq ərazisini təşkil etməklə həmişə Azərbaycan xalqına məxsus olmuş və Azərbaycan dövlətinin tərkibində olmuşdur.

Bundan başqa orada iddia edilir ki, vilayətdə yaşayan əhalinin 137 minini (təxminən 90%) ermənilər təşkil edir. Ancaq bu dövrdə vilayətdə ermənilər əhalinin 45%-dən çox olmamışdır. Digər tərəfdən Şuşada azərbaycanlılar mütləq üstünlüyə malik idi.

Ümumiyyətlə, burada bilərəkdən xeyri sayda belə saxtakarlığa yol verilmişdir.

Azərbaycan K(b)P MK-nin birinci katibi M.C.Bağırov cəmi 12 gündən sonra, 12 dekabr 1945-ci ildə Moskvaya olduqca tutarlı, elmi, məntiqi cavab verdi. Bu gün şəxsiyyətinə, fəaliyyətinə haqlı və ya haqsız şəkildə birmənalı qiymət verilməyən M.C.Bağırovun cavab məktubu çox böyük tarixi əhəmiyyət daşıdığı üçün oxucuların da marağına səbəb olacağını düşünərək onu olduğu kimi veririk:

«Tam məxfidir. Malenkov yoldaşa.

Ermənistan kommunist (bolşeviklər) Partiyası MK-nın katibi Arutyunov yoldaşın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə daxil edilməsi haqqında təklifi ilə əlaqədar Sizin teleqramınıza cavab olaraq məlumat verirəm:

Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qədim zamanlardan, mərkəzi 1747-ci ildə Qarabağlı Pənah xan tərəfindən qala kimi tikdirilmiş Pənahabad şəhəri olan Qarabağ xanlığının tərkibində olmuşdur.

1826-cı ildə Qarabağ çar Rusiyasına birləşdirilmişdir. (Əslində Qarabağ xanlığı 1805-ci il may ayının 14-də Qarabağ xanı İbrahim xanla rus qoşununun komandanı Sisianov arasında bağlanan «Kürəkçay müqaviləsi» əsasında Rusiyaya tabe edilmiş, 1822-ci ildə isə xanlıq ruslar tərəfindən ləğv edilmişdir-B.Ə.) Sonralar indiki Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Qaryagin və Qubadlı qəzalarının tərkibində olmuşdur.

1918-1920-ci illərdə müsavatcıların Azərbaycanda və daşnakların Ermənistanda ağalığı dövründə müsavat hökuməti tərəfindən mərkəzi Şuşa (keçmiş Pənahabad) şəhəri olan general-qubernatorluq təşkil etmişdir.

Müsavatçılar və daşnaklar tərəfindən təşkil olunmuş millətlərarası qırğının nəticəsində Azərbaycanın və Ermənistanın bir çox şəhərləri kimi Şuşa da dağıdılmış və xarabalığa çevrilmişdir.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan ***sonra ilk dövrlərdə bütün Qarabağın təsərrüfat-siyasi həyatına rəhbərlik vahid Vilayət İnqilab Komitəsi tərəfindən həyata keçirilirdi.***

1923-cü ildə ***Qarabağın əsasən ermənilərin məskunlaşdığı dağlıq hissəsinin*** Ermənistan SSR-yə birləşdirilməsi məsələsi qaldırıldı. Lakin bu ərazinin Ermənistan SSR ilə ümumi sərhədlərinin olmaması və Ermənistandan yalnız azərbaycanlıların yaşadığı Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ayrılması səbəbindən, partiya orqanlarının göstərişi əsasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il





tarixli dekreti ilə mərkəzi Xankəndi, indi Stepanakert adlanan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi cəhətdən heç vaxt Ermənistan SSR-yə bitişik olmamışdır və hazırda da bitişik deyildir.

Azərbaycanda Sovet hakimiyyəti illərində Dağlıq Qarabağda vilayətin təsərrüfat-siyasi və mədəni inkişafı sahəsində böyük işlər görülmüşdür. Bu inkişafın ən parlaq nümunələrindən biri -DQMV-nin hazırkı mərkəzi Stepanakert şəhərinin başlı-başına buraxılmış və dağıdılmış bir kənddən Azərbaycanın ən gözəl, abad və mədəni şəhərlərindən birinə çevrilməsidir.

Azərbaycan SSR-nin bütün ali təhsil məktəbləri və texnikumları tələbələrinin 20,5 faizini, əksəriyyəti Dağlıq Qarabağ Muxtar Vilayətindən olan ermənilər təşkil edir.

Respublikanın partiya, sovet, təsərrüfat rəhbərləri-Azərbaycan K(b)P MK-nın katibləri, müavinləri, xalq komissarları, xalq komissarları müavinləri və s. arasında Dağlıq Qarabağdan yoldaşlar da az deyildir.

***Bununla belə biz Dağlıq Qarabağ Muxtar Vilaytinin Ermənistan SSR-in tərkibinə qatılmasına etiraz etmirik, lakin Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olmasına baxmayaraq hazırda da əsasən azərbaycanlıların yaşadığı Şuşa rayonunun Ermənistan SSR-yə verilməsinə razı deyilik.***

Şuşa şəhəri bina edildiyi gündən Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olmaqla yanaşı, həm də Azərbaycan xalqının öz müstəqilliyi uğrunda İran işğalçıları ilə apardığı mübarizədə müstəsna rol oynamışdır.

Ən qaniçən fatehlərdən biri, Zaqafqaziya xalqlarının cəlladı Ağa Məhəmməd şah Qacar məhz Şuşada öldürülmüşdür.

Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti bu şəhərdə formalaşmışdır. İbrahim xan, Vaqif, Natəvan və digər bu kimi görkəmli siyasət və mədəniyyət xadimlərinin adları onunla bağlıdır.

Eyni zamanda, ÜİK(b) MK-nın nəzərinə çatdırmağı zəruri hesab edirik ki, DQMV-nin Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, ***Ermənistan SSR-nin Azərbaycan respublikasına bitişik olan və əsasən azərbaycanlıların yaşadığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.***

Bu rayonların mədəni və iqtisadi cəhətdən son dərəcə geridə qalmasını nəzərə almaqla, ***bunların Azərbaycana verilməsi əhalinin maddi-məişət şəraitinin və ona mədəni-siyasi xidmət işinin yaxşılaşdırmağa imkan yaradardı.***

ÜİK(b)P MK-dən yuxarıda göstərilənlərdən əlavə aşağıdakı məsələlərə baxılmasını xahiş edirik:

***Gürcüstanlı yoldaşlar Azərbaycan SSR-nin Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-nin tərkibinə daxil edilməsi məsələsini qoyurlar.***

Göstərilən ***rayonlarda əhalinin ümumi sayı 79.000 nəfər olduğu halda cəmi 9.000 gürcü-inqiloyun yaşamasına baxmayaraq biz bu məsələyə baxılmasına*** etiraz etmirik, lakin bu məsələ ilə bir zamanda, Gürcüstan SSR-nin demək olar ***yalnız azərbaycanlıların yaşadığı və bilavasitə Azərbaycan SSR-yə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR –nin tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.***

Və nəhayət biz, ***Dağıstan SSR-nin keçmişdə Azərbaycanın bir hissəsi kimi Bakı quberniyası tərkibinə daxil olan və hazırda Azərbaycan SSR-yə bitişik olan Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan***





***SSR-nin tərkibinə qatılması məsələsini nəzərdən keçirmənizi xahiş edirik.*** Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarətdir, özü də maldarlıqla məşğul olan bu əhalinin yarıdan çoxu ilin 9 ayını Azərbaycan ərazisində keçirir.

Qaldırılmış bütün məsələlər üzrə təkliflərin hazırlanması üçün tərkibinə marağı olan hər bir respublikadan nümayəndələr daxil edilməklə ÜİK(b) MK komissiyasının yaradılmasını məqsədə uyğun hesab edirik

Azərbaycan K(b) P MK katibi (M.C.Bağırov)
10 dekabr 1945-ci il)
№330, Bakı şəhəri»

Azərbaycan rəhbərliyinin belə bir qətiyyətli və əsaslandırımış mövqe tutması – müzakirədən qaçmaması, müdafiə əvəzinə hücum etməsi və s. Moskvanı və erməniləri müvəqqəti də olsa fikrindən daşındırdı.

Ancaq 1960-cı illərdə SSRİ-nin daxili və xarici siyasətində antitürkiyə kompaniyası gücləndiyi vaxtda ermənilər yenidən Dağlıq Qarabağın ilhaq edilməsi istiqamətlərində fəaliyyətlərini gücləndirdilər. 1964-cü ildə A.Mikoyan SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri seçildikdən sonra Krımın Ukraynaya verilməsi zamanı heç bir qarşıdurmanın yaranmadığını əsas göstərərək Azərbaycana təzyiqləri artırdı* və ermənilər daha da

* 1954-cü ildə Ukraynanın Rusiya ilə yenidən birləşməsinin 300 illiyi ilə ədaqədər Krım vilayəti RSFSR-in tərkibindən çıxarılaraq Ukrayanya verilmişdir. Bu zaman həmin respublikalar və onların əhalisi arasında heç bir qarşıdurma yaranmamışdı. Çünki bu torpaq və burada yaşayan yerli əhali vaxtilə ruslar tərəfindən işğal edilmişdir.. Bu səbəbdən həmin torpaqların Ukraynaya verilməsinə ruslar və ukraynalılar laqeyd yanaşmışdılar. Əslində bu qərarla

fəallaşdı. Qeyd edək ki, Xrüşşovun dövründə rejimin «mülayimləşməsindən» sonra respublikalarda milli özünüdərk prosesi xeyli güclənmişdi. Əslində Moskva məhz həm də bu prosesi əngəlləmək və dayandırmaq məqsədi ilə «... xalqı qorxutmaq və müti halında saxlamaq üçün A.Mikoyan və M.Suslovun** təşəbbüsü ilə növbəti dəfə Dağlıq Qarabağ məsələsini ortaya atdı. Ermənistan SSR Azərbaycan SSR-in DQMV-nin erməni əhalisi Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etməyə başladılar» (15, 387) Ermənilər öz tələblərini əsaslandırmaq üçün 1965-ci ildə 45 min nəfərin adından Moskvaya petisiya təqdim etmişdi. «Xruşşov təklənmiş «kiçik qardaşda»da ədalətli «böyük qardaşa» ümid və inam möhkəmləndirmək üçün, habelə sərhəd dəyişikliklərinin qəsdən mübahisəli ərazilər yaradılmış başqa repsublikalarda da arzuolunmaz reaksiyalar doğuracağından çəkinib Azərbaycanın hüquqlarını müdafiə etdi (15, 388).

Tanınmış rus yazıçısı Yuri Pompoyevə görə bu məsələ müzakirə olunarkən «Xruşşov əsəbiliklə deyib: «Bir sutka ərzində DQMV ermənilərini Ermənistana köcürmək üçün 12 min hərbi yük maşınını onların ixtiyarına verməyə hazıram» (27, 18).

Beləliklə, Ermənistan SSR-nin və SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri A.Mikoyanın Xruşşova təsir göstərməklə DQMV-ni Azərbaycandan qoparmaq cəhdi növbəti dəfə baş tutmadı.

---

SSRİ-nin milli-ərazi quruluşu prinsipi pozulurdu. Qorxulu presedent yaradılırdı.

** Sonralar ermənilər iddia edirdilər ki, məhz Sov.İKP MK-nın katibi M.Suslov Dağlıq Qarabağın Ermənistana verilməsinə mane olmuşdur (Bax, 19, 80-82; 37, 9).





1969-cu ilin iyulundan, Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsindən, onun 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu üzvülüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verməsinə qədər separatçılıq hərəkətləri nəticəsiz qaldı.

Ancaq M,S, Qorbaçovun 1985-ci ildə Sov.İKP MK-nın Baş Katibi seçildikdən sonra apardığı məkrli, ermənipərəst siyasəti, Azərbaycanın o dövrdəki rəhbərliyinin qətiyyətsiz, qorxaq fəaliyyəti xalqımızı növbəti faciələrdən qurtara bilmədi.

Qeyd edək ki, eramızdan əvvəlki minilliklərdən başlayan dövlətçilik tariximizdə bəzən qonşu və ya uzaqda yerləşən o dövrün güclü dövlətlərinin hücum edərək torpaqlarımızı işğal etməsinin, hətta bir müddət dövlətimizi və xalqımızı özünə tabe etməsinin belə şahidi oluruq. ***Ancaq azadlıqsevər xalqımız sonradan daxli və xarici şərait imkan verən kimi ayağa qalxıb yenidən öz dövlətinin müstəqilliyini və torpaqlarının bütövlüyünü bərpa edə bilmiş, işğalın nəticələrini aradan qaldıra bilmişdir.***

***Ancaq təəssüf və ürək ağrısı ilə deməliyik ki, məruz qaldığımız iki dəhşətli faciənin nəticələrini isə bu gün də aradan qaldıra bilməmişik. Bunlardan biri 1813-cü ildəki Gülüstan və 1828-ci ilin oktyabrındakı Türkmənçay müqaviləsi ilə Azərbaycanın iki hissəyə bölünməsidirsə, ikincisi torpaqlarımızı hələ də erməni işğalından azad edə bilməməyimizdir.***

Məlum olduğu kimi, ermənilər öz müqəddaratını təyinetmə hüququndan XX yüzildə - 1918-ci ilin mayında ən yüksək səviyyədə istifadə edərək 9 min kv.km ərazisi olan müstəqil dövlətini - Ermənistan Respublikasını yaratmışlar (İndi onun ərazisi qonşu Gürcüstan

və Azərbaycan torpaqlarının işğalı nəticəsində 29 min kv. km.dir).

Dağlıq Qarabağ bölgəsinin erməniləri isə Azərbaycan dövlətində yaşayan milli azlıqlardan biridir və bu baxımdan ermənilərin öz müqəddaratını təyinetmə hüququnu bəhanə edərək bu torpaqların Ermənistana birləşdirilməsi üçün atdığı bütün addımlar beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması deməkdir.

***Sov. İKP və Sovet hökumətinin rəhbərliyi SSRİ-nin süqutunun qarşısını almaq, imperiyanın ərazi büiövlüyünü qorumaş və əhalinin diqqətini mühüm məsələlərdən yayındırmaq üçün respublikalarda milli qarşıdurma yaratdı.***

Məhz Moskvanın xeyir-duası ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin erməniləri arasında Ermənistanla birləşmək uğrunda «Miatsum» (birləşmə) hərəkatı başlandı. Vilayətdə uzun müddət gizli fəaliyyət göstərən, Ermənistanda yaradılmış «Qarabağ Komitəsinin» bir qolu olan «Krunk» («Durna» -bəziləri isə onun açılışını belə verirlər: Комитет Революсионного Управления Нагорного Карабаха) adlı cəmiyyət açıq mübarizəyə başladı.

Ermənistanda dövlət səviyyəsində gizli dəstələr yaradıldı. 1988-ci il fevralın 19-da Yerevandakı «Ermənistanda ermənilər yaşamalıdırlar», «Ermənistanı türklərdən təmizləməli» kimi antitürk şüarlarla mitinqlər keçirildi. Vilayətin şovinist ruhlu erməniləri də onlardan geri qalmadı, mitinqlərə başladı. 1988-ci il fevralın 20-də DQMV-i sovetinin deputatları vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-ə verilməsi qərarına səs verdilər. Qeyd edək ki, vilayət sovetinin azərbacyanlı deputatları bu səsvermədə iştirak etməkdən imtina etdilər. Vilayət sovetinin erməni deputatları Moskva, Bakı və Yerevan Ali Sovetlərinə müraciət göndərdilər. 1988-ci ilin iyununda Ermənistan SSR Ali Soveti DQMV-i sovetinin Ermənistana birləşdirmək qərarına razılıq verdi. Bu, bir tərəfdən SSRİ-nin milli-ərazi quruluşu prinsiplərinə zidd idi, digər tərəfdən Azərbaycanın ərazi bütövlüyünə kobudcasına qəsd idi.





Ermənistan parlamenti 1989-ci il dekabrın 10-da Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi, yəni qonşu dövlətin ərazisinin bir hissəsinin ilhaq olunması haqqında heç bir hüquqi əsası olmayan qərar qəbul etdi. Bu əslində Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qəsd idi və münasibətləri daha da kəskinləşdirdi.

***Dağlıq Qarabağda yaşayan, terrorçuluq və separatçılıq mövqeyində dayanan ermənilərə Ermənistana birləşməyin zəruri olduğu ideyasını qəbul etdirən Ermənistan Respublikası Rusiyadakı himayədarlarının havadarlığı ilə Azərbaycan ərazisinə hərbi qüvvə göndərərək açıq təcavüzə başladılar.***

Faciə orasında idi ki, belə vaxtda Azərbaycana rəhbərlik edənlərin problemi həll etmək üçün konseptual yanaşması, aydın, düşünülmüş proqramı yox idi.

***Sovetlər Birliyinin dağılmasının mümkünlüyünə inanmayan o zamankı Azərbaycan rəhbərliyi Dağlıq Qarabağ qondarma probleminin həllində Moskvaya hədsiz inam və ümid bəsləyirdi və bu özünü doğrultmadı.*** Moskvadan asılı siyasət yürüdərək milli ordunun yaradılmasına nail olmayan Azərbaycan rəhbərliyindən fərqli olaraq Ermənistan öz ərazisindəki keçmiş 7-ci Sovet ordusunun bazasında güclü ordu yarada bilmişdi. Sovet ordusundan həm texnika, həm də canlı qüvvə köməyi alan ermənilırin Dağlıq Qarabağda və Ermənistanla sərhəd bölgələrdə artan təcavüzünün qarşısını almaq getdikcə çətinləşirdi.

Rusiya SSRİ dağıldıqdan sonra keçmiş Sovetlər birliyi ərazisində öz hegemonluğunu saxlamaq üçün Müstəqil Dövlətlər Birliyi ideyasını ortaya atdı. ***Azərbaycan bu birliyə daxil olmağa tələsmədi,bunu xeyli götür-qoy etdi. Ermənistan isə əksinə, dərhal oraya üzv oldu. Bununla da onlar Rusiyanın timsalında özlərinə təkrar havadar tapdılar.***

***Dağlıq Qarabağ problemini ortaya atmaqla Ermənistan vasitəsilə Azərbaycana təzyiq edən Rusiyanın bu siyasəti erməni təcavüzkarlarını həm şirnikləndirdi, həm də gücləndirdi.***

Ermənilərin xalqımıza qarşı həyata keçirdikləri qətliamlarda o dövrdəki SSRİ və Rusiya rəhbərliyinin onlara etdiyi himayədarlığı gördükdə adamın yadına II Dünya müharibəsi dövründə rusların almanlar üzərində qələbəsində xalqımızın onlara etdiyi maddi, mənəvi köməklik, göstərdiyi fədakarlıq yada düşür. Belə ki, Bakı neftçiləri 1941-1945-ci illərdə bütün çətinliklərə baxmayaraq SSRİ-də istehsal edilən neftin dörddə üçünü – 75 milyon tona qədər neft, 20 milyon tona qədər benzin və neft məhsulları istehsal edərək rusların qələbəsinə öz paylarını vermişdilər. Müharibə illərində təyyarə benzinin 85-90%-ni Bakı verirdi.

Azərbaycanlılar 1941-1945-ci illərdə döyüşən əsgərlərə 1,6 milyon müxtəlif paltar toplamış, cəbhəyə 125 vaqon isti paltar, 350 min fərdi və on minlərlə kollektiv sovqatlar göndərmişdilər.

1941-1942-ci illərdə xalqımız müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 295 milyon manat nəqd pul, 15 milyon manat istiqraz vərəqəsi, tank və təyyara dəstələrinin təşkili üçün 230 milyon manatdan çox nəqd pul vermişdilər. Müharibə illərində Azərbaycan xalqı dövlətdən 1,5 milyard manat məbləğində istiqraz vərəqəsi





və pul-şey loteraya bileti almışdır. Təkcə yaralılar üçün 28 min litr qan verilmişdi.

Rus-alman savaşında Azərbaycandan 640 mindən çox insan, o cümlədən 11 min qadın iştirak etmiş, onlardan 400 minə yaxını həlak olmuşdu.

Döyüş meydanlarındakı əsgəri rəşadətə görə Azərbaycan SSR-dən 121 nəfər Sovet İttifqaı Qəhrəmanı adı ilə, 30 nəfər «Şöhrət» ordeninin hər üç dərəcəsi ilə, 176 min nəfər SSRİ orden və medalları ilə təltif olunmuşdur (daha geniş məlumat üçün bax: 20).

«Qədirbilən» Rusiya dövləti indi bu yaxşılığın, xalqımızın fədakarlığının əvəzini Azərbaycana qaytarırdı.

***Ermənilər eyni vaxtda həm DQMV-nin içərisində yaşayan azərbaycanlılarla, həm də sərhədyanı rayonlarda mübarizə aparmağın çətinliyini bildiyindən əvvəlcə Vilayətin içərisindəki azərbaycanlılar yaşayan məntəqələri zəbt etmək taktikasını seçdilər.***

***Ancaq istər ermənilər, istərsə də onlar üçün planı hazırlayan Moskva, Avropa və Amerikadakı havadarları başa düşürdülər ki, Ermənistan ərazisində azərbaycanlılar yaşadığı dövrdə bu planı reallaşdırmaq mümkün deyil. Bu səbəbdən öncə azərbaycanlılar Ermənistandan - öz ata-baba torpaqlarından, əzəli yurdlarından qovulmalı idi.***

***Rusiyadan kömək alan ermənilər azərbaycanlılar yaşayan kəndləri, şəhərləri zəbt etmək, onların daimi sakinlərini sıxışdırıb qovmaq, yaxud qətlə yetirməklə Dağlıq Qarabağı Ermənistana birləşdirmək,bu baş tutmasa müstəqillik əldə etmək niyyətində idilər.***

Sankt-Peterburqda yaşayan tanınmış rus yazıçısı Yuri Pompoyev "Qarabağ qan içində" adlı əsərində Qarabağ uğrunda müharibənin başlanması və genişlənməsindən, minlərlə insan həyatını aparmış bu hadisə-

lərdə erməni millətçilərinin rolu və məqsədindən bəhs edərək yazırdı: "Ermənilərin və havadarlarının Qarabağı qan girdabına salmalarının bir məqsədi var imiş. Azərbaycanlıları Ermənistandan və Stepanakertdən (Xankəndindən) qovmaq, Bakıda vəziyyətin stabilliyini pozmaq, 120 km-lik sərhəd boyunca yandırılmış ərazidə torpaq sahəsi yaratmaq. Ermənistana lazım idi ki, 1991-ci ilin yazında müharibəni yenidən şiddətləndirsin, il ərzində Qarabağın bütün ərazisini işğal etsin, Şuşa və Laçını işğal etdikdən sonra 1992-ci ilin mayında onu Ermənistanla birləşdirsin"(27, 154).

1991-ci ilin payızında Rusiya və Ermənistan arasında «Dostluq, əsməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında» müqavilə bağlanması Rusiyaya DQMV-də yaşayan erməniləri Azərbaycana qarşı açıq-aşkar silahlandırmaq imkanı verdi. Bu özünü çox gözlətmədi. Belə ki, 1991-ci ilin noyabr ayının 20-də içərisində Azərbaycanın dövlət və hökümət rəhbərliyinə daxil olan şəxslərlə bərabər SSRİ Müdafiə Nazirliyinin, Rusiya və Qazaxıstanın müşahidəçilərini Xocavənddə yaşayan azərbaycanlıların qətlə yetirilməsini araşdırmağa gedən adamların olduğu vertolyot erməni terrorçularının atəşi nəticəsində məhv edildi. Bu terror aktı nəticəsində 22 nəfər faciəli şəkildə həlak oldu. Bundan sonra Dağlıq Qarabağdakı azərbaycanlılar yaşayan əraziyə erməni terrorçularının hücumları daha da gücləndi. Füzuli rayonunun Arış, Cuvarlı, Çimən, Xələfşah, Axullu,Goranboy rayonunun Şəfəq, Zeyvə və s. kəndlərinə erməni basqınları nəticəsində xeyli ziyan vuruldu, onlarla ev viran edildi (29, 148).

1991-ci ilin dekabr ayının 23-də 500 nəfərlik erməni qoşunu Xankəndində yerləşən 366-cı rus alayının əsgərləri və hərbi texnikası ilə birlikdə Dağlıq Qarabağın





XOCALI RAYONU*

AZƏRBAYCAN RESPUBLİKASI




* Xəritələr Azərbaycan tarixi atlası. Bakı 2007-dən götürülmüşdür.

**Xəritə 1.**

## YUXARI QARABAĞ




**Xəritə 2.**





## QARABAĞ XANLIĞI (XVIII əsrin II yarısı)




*Nadir şah Əfşarın imperiyasının 1747-ci ildə dağılmasından sonra Azərbaycanda yaranmış xanlıqların ən böyüyü və güclülərindən biri Qarabağ xanlığı olmuşdur. Xanlığın əsasını Otuziki tayfa birləşməsinin Cavanşir tayfasının Sarıcalı oymağından çıxmış Pənahəli xan İbrahim Xəlil ağa oğlu qoymuşdur.*

*1763-cü ildə onun oğlu İbrahim Xəlil xan taxta çıxmışdır. 1806-cı ildə o, ruslar tərəfindən qətlə yetirildikdən sonra hakimiyyətə oğlu Mehdiqulu xan gəlmişdir. 1805-ci il mayın 14 (26)-da Qarabağ xanının Rusiya himayəsini qəbul etməsi haqqında Kürəkçay müqaviləsi bağlanmışdır.*

*Xanlıq 1822-ci ildə ləğv edilərək Rusiyanın bir əyalətinə çevrilmişdir.*

**Xəritə 3.**

## AZƏRBAYCAN SSR (1920-1922-ci illər)




1920-ci il aprelin 28-de Şimali Azerbaycanda Sovet hakimiyyeti qurulduqdan sonra Azerbaycan Xalq Cümhuriyyetine mexsus olan 11 389 597 kv. km erazi sahesinin nainki mübahiseli sayılan 16 598 kv.km-i, hem de mübahisesiz olan 97 298 kv. km erazisinin bir hissesi qonşu respublikalara, xüsusile Ermenistan Respublikasına verilmişdir.

1920-ci il mayında quberniya sistemi leğv olunmuş, qeze bölgüleri ise saxlanılmışdır.

1920-ci il iyulun 28-de XI Qırmızı ordu hisseleri Naxçıvana daxil oldu. Naxçıvan Sovet Sosialist Respublikası elan edildi. Respublikanın ali orqanı—İnqilab Komitesi yaradıldı. Naxçıvan SSR Şerur, Naxçıvan, Ordubad qezalarını ehate edirdi.

1920-ci il dekabrın 2-de RSFSR ve Sovet Ermenistanı arasında imzalanan herbi-siyasi sazişin III maddesinde Rusiya Sovet hökumeti İrevan quberniyasının Zengezur qezasını Ermenistan SSR erazisinin terkibine daxil olmasını mübahisesiz tanıyır. Zengezur 1921-ci ilin iyununadek ermeni-daşnak silahlı qüvvelerinin hakimiyyetinde qalırdı. 1921-ci ilin iyununda Birleşmiş Qafqaz ordusu hisselerinin Zengezuru daşnak qüvvelerinden temizlenmesi ile Zengezurun qerb ve yuxarı hissesinin Ermenistan SSR-e birleşdirilmesi başa çatdırıldı 1921-ci il iyunun 20-de Ermenistan SSR XKS terefinden tesdiq olunmuş 8 qezaye 9-cu Zengezur qezası elave olundu.

Belelikle Azerbaycan SSR-in gösterilen erazileri onunla razılaşdırılmadan Sovet Rusiyası terefinden Ermenistan SSR-e verildi.

Azerbaycan SSR XTK-nın 25 oktyabr tarixli arayışına göre keçmiş Zengezur qezasından 405 000 desyatin (4 424,6 kv.km), Qazax qezasından 379 984 desyatin (4 151,3 kv.km) erazi Ermenistan SSR-e verilmişdir.

1921-1922-ci illerde Azerbaycan SSR-in inzibati bölgüsüne 15 qeze, Naxçıvan SSR-e ise 3 qeze daxil idi.

Ermenistan Respublikasına ve Gürcüstan Respublikasına verilmiş Azerbaycan torpaqları

## Xəritə 4.





## AZƏRBAYCAN SSR (1923-1929-cu illər)




Bakı. Dəmiryol vağzalının binası, 1926-cı il



Ermenistan Respublikasına ve Gürcüstan Respublikasına verilmiş Azerbaycan torpaqları

Azerbaycan SSR MİK-nin 7 iyul 1923-cü il dekreti ile merkezi Xankendi olmaqla Dağlıq Qarabağ Muxtar Vilayeti yaradıldı. 4,161 kv.km sahesi olan vilayetin "Esasname"sine göre Şuşa şeheri ve Xankendinden 115 kend, Cavanşir qezasından 52 kend, Qaryagin qezasından 32 kend, Qubadlı qezasından Qaladerasi kendi DQMV-e verildi.

Azerbaycan SSR terkibinde DQMV-nin yaradılması Azerbaycan xalqının iradesi eleyhine, onun erazi bütövlüyüne qarşı qeyri-qanuni zorakılıq aktı idi. Sovet İttifaqında öz milli dövlet qurumu olan ermenilere başqa bir dövletin terkibinde elave inzibati-idareçilik qurumunun yaradılması, alternativi olmayan mekirli bir tedbir idi.

DQMV-nin yaranması Azerbaycan SSR-in inzibati-erazi bölgüsünde ciddi deyişikliye sebeb oldu. Şuşa, Qubadlı, Cavanşir qezaları leğv olundu. 1923-cü il avqustun 6-da Azerbaycan SSR MİK-nin qerarı ile Qarabağın qalan hissesinde Ağdam, Cebrayıl, Kürdüstan qezaları yaradıldı. Eləce de Ağdaş, Cavad, Qaryagin diger qezalarla birleşdirildi, yeni Salyan qezası yaradıldı.

Azerbaycan SSR MİK-nin 9 fevral 1924-cü il tarixli dekretı ile Naxçıvan Muxtar Diyarı, Naxçıvan MSSR-e çevrildi. 1924-cü ilde yaradılan 3 qeza (Şerur, Naxçıvan, Ordubad) 1925-ci ilde leğv edildi. Əvveller yaradılmış 12 dairenin sayı 8-e (Baş Noraşen, Qıvraq, Tumbul, Əbrequnis, Nerimanov, Culfa, Parağa ve Ordubad) endirildi.

Belelikle, inzibati-erazi bölgüsünde aparılan deyişiklikler neticesinde 86968 kv.km erazisi olan Azerbaycan SSR-in tabeliyinde bir Respublika (Naxçıvan SSR-erazisi 5 988 kv.km), Bir Muxtar Vilayet (DQMV - erazisi 4,161 kv.km.) ve 13 qeze (Ağdam, Bakı, Gence, Göyçay, Cebrayıl, Zaqatala, Qazax, Quba, Laçın, Lenkeran, Nuxa, Salyan, Şamaxı) yarandı.

18 fevral 1929-cu ilde Moskva ve Qars müqavilelerinin şertleri kobud şekilde pozularaq Zaqafqaziya MİK-nin qerarı ile Naxçıvan MSSR-in 9 kendinden ibaret 657 kv. km erazisi (Şerur qezasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qezası Şahbuz nahiyesinin Oğbin, Ağxaç, Almalı, Sultanbey, İtqıran kendleri, Ordubad qezasının Kərçevan kendi, Kilid kend torpaqlarının bir hissesi) Ermenistan SSR-e verildi.

Azerbaycan SSR-de yeni inzibati-erazi bölgüsü haqqında mesele VI Umumazerbaycan Sovetler qurultayında (1-9 aprel 1929-cu il) xüsusi bir mesele kimi müzakire edildi. Qurultay Naxçıvan MSSR ve DQMV-nin serhed ve hüquqlarını pozmadan, respublikanın daire ve kend sovetleri inzibati erazi bölgüsünün heyata keçirilmesini qerara aldı.

## Xəritə 5.



*Xocalı: bürünc öküz başı. E.ə. IX əsr.*







*Xocalı qəbiristanı: saxsı kuzə*



Xocalı qəbiristanı: sərnic formalı gil qab







Xocalı qəbiristanı: şirli cam




*Xocalı qəbiristanı: 1-tunc quş fiquru;
2-yastı balta-təbərzin; 3-şirli cam*







*Xocalı qəbiristanı: şirli gil mücrü*



Xocalı-Gədəbəy mədəniyyəti: saxsı qab







Xocalı-Gədəbəy mədəniyyəti: saxsı qab



1



2

***Xocalı-Gədəbəy mədəniyyəti: saxsı qablar***







1



2



3

***Xocalı-Gədəbəy mədəniyyəti: 1-qulaqüstü açma bəzək; 2-asma bəzək; 3-bilərzik***




*Xocalı-Gədəbəy mədəniyyəti: 1-nizə ucluğu; 2-3-xəncərlər; 4-5 ox ucluqları*





Meşəli kəndini tam mühasirəyə aldılar. Kəndi qoruyan könüllü döyüşçülərin və onlara köməyə gələn Ağdam polis şöbəsinin 10 nəfər əməkdaşının qəhrəmancasına müqavimətinə baxmayaraq kənd işğal edilib yerlə yeksan edildi.

Ermənilər dinc sakinlərdən 27 nəfəri öldürmüş, 15 nəfərdən çox adamı ağır yaralamışdılar.Öldürülənlər arasında azyaşlı məktəbli və 75 yaşlı qoca da var idi. Öldürülənlərin 11 nəfərinə ermənilər od vurub yandırmışdı. Sonralar kəndin müdafiəçilərindən olan Faiq Ağayev ölümündən sonra göstərdiyi igidliyə görə Azərbaycan Milli Qəhrəmanı adına layiq görülmüşdür (8, 130-132).

Ümumiyyətə, Qarabağ hadisəsi başlanandan 1991-ci ilin noyabr ayna qədər azərbacanlılarla ermənilər arasında 2559 toqquşma, 318 silahlı basqın, 1388 dəfə ermənilər tərəfdən atəşətutma halları qeydə alınmış, 1318 nəfər yaralanmışdır. Azərbaycanlılara məxsus 1134 ev və 119 digər obyekt dağıdılmışdır (30, 148).

Belə bir şəraitdə MDB Silahlı Qüvvələrinə məxsus olan 4-cü ordunun 23-cü Gəncə diviziyasının Xankəndindəki (Stepanakertdəki) 366-cı alayın bütün hərbi texnikası və sursatının ermənilərin əlinə keçməsi gündən-günə reallaşırdı. Qeyd edək ki, bu alay hələ 1985-ci ildə Gəncədən Xankəndinə köçürülmüşdü. Ştat üzrə 1800 hərbi qulluqçusu, 100-ə yaxın hərbi texnikası var idi (31, 12). MDB Silahlı Qüvvələrinin Quru qoşunlarının Baş Qərargahının rəisi general-leytenant Ter-Qriqoryants da milliyətçə erməni idi və o da erməni terrorçularına kömək edirdi (45, 49). 366-cı alayda xidmətdə olan zabit və gizirlərin 50-dən artığının erməni olması və eyni zamanda bir çox başqa millətlərdən olan zabitlərin də onların tərəfində olması vəziyyəti çə-

tinləşdirirdi. 1991-ci ilin yayından polkun komandiri təyin edilmiş polkovnik Zaviqorovun erməni terrorçularının tərəfini saxlaması da azərbaycanlıların işini pisləşdirdi, 1992-ci il yanvar ayının 12- 13-də Xankəndindəki 366-cı alayda hərbi xidmət keçən əslən Özbəkistan və Türkmənistandan olan yeddi nəfər əsgər qaçmışdı (45, 64). Onlar bildirmişdilər ki, ordunun rəhbərliyi nəinki silahların, texnikanın bir hissəsini erməni yaraqlılarına verir, həm də əsgərləri azərbaycanlılara qarşı atəş açmağa məcbur edir. Bu alayda hərbi xidmətdə olan milliyətcə rus, ukraynalı, moldovan əsgərlərdən də qaçanlar var idi. Onların qaçma səbəblərini açan ifadələri 366-cı alayın qətliamdakı rolunu öyrənmək baxımından çox əhəmiyyətlidir. Məsələn, alayın sıravi əsgəri Yuri Şvelyov deyirdi ki, " Alayda tam azğınlıq hökm sürür. Zabitlərin üçdə bir hissəsi ermənilərdir. Bəzən onlar əsgərləri və sürücü mexanikləri məcbur edirlər ki, zirehli maşınları hissənin ərazisindən çıxarıb "fədailərin" (quldurların -red.) döyüş mövqeyinə gətirsinlər. Sonra da özləri azərbaycanlılar yaşayan kəndlərə atəş açırlar" (39). Yaxud alayın başqa bir sıravi əsgəri Yuri Yakoviç bildirirdi ki, "***Bizə hər gün xristianlığımızı xatırladır,buna görə də müsəlmanlara qarşı vuruşmağa borclu olduğumuzu aşılayırdılar. İt itliyi ilə bizim yaşadığımız şəraitə dözməzdi. Biz dörd əsgər buna dözməyib alayı tərk etdik***"(31, 35). Bundan başqa 366-cı alayda xidmət edərək oradan qaçmış baş serjant Aleksey Melnikov, serjant Dmitri Çarıyev, sıravi əsgərlər Aleksandr Boldov, Oleq Makovski və Əlişir Yeqamqulov Bakı şəhərində mətbuat konfransı keçirərək ordunu tərk etmələrinin səbəbini izah etdilər. A. Melnikov qaçmalarının səbəblərindən bəhs edərkən şahidi olduğu hadisələri qətiyyən gizlətmək fikrində ol-





dığını bildirib deyirdi: "Ordudan tərxis olunmağımıza cəmi beş-altı gün qalırdı. Fevralın 13-də rotaya yenicə təyin olunmuş komandirimiz (familyasını bilmirdik, rütbəsi kapitan idi) bildirdi ki, əgər pul qazanmaq istəmirsinizsə, evinizə qayıda bilərsiniz. Hansı yolla pul qazana biləcəyimizi soruşarkən dedi ki, yaxın günlərdə irimiqyaslı döyüş əməliyyatı gözlənilir, türkləri (yəqin ki, azərbaycanlılar nəzərdə tutulurdu) qırmaq lazım gələcək. Təbii ki, müəyyən risk olacaq. Yəni heç kim heç kəsə havayı pul verməyəcək.

Doğrusu bu sözlərdən mənim tüküm ürpəşdi. Canlı insanı,bəlkə də dinc adamları öldürməyə görə pulla şirnikləndirmək!İyrənc,ağlasığmaz vəhşilik!!!Bizi muzdla qatillərə çevirmək istəyirdilər!

Əslində, bizim rota silah anbarını qoruyurdu. Lakin necə qoruyurdu?! Erməni zabitlər istədikləri vaxt həmin silahları döyüş mövqelərinə çıxarır, azərbaycanlılar yaşayan kəndləri atəşə tuturdular. Biz, indi burada gördüyünüz əsgərlər həmin qanlı cinayətlərdə bilavasitə iştirak etməsək də, müqavimət göstərməkdə də aciz idik. Özbaşınalığın tüğyan etdiyi alayda bəyənilməyən sözə görə amansız cəza hazır idi.Hətta məhkəməsiz,filansız güllələyərdilər də..

Doğrusu nə üçün orduda qaldığımızı bilmirdik. İki respublikanın daxili işlərinə qarışmaq çoxumuzun ürəyincə deyildi.

Biz, altı nəfər əsgər əvvəlcə meşə yolu ilə,böyük çətinliklə, əzab-əziyyətlə Ağdama gəlib çıxa bildik. Oradan avtobusla Gəncəyə gəldik. Lakin,üstümüzdə heç bir sənəd olmadığına görə evimizə uça bilmədik. Oradan Azərbaycan Respublikası Milli Ordusunun rəhbərləri köməklik göstərdilər. Lazımi sənədlər verib qatarla Bakıya yolladılar. İndi ən böyük arzumuz doğ-

ma ocağa qayıtmaqdır. Aramızda rus da var, moldovan da, tatar da, özbək də. Heç birimiz qan tökülməsinin tərəfdarı deyilik. Bütün Azərbaycan xalqına haqq işində uğurlar arzulayırıq» (31, 11, 17-18).

«Nə geyiminzə, nə yeməyinizə, nə də dincəlməyinizə diqqət yetirən var. Hərdən lap quru yerdə yatırıq... Ermənilər alaya gəlib tut arağı satırlar. Pul hardan idi alaydıq? Kim nə çırpışdıra bildi, - ya patrona, ya avtomata, ya da qumbaraya dəyişirdi arağı. Zabitdən tutmuş sıravi əsgərlərədək hamı sərxoş gəzir. Dava-dalaşsız gün olmur».

Pavel Zuyev, Aleksey Bondarev və Pavel Natikinin dedikləri: "Erməni zabitləri hamını azərbaycanlılarla döyüşə məcbur edirlər. Əmrə tabe olmayanlar yerindəcə güllələnir. Kim bacarırsa başını götürüb qaçır. Bir dəfə 12 nəfər öz aramızda sözləşib ağ bayrağı əlimizə aldıq və qaçdıq. Ağdərə tərəfdə bizi atəşə tutdular. Ağdama yalnız 6 nəfər sağ-salamat çata bildi"(31, 17-18).

Dəqiq faktlar əsasında deyə bilərik ki, alayın döyüş texnikası, şəxsi heyəti tez-tez erməni quldurlarının "xahişini" yerinə yetirirdi. Həm də bu zaman xüsusu haqq-hesab sistemi, yəni rüşvət alma mexanizmi mövcud olmuşdu. Məsələn, ZTR-in azərbaycanlılara qarşı döyüş əməliyyatında iştirakına görə komandirə 5 min rubl, atəşə tutmaya görə min rubl və 20 litr spirt və s. verilirdi.

Xocalı soyqırımı zamanı 366-cı motoatıcı alayın xüsusi şöbəsinin (№02270) rəisi olmuş Rusiya Federasiyasının Baş Kəşfiyyat İdarəsinin polkovniki Vladimir Romanoviç Savelyevin məlumatları isə daha tükürpərdicidir. O, Xocalı soyqırımı ərəfəsi və günlərində 366-cı alayda baş verənləri, erməni və rus əsgərlərinin hərəkətləri, Azərbaycandakı ictimai-siyasi vəziyyəti Kremlə, müdafiə Nazirliyinə, Baş Kəşfiyyat İdarəsinin generallarına 19 səhifəlik məxfi məlumat – arayış göndərməklə bildirmişdi. Xidməti vəzifəsi ilə əlaqədar hadisələrin ən qaynar yerlərində olan, dəqiq məlumatlara malik polkovnik proseslərin canlı şahidi olmuşdur. (Daha ətraflı məlumat üçün bax: 21, 141-151; 35, 24 mart və 3 aprel 2004-cü il). O yazır ki, «mayor Aşin Simonyan 26 nəfərlik dəstəsi ilə Xankəndinə gəldikdən sonra 366-cı alayın içərisində asanlıqla öz dayaqlarını qura bildilər. Polkovnik Yevgeni Zaviqarova nəqd 36 min ABŞ dollarını tanışlıq üçün «hədiyyə» etdilər. Məlumata görə, 23-cü diviziyanın komandiri general-mayor Brois Budeykin polkovnik Zaviqarovu buna görə ittiham edib» (21, 143).

Polkovnik V.Savelyev bu alayın ermənilər tərəfindən azərbaycanlılara qarşı döyüşlərdə iştirakı barədə yazır: «Əslində millətlərarası münaqişəyə cəlb olunmuş 366-cı alay ətrafında həmin problemlər daha qabarıq nəzərə çarpır. Hərbi əməliyyatlarda alayın ermənilər tərəfinə keçib azərbaycanlıları qırması, hərbi texnika və silahları ermənilərə verməsi məsələsi artıq siyasi əhəmiyyət daşıyırdı.... Polkovnik Zaviqarov və başqa vəzifəli şəxslər Xocalı istiqamətindəki ***döyüş nöqtələrini ləğv etmək haqqında ordu və dairə komandanlığının rəsmi icazəsilə Xocalı istiqamətində gedən əməliyyatlarda ermənilərlə birləşdi.*** Nəticədə bir gün ərzində 49 nəfər azərbaycanlı meydanlara yığılıb güllələndi... Qərargah rəisi, podpolkovnik Sergey Kraumnin, birinci motoatıcı batalyonnun komandiri, polkovnik Arkadi Moiseyev, ikinci batalyonun komandiri mayor Serj Ohanyan, üçüncü batalyonun komandiri mayor Qavril Nabokix, kapitan İshaq Lixodyan... ayrı-seçkilik edir. Dinc əhalini zonalardan uzaqlaşdırarkən ermənilərlə daha çox

məşğul olurdular. Köçürmə zamanı (bu yarımçıq qaldı) 58 nəfər azərbaycanlı öldürüldü» (21, 144; 35).

Onu da qeyd edək ki, azərbaycanlılara qarşı əməliyyatlarda DQMV-də yerləşən ruslara məxsus digər batalyonlar da yaxından iştirak etmişdilər. Onlar belə əməliyyatlarda «yuxarıların tapşırığı» ilə yanaşı, həm də ermənilərlə də sövdələşərək pul qazanırdılar. Məsələn, «Xankəndi şəhərindəki ***463-cü Əlahiddə Kimyəvi-mühafizə batalyonu və 909-cu Əlahiddə Kəşfiyyat batalyonunun döyüş planları ilə bağlı, ermənilər tərəfindən vuruşması barədəki əmrin qiymətı 18 min dollar idi***» (21, 149).

Faktların, sənədlərin və bu məsələ barəsində müxtəlif ölkələrdə çapdan çıxan yazıların təhlili göstərir ki, ermənilərə Avropa ölkələrindən də, xüsusilə Fransadan müntəzəm silah, sursat, ərzaq və s. göndərilmişdir. Məsələn, onlarca belə yazıların birində göstərilir: «Üstəlik Fransadan göndərilən 142 ədəd avtomat, 7 min 600 ədəd güllə, 460 ədəd zirehli jilet, 11 ton konservləşdirilmiş yemək, min iki yüz cüt ayaqqabı (altı ölçüdə), 146 ədəd tapança... ermənilərin istifadəsinə verildi. Amerikada istehsal olunmuş 149 ədəd ratsiya da ermənilərə paylandı» (21, 149).

Bundan əlavə 366-cı alayın nəzdinə «Klukin erməni cəbhəsi» deyilən «rota» yaradılmışdı. Bu rotanın özəyini Livan, Amerika, Kanada, İran, İsveç və Hollandiyadakı... erməni quldur birləşmələri təşkil edirdi. 1988-ci il fevralın 17-də qızlardan ibarət «Şuşanik» adlı erməni snayperçilər dəstəsi həmin birləşməyə qoşulmuşdu. Düşüncələrində türk düşmənçiliyi hopdurulan, insan idrakından uzaq olan «Şuşanik» snayperçiləri Livandan gətirilmiş muzdlu qatillər idi. «Klukin erməni cəbhəsi»nə quldur, cani Xaçik Vartanyan rəhbərlik edirdi. (22, 171).





Qeyd edə ki, erməni millətçi-şovinistlərinin hazırladıqları əməliyyatlar «Haydad» və ASALA terror təşkilatları ilə birgə icra olunurdu.

SSRİ-nin, sonralar isə MDB-nin IV ordusunun 23-cü diviziyasının Xankəndində yerləşən 366-cı moto-atıcı alayının hərbi texnikasından Xocalıya qarşı istifadə ediləcəyi barədə respublika rəhbərliyinə xəbər verilmişdi. Ona görə respublika rəhbərliyi, ictimaiyyəti IV Ordunun komandanı general Popovdan bunun ən qısa müddətdə qarşısını almağı tələb etdilər. Hətta alayın çıxarılma müddəti də – 1 mart 1992-ci il müəyyən edilmişdi. Lakin bunun heç bir xeyri olmadı. Əksinə, alayın qulluqçuları texnikanı ermənilərə satmaq işini daha da artırdılar. Məsələn, respublika təhlükəsizlik xidməti radio dalğa tutanların ratsiya ilə danışan 366-cı alayın 13-cü və 53-cü hərbi qulluqçusunun silah alveri ilə əlaqədar bir milyon barədə mübahisəsinə dair qeyd etdiyi "Gələndə demişdin ki, bizim üçün bir milyon pul saxlamalısan. Bilmirəm milyondur, milyon deyil, amma yarısı bizimdir" sözləri bunu bir daha təsdiq edir (29,158).

Qeyd edək ki, ermənilər silah-sursatı rüşvət və ya oğurluq ilə əldə edə bilmədikdə Sovet Ordusunun silah anbarlarına hücumlar təşkil edirdilər. Belə ki,1990-cı il 1 yanvarından 1992-ci ilin iyununadək Zaqafqaziyada silah anbarlarına 366 dəfə hücum olmuşdur ki, onun da 130-u Ermənistanın, 164-ü isə Dağlıq Qarabağ ermənilərinin payına düşmüşdür (43, 37). Doğrudur, bir sıra hallarda Sovet-rus ordusunun rəhbərlərinin razılığı ilə silahlar əl altından satılır, özlərini bir növ sığorta etmək üçün sonradan bu bazalara hücum tamaşaları düzəldilir və yanğın törədilirdi.

Moskva mətbuatında və elmi kütləvi nəşrlərində belə məlumatların yayılması bu ölkənin siyasi rəhbərliyini tənqiddən qorumaq,soyqırımda ordunun iştirakından, silah-sursatı satmasından guya xəbərsiz olmasını təbliğ etmək məqsədi də daşıyırdı.

Vaxtilə dinc, silahsız adamları qırmaqla, itaətə gətirməklə öz "beynəlmiləlçilik" borcunu Macarıstanda, Çexoslovakiyada, Polşada, Əfqanıstanda yerinə yetirib "qəhrəmanlıq" təcrübəsi toplayan Sovet Ordusu özünü 1989-cu ilin aprelində Tbilisidə, 1990-cı ilin yanvarında Vilnüsdə və Bakıda bir daha göstərmişdi.

İndi, bu "şanlı ordu" qısa bir müddətdə xalqımıza qarşı növbəti dəfə soyqırımda iştirak etməyə hazırlaşırdı.

Müasir silahlardan, o cümlədən xarici silahlardan geniş istifadə edən erməni terrorçularının cəbhəxanası hər gün Azərbaycan əraziləri üstündən keçib gələn, tanınma nişanı olmayan vertolyotlar vasitəsilə gücləndirilirdi.

Hərbi texnikada azərbaycanlılardan üstün olan ermənilər 1991-ci ilin oktyabrından 1992-cı ilin yanvarınadək Xocalı rayonunun Cəmilli, Meşəli kəndləri, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsi, Ağdam rayonunun İmarət Qərvənd kəndi, Xocavənd rayonunun Xocavənd, Tuğ kəndləri, keçmiş Hadrut rayonunun Axullu, Salakətin kəndləri, Goranboy rayonunun Ballıqaya və Başqışlaq kəndləri ermənilər tərəfindən işğal edilərək yandırılmış, məhv edilmişdi.

***Qeyd edək ki,ermənilər coğrafi şəraitinə görə hər tərəfdən erməni kəndləri ilə əhatə olunmuş Azərbaycanlılar yaşayan kəndlərini birinci növbədə işğal edirdi. Bu taktikada başlıca məqsəd vilayətdən kənardakı azərbaycanlılar yaşayan rayonlara daha çox yaxınlaşmaq idi.*** İşğal planlı sürətlə aparılırdı. Əvvəlcə kənd terrorçular tərəfindən hər tərəfdən mühasirəyə alınır, müntəzəm olaraq atəşə tutulur, sonra isə zəbt edilib məhv olunurdu.





Xocalı qətliamı ərəfəsində ermənilər Xocavənd rayonunun Qaradağlı, Əmirallar, Ağdərə rayonunun Umudlu, Şuşa rayonunun Malıbəyli, Quşçular kəndlərini hər tərəfdən mühasirəyə almışdılar. Strateji cəhətdən çox böyük əhəmiyyəti olan bu yaşayış məntəqələrinə gedən keçidlər, yollar erməni silahlıları tərəfindən tutulmuşdu.

Onlar bu yerləri zəbt etməklə Qarabağın şimalından cənubuna, şərqindən qərbinə sərbəst hərəkət imkanı əldə edə bilərdilər. Azərbaycanlıların hərbi texnikasının, silah və sursatın daim çatışmaması erməni terrorçularının gündən-günə güclənən hücumlarının qarşısını almaqda çətinlik yaradırdı.

1992-ci ilin yanvarın 21-də Qaybalı, fevralın 12-də Quşçular və Malıbəyli, fevralın 17-də isə Qaradağlı kəndləri ermənilər tərfindən zəbt edilib yandırıldı.

Ermənilər fevralın 11-də beş aya yaxın mühasirədə saxladığı Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərinə üç tərəfdən tanklar və zirehli maşınlarla hücum etmişdilər.

Yerli sakinlər, kəndlərin mühafizəsində dayanmış milis işçiləri və özünümüdafiə qüvvələri düşmənə ciddi müqavimət göstərmişlər. Lakin qüvvələr nisbəti qeyribərabər olduğuna görə tədricən geri çəkilməyə məcbur olmuşlar. Bu hücum zamanı 28 nəfər öldüpülmüş, 39 nəfər ağıр yaralanmış, bir neçə nəfər isə erməni quldurları tərəfindən girov götürülmüşdür.

Yüzlərlə sakin, o cümlədən qadınlar və uşaqlar dağlara çəkilmiş, meşə ilə Ağdam rayonunun Gülablı kəndinə üz tutmuşdular. Yollar isə Əsgəran rayonunun Harov kəndi yaxınlığından keçirdi. Məsələdən xəbər-

dar olan ermənilər yolu kəsərək onları yenidən gülləyə tutmuşdular. Bir neçə saat davam edən atışmadan sonra mühasirəni yarıb səhərə yaxın Ağdamın Gülablı kəndinə gəlmək mümkün olmuşdu.

Erməni quldurları azərbaycanlıların bir çöp də çıxara bilmədikləri dolu evləri talan etməklə yanaşı, iki mindən çox qaramal, qoyun-quzu ələ keçirdilər.

Malıbəyli və Quşçular kəndindən 4 min adam didərgin salınmış və respublikanın müxtəlif bölgələrinə pənah aparmalı olmuşdu.

Ermənilər Qaradağlı kəndini işğal edərkən xüsusi amansızlıq göstırmişilər (Bax: əlavə 1). Strateji əhəmiyyətli ərazidə yerləşən bu kənd 4 il (1988-1992) ərzində düşmənlərə qarşı qəhrəmancasına mübarizə aparmış və 77 nəfər şəhid vermişdir. 1992-ci il 15-17 fevralda üç gün ərzində ağır döyüşlərdən sonra ermənilər bu kəndi işğal edib büsbütün yandırıb məhv etdilər. Erməni faşistləri döyüş zamanı ağır yaralanan və hərəkət edə bilmədiyindən əsir düşən 48 nəfər azərbaycanlını rəhm etmədən xüsusi amansızlıqla qətlə yetirdilər (onların siyahısı əlavə olunur).

Ümumiyyətlə, ermənilər əldə etdikləri üstünlükdən istifadə edib ***işğal etdikləri yaşayış məntəqələrində evləri uçurur, tikililəri yandırırdılar ki, heç bir sakin bu yerlərə köçüb qayıda bilməsin.***

Bu cəhətdən bəşəriyyətin haqlı olaraq lənətlədiyi ***alman faşizmi erməni faşizmindən tamamilə fərqlənir***. Belə ki, almanların işğal etdiyi ərazilərdə yerli dinc əhali yaşayır, maddi mədəniyyət abidələri isə qorunub saxlanırdı. Almanlar yalnız hakimiyyəti dəyişirdilər. Əhalinin evi və təsərrüfatı çox zaman istifadəsində qalırdı. ***Erməni faşizminin mahiyyəti ondan ibarətdir ki, ermənilər hansı ərazini tuturdularsa, orada nəinki bir nəfər də olsun azərbaycanlı qalmır, dinc əhalini öldürür, hətta maddi mədəniyyət abidələrini dağıdır, kəndləri yerlə yeksan edir, bir sözlə yandırılmış torpaq siyasəti aparırdılar.***





Beləliklə, ***ermənilərin azərbaycanlıların yaşayış məntəqələrini daimi gərginlikdə saxlamaq, onların mövqeyini zəiflətməklə işğal etmək və ərazilərini genişləndirmək kimi təcavüzkar planı tədricən həyata keçməkdə idi***. Artıq növbə Xocalıya çatmaqda idi. Xocalının o dövrkü icra başçısı və prokuroru respublika rəhbərliyinə göndərdiyi məktubda bu şəhərin əhəmiyyətini xatırladaraq yazırdılar ki, "...bütün hadisələr Xocalının üstündədir. Xocalı gedərsə Dağlıq Qarabağ ermənilərindir. Biz Xocalını saxlasaq Dağlıq Qarabağ bizimdir. Xocalı Azərbaycanın taleyini həll edir".

Beləliklə, əslində bu şəhər Aran və Dağlıq Qarabağ arasında bir bağlayıcı həlqə rolunu oynayırdı. Bundan başqa, Xocalı Azərbaycanın qədim insanlarının yaşadığı, maddi mədəniyyət abidələri ilə zəngin olan ərazilərindən biri idi (Bax: 4a; 12; 13).

# III. XOCALI QƏTLİAMI: HƏYATA KEÇİRİLMƏ ÜSULLARI VƏ NƏTİCƏLƏRİ

Xocalı şəhəri öz tarixində bir neçə dəfə erməni təcavüzünə məruz qalmışdır. Belə ki, XX yüzilin əvvəllərində — 1905-1906, 1917-1918-ci illərdə bu yaşayış məntəqəsi erməni hücumuna məruz qalaraq yandırılsa da, talan edilib dağıdılsa da, fəqət ayağa qalxaraq düşməndən öz qisasını ala bilmiş, yenidən bərpa olunaraq yaşamını davam etdirmişdir.

Sovetlər dövründə 7 min əhalisi olan Xocalıda 3000 hektardan çox əkin və bağ sahələri,məktəb, kitabxana, mədəniyyət evi var idi.

1988-ci ilin fevralında Azərbaycanda XX yüzilin sonuncu erməni-türk münaqişəsi başlayanda,onun ilk zərbələrindən biri Xocalıya dəydi. Belə ki, şəhərin Xankəndi, Əsgəran və əsasən ermənilər yaşayan digər qəsəbə və kəndlərində işləyən mütəxəssis və fəhlələri işdən qovuldu. Bundan başqa qədim Oğuz yurdu olan Ermənistandan qovulmuş 130 azərbaycanlı ailəsi və Fərqanədən didərgin salınmış 40 mesxeti türk ailəsi də buraya pənah gətirmişdi. Onlara burada torpaq sahəsi ayrılaraq ev tikmələri, işləmələri və yaşamaları üçün şərait yaradılmışdı.

1989-1990-cı illərdə münaqişə daha da gərginləşdi. Bu dövrdə ermənilər Dağlıq Qarabağın yollarında azərbaycanlılara, o cümlədən xocalılara məxsus olan maşınları daşa basır, əzir, yandırır, insanları girov götürərək qətlə yetirirdilər. Ancaq Xocalının igid oğulları onlara tutarlı cavablar verirdilər. Bu zaman hava limanının Xocalının nəzarətində olması da buna imkan yaradırdı.





***Ermənilərin Xocalıya ilk irimiqyaslı hücumu 1988-ci il sentyabrın 18-də oldu.*** Onlar belə hesab edirdilər ki, elə ilk həmlə ilə Xocalını məhv edərək bu maneəni aradan qaldıra biləcəklər. Həmin gün Xankəndindəki nümayişdən çıxan 5 minə qədər ermənінin bir qismi piyada,bir qismi maşınlarla Xocalının üstünə hücum etdilər. Qabaqda gedən 4 "Kamaz" və "Kraz" markalı yük maşınlarının arxasınca gələn ermənilər şəhərə yaxınlaşırdı.Şəhərə 2 km qalmış hücumdan xəbər tutan Xocalının 150 nəfər cəsur oğlu onların qarşısına çıxıb "Ura!" deyərək əks hücuma keçdilər.Bəzi məlumatlara görə bu döyüşdə 27 nəfər azğın erməni öldürülmüş, 100-ə qədəri isə yaralanmışdı (8, 242). Bu erməni quldurlarına vurulan ilk güclü zərbə idi. Məhz bundan sonra "yazıq", "fağır" erməniləri müsəlman türklərinin "hücumlarından" qorumaq adı ilə şəhərin sərhədlərində Sovet qoşun hissələri yerləşdirildi.

***1988-ci ilin oktyabrında Azərbaycan Sovet hökuməti Xocalının sosial inkişafı qayğısına qalaraq bu barədə xüsusi qərar qəbul etdi.*** Bu qərardan sonra Azərbaycanın rayonları Xocalıya və bütün Dağlıq Qarabağa kömək etməyə başladı. Dağlıq Qarabağa və Xocalıya kömək ümumxalq xarakteri aldığı üçün burada tikinti və abadlıq işləri daha da genişləndi.

***Bu işlər Sov.İKP MK-nın tövsyyəsi əsasında və SSRİ Ali Sovetinin 1989-cu il yanvarın 12-də verdiyi qərar ilə yaradılmış Dağlıq Qarabağa dair Xüsusi İdarə Komitəsinin (XİK)*** və onun burada külli-ixtiyar sahibi olan rəhbəri Arkadi Volskinin planlarına uyğun gəlmirdi. Çünki A.Volski və onun rəhbərlik etdiyi ***Xüsusi İdarə Komitəsi açıq-aşkar ermənipərəst mövqe tuturdu. Xüsusi İdarə Komitəsi vilayətdə qayda-qanunu bərpa etmək əvəzinə azərbaycanlıların buradan qovulmasına, erməni-***

*lərin silahlanmasına şərait yaratdı.* A.Volskinin yaratdığı şərait nəticəsində DQMV-nin ərazisində Ermənistandan silah-sursat daşınır, erməni quldur dəstələri silahlandırılırdı. ***Beləliklə, əslində A.Volskinin əli ilə Dağlıq Qarabağ Azərbaycandan ayrılıb Ermənistanın, daha doğrusu Moskvanın tabeçiliyinə keçmişdi.*** Xalq Volskinin bu xəyanətkarlığını görür və onun Dağlıq Qarabağdan qovulmasını tələb edirdi.

Xocalı sürətlə tikilib genişləndiyinə və həm də artan strateji əhəmiyyətinə görə 1990-cı ilin aprelində Azərbaycan hökümətinin qərara ilə şəhər statusu qazandı.

1990-ci ilin yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun Bakıda dinc əhaliyə qarşı törətdiyi görünməmiş vəhşilikdən sonra Azərbaycanda vəziyyət daha da kəskinləşdi. Əhalinin Sovet sisteminə və ordusuna nifrəti daha da artdı. Milli hərəkat gücləndi.

Sovetlər Birliyinin rəhbərliyi Azərbaycanın demokratik ***qüvvələrinin tələbinin güclənməsi ilə imperiya üçün artan təhlükəni azaltmaq və əhalini sakitləşdirmək üçün 1989-cu il noyabrın 28-də Xüsusi İdarə Komitəsini ləğv etdi,*** A.Volski yenidən Moskvaya qayıtdı. Ləğv edilən idarənin əvəzinə ***SSRİ Ali Soveti Xüsusi Komissiyasının nəzarəti altında Dağlıq Qarabağ üzrə Azərbaycan SSR-nin Təşkilat Komitəsi yaradıldı.*** Sovet işğalı zamanı Əfqanıstanda B.Karməlin siyasi müşaviri işləmiş, sonralar Azərbaycan Kommunist Partiyasının II katibi olan V. Polyaniçko onun sədri təyin edildi. ***Lakin V. Polyaniçko milli münaqişənin qızışdırılmasında heç də A. Volskidən geri qalmadı.*** Ona görə də bu əvəzlənmə prinsipial dəyişikliyə səbəb olmadı. SSRİ rəhbərləri tərəfindən qəti tədbirlərin görülməməsi nəticəsində ***1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti «Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında» qərar qəbul etdi.*** Xankəndində Ermənistan bayrağı qaldırıldı. Vilayətin ermənilər yaşayan hissəsinin iqtisadi və siyasi idarəsi Ermənistana tabe edildi. Bu isə qarşıdurmanı daha da gücləndirdi.





Azərbaycanda Moskvanın ermənipərəsət siyasətinə qarşı etiraz dalğaları daha da gücləndi. Təəssüf ki, taleyüklü belə mürəkkəb zamanda, proseslərdə o vaxtkı respublika rəhbərliyinin baş verən hadisələrə qarşı qəti mövqe tutmaması, Kreml qarşısında Azərbaycanın mənafeyini, ərazi bütövlüyünü müdafiə edə bilməməsi də vəziyyəti pisləşdirirdi. Doğrudur, 1990-cı ilin mayında DQMV-nin idarəsi yenidən Azərbaycana qaytarıldı. Lakin bu ciddi dəyişikliyə səbəb olmadı. ***Çünki, Azərbaycan Şuşada, Xocalıda və s. yerlərdə tikinti işlərini artırdığı dövrdə DQMV-də yaşayan ermənilər sürətlə silahlanır və dünyanın müxtəlif ölkələrində yaşayan, terrorçuluqda kifayər qədər təcrübəsi olan ermənilərdən ibarət muzdlu qüvvələr toplayırdılar.*** Məsələn, ***Fransada terror aktları törətmiş beynəlxalq terrorçu*** Monte Melkonyan 1990-cı ildə həbsdən azad edildikdən sonra Ermənistanda sığınacaq tapmış və yaxud göndərilmişdi. O, sonra Dağlıq Qarabağa gedərək orada azərbaycanlıların kütləvi sürətdə qətlə yetirilməsi və torpaqlarından qovulması üçün fəaliyyət göstərən terrorçu qruplara rəhbərlik etmişdir. 1993-cü ildə M.Melkonyan cəhənnəmə vasil olub Yerevanda dəfn edilərkən Ermənistanın dövlət xadimləri, hətta prezidenti də orada iştirak etmişdir. Türklərə qarşı terror və qətllərdə göstərdiyi xidmətə görə o, "Ermənistanın milli qəhrəmanı"adını almışdır (Bax: 16).

Başqa kifayət qədər tanınmış erməni terrorçularından Qrant Markaryan və Vazgen Sislyan da Dağlıq Qarabağda xalqımıza qarşı terror aktlarının törədilmə-

sində, vətəndaşlarımızın qətlə yetirilməsində fəal iştirak etmiş və buna görə də onlar "Qarabağ müharibəsi qəhrəmanı" adına layiq görülmüşlər (Bax: 16).

Dünyanın müxtəlif ölkələrindən gəlmiş peşəkar terrorçuların Qarabağda xalqımıza qarşı vuruşmasından «Moskovsiye novosti» qəzeti özünün 1992-ci il 15 mart tarixli sayında geniş məlumat vermişdir. Bu qəzetin müxbiri İosif Verdinyan «Ermənistanda erməni diasporunun terrorçuları varmı?» sualına Ermənistandan olan yüksək dövlət xadimi «var» cavabını verir. Sonra o, Livandan turist adı ilə gəlmiş 34 yaşlı Vazgen Sislyanın geniş və türkələrə içi kinlə, qəzəblə dolu bəyanatını verir. Buradan aydın olur ki, ***Parisin Usman məhəlləsində 60 girovu ələ keçirmək aksiyasında (sentyabr, 1991-ci il) və Budapeştdə (dekabr, 1991-ci il) Türkiyə səfiri Bədrəddin Tunabaşa qəsddə iştirakının üstü açılan bu ASALA*** mənsubu himayədarlarının tapşırığı ilə insanlığa yaraşmayan əməllərini indi ***Azərbaycanda davam etdirmək isəyir.***

1992-ci ilin yanvar ayında Paris yaxınlığında qeyrileqal məxfi təlim düşərgəsi yaratmış ***«Asala» erməni terrorçu təşkilatın 26 üzvü Fransa vətəndaşı olan mayor Aşin Simonyanın*** başçılığı ilə Xankəndinə gəlmiş və xalqımıza qarşı döyüşlərdə qəddarlığı və amansızlığı ilə ad çıxarmışdır (21, 143).

Xalqımıza qarşı belə qətliamlarda və terror aktlarının törədilməsində iştirakçı olmuş xarici ölkə vətəndaşlarından ***Suren Paşayan ("Krunk" təşkilatının Fransa bölməsinin üzvü, Fransa vətəndaşı), Qabriel Şıxanyan ("Vartan cəngavərləri" qrupunun Vyana bölməsi, Fransa vətəndaşı),*** Abram Çitçiyan(366-cl alayın I batalyonunun qərargah rəisi, Rusiya vətəndaşı, ***(hazırda Fransa vətəndaşı),*** Romb Qalakçiyan (Xocalını bombala-





yan 39 nömrəli vertalyotun pilotu, Livan vətəndaşı), Razdan Minoyan (Xocalını bombalayan 40 nömreli vertalyotun pilotu, Suriya vətəndaşı) və başqalarını da misal çəkə bilərik (23).

Qeyd edək ki, Xocalılar da müəyyən müdafiə tədbirləri görürdülər. Burada ilk növbədə yerli özünümüdafiə dəstələri yaradılmışdı. Tərkibi 100 nəfər qeyrətli gəncdən ibarət olan bu dəstə Tofiq Hüseynovun komandirliyi ilə kəndin müxtəlif yerlərində müdafiədə dayanırdırlar. Bundan başqa şəhər statusu aldığı üçün Xocalıda 60 nəfər əməkdaşı olan şəhər polis şöbəsi yaradılmışdı və onlar da müdafiədə iştirak edirdilər(8, 245).

1990-cı ilin noyabrında Əlif Hacıyevin 20–ə qədər polis nəfəri və zabit heyəti olan Xocalı təyyarə limanının Xətt Daxili İşlər Bölməsinin rəisi və Xocalı hava limanının komendantı təyin olunması da ermənilərə silah daşınmasına ciddi manеə oldu. Qeyd edək ki, Ə.Hacıyev hələ 1984-cü ildə Xankəndində milisdə işləyərkən ermənilərin ustalıqla hazırladığı plan nəticəsində 10 il müddətinə həbs cəzasına məhkum edilmişdi.Günahsız olduğu yalnız 1988-ci ildə dəqiqləşdiyindən həbsdən azad olunmuşdu. O, dərhal Xocalıya gələrək şəhərin müdafiəsində yaxından iştirak etmişdi.

Bundan başqa Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 1991-ci ilin noyabrında "Sərhəd rayonları və Dağlıq Qarabağda yerli yaşayış məntəqələrinin mühafizəsinin təşkil edilməsi" haqqında kompleks proqramı nəzərdə tutan sərəncam imzalanmışdı. Bu sərəncamı yerinə yetirmək həmin dövrdə yenicə yaradılmış Müdafiə Nazirliyinə tapşırılmışdı. Lakin orada hərbi texnika və hərbi xidmətdən istifadə deyil, yalnız tikinti və texniki işləri həyata keçirmək nəzərdə tuturdu. Təəssüf ki, o dövrdə nəinki Xocalıda, heç bir

sərhəd bölgəsində müdafiə qurğularının inşası və təşkili gerçəkləşmədi.

Bundan istifadə edən ermənilər rus ordusundan «icarəyə» götürdükləri silahlarla tez-tez Xocalını atəşə tutur, evləri yandırır, dinc əhalini, qoca, qadın və uşaqları qətlə yetirirdilər. Məsələn, belə hücumların biri 1991-ci il sentyabrın 10-da səhər saat $5^{30}$-da baş vermişdi. Erməni quldur dəstələri Daşbulaq kəndi istiqamətindən şəhəri avtomat və pulemyotlardan, «Alazan» tipli raketlərdən atəşə tutmuşdular. Bir saata yaxın çəkən aramsız atəş nəticəsində şəhər sakinlərindən biri ölmüş, ikisi uşaq olmaqla altısı ağır yaralanmışdı. Xeyli sayda ictimai binalar, yaşayış evləri dağılmışdı.

Ermənilər sentyabr ayının birinci on günündə Qarabağın dağlıq hissəsində 10 nəfər azərbaycanlı öldürmüş, 21 nəfər isə ağır yaralamışdılar.

Hələ 1991-ci ilin payızında sovet rəhbərliyinin əmri ilə Dağlıq Qarabağda yaradılmış prezident üsul-idarəsi kifayət qədər səmərəli fəaliyyət göstərmədiyindən Azərbaycanın o dövrki rəhbərliyi 1992-c ilin fevral ayının 10-da Xocalıda və Dağlıq Qarabağda yaranan vəziyyəti vahid mərkəzdən, operativ idarə etmək üçün ümumi komandanlıq yaratdı və Tahir Əliyev onun başçısı təyin olundu. Lakin o da müxtəlif səbəblərdən öz vəzifəsinin öhdəsindən gələ bilmədi.

Ümumiyyətlə, o zaman iqtidarda olanların müstəqil dövlət qurub idarə etmək bacarığının olmaması və bir çox məsələlərdə milli maraqlardan deyil, ümumi SSRİ və Rusiya marağından çıxış etməsi də vəziyyəti ağırlaşdırırdı.

Qeyd edək ki,o dövrdə Xocalının müdafiə qüvvələrinin ixtiyarında 250-ə qədər avtomat,bir ədəd top, iki ədəd "Alazan" raket qurğusu və 1 ədəd BRDM var idi





(8, 248). O dövrün məlumatlarına görə, həmin vaxtlar Xocalını əhatə edən ermənilər yaşayan kəndlərdə – Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəməki, Noraguh və Mirzəcanda ***ermənilərin 515 nəfər canlı qüvvəsi, 3 "Alazan" raketi,10 ədəd zirehli transpartyoru,3 ədəd PDM və bir neçə tankı olmuşdur.*** Düşmənin əsas qüvvəsi isə Xankəndində və Əsgəranda əmrə hazır dayanmışdılar. ***Bütövlükdə o dövrdə Dağlıq Qarabağın erməni ordusunun sayı buradakı Ermənistan Silahlı Qüvvələri nəzərə alınmadan 7 min nəfər olmuşdur.***

1992-ci il fevral ayının 12 və 13-də Xocalı qonşu erməni kəndləri tərəfindən atəşə tutuldu və bundan az keçməmiş erməni hərbi qüvvələrinin Xankəndindən Xocalıya tərəf yerdəyişməsi baş verdi.

Belə gərgin bir vaxtda, fevralın 13-də Xocalıya sonuncu vertalyotlar gəldi. Onu da qeyd edək ki, hava nəqliyyatını Zabrat və Gəncədə yerləşən, ruslara məxsus desant diviziyasının mühafizəçi vertalyotları həyata keçirirdi. O vaxtlar Gəncə şəhər Polis İdarəsinin rəisi Eldar Həsənov, demək olar ki, təkbaşına bir neçə vertalyotu desantlardan alıb Xocalıya göndərmişdi. Həmin vertalyotlarla 300 nəfər qoca, qadın, uşaq mühasirədən çıxarıldı. Ancaq məsələ orasında idi ki, vertalyotlar da bir çox səbəbdən istənilən vaxt uça bilmirdi. Ermənilər yanvar-fevral aylarında Xocalı və Şuşaya uçan 7 sərnişin vertalyotunu gülləyə tutmuşdular. Bu da hava əlaqələrini çətinləşdirirdi. Xüsusilə, 1992-ci il yanvarın 28-də Şuşa şəhəri səmasında içərisində 44 nəfər dinc Azərbaycanlı əhalinin olduğu mülki vertalyotun vurulmasından sonra Xocalı ilə hava əlaqəsi də demək olar ki, kəsildi. Beləliklə şəhərin blokadası tam başa çatdırıldı.

Ümumiyyətlə, Xocalıya axırıncı dəfə avtomobil 1991-ci il oktyabrın 30-da gedib və noyabrın 1-dən bu

şəhər artıq mühasirə vəziyyətində olub. 1992-ci il yanvarın 2-dən isə oraya işıq verilməyib

Fevral ayını 19-da saat 17-də Xocalı hər tərəfdən PDM, iriçaplı pulemyot və avtomatlardan 4 saat ara verilmədən atəşə tutuldu.

***Faciə ərəfəsində ermənilər istər canlı qüvvə, istərsə də hərbi texnika və silah cəhətdən Xocalılardan üstün idi.***

Xocalı faciəsi ərəfəsində İran İslam Respublikasının rəsmiləri münaqişənin sülh yolu ilə nizamlanmasında vasitəçilik missiyası ilə Azərbaycana gəlmişdi. Odur ki, cəbhədə atəşkəs elan edilmişdi. O dövrdə İranın xarici işlər naziri işləyən Əli Əkbər Vilayəti fevralın 25-də Azərbaycan hakimiyyət nümayəndələri ilə görüşüb müzakirə aparmışdı. Daha sonra o, Dağlıq Qarabağa, İrəvana getməliydi. Atəşkəs haqqında bundan əvvəl razılıq əldə edilməsinə baxmayaraq erməni tərəfi uçuşun təhlükəsizliyinə təminat vermədi və ermənilər bütün beynəlxalq hüquq normalarını tapdalayıb elə həmin günün axşamı Xocalıya bütün istiqamətlərdən hücum etdilər.

Qəribədir ki, Azərbaycanın başqa bir qədim şəhəri olan Şuşa şəhərinin də işğalı ərəfəsində İranla danışıqlar aparılırdı. Azərbaycanın o vaxtkı dövlət rəhbəri Tehranda vasitəçilik missiyası ilə bağlı görüşlər keçirdiyi gün Şuşa işğal edildi. Maraqlıdır, görəsən bu iki hadisə arasında bağlılıq varmı? Təəssüf ki, buna birmənalı cavab tapa bilmədik. Ancaq bunların təsadüfi olması da az inandırıcıdır.

Bu məsələdən bəhs edərkən rus tədqiqatçısı Y. Pompoyev «Qarabağ qan içində» adlı əsərində yazır ki. «erməni və Rusiya xüsusi alayının əsgərlərindən ibarət peşəkar qatillər bütün tərəflərə sübut etdilər ki, heç bir sülh və barışıq məqamı onlara lazım deyil. Onların seçdiyi yol təcavüzkarlıq və zorakılıqdır» (27, 10)





***1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə XX yüzilin II yarısında Azərbaycan türklərinin tarixində ən böyük faciə – Xocalı qırğını baş verdi. Həmin gecə saat 23:00-da ermənilər üç istiqamətdən Xocalıya hücum etdi. Bu hücumda Ermənistan Respublikası Silahlı Qüvvələrinin tabeçiliyində olan silahlı qruplar, muzdlu əsgərlər, özünü Artsax Xalq Azadlıq Ordusu adlandıran Dağlıq Qarabağın erməni bölmələri və 366-cı rus hərbi alayı iştirak etmişdi. Bu hücumda Xankəndi tərəfdən öndə olan 366-cı alayın hərbi texnikası, onların ardınca rus-erməni silahlı dəstələri, Əsgəran istiqamətindən isə mindən çox silahlı quldurlar daha çox fəallıq göstərirdilər*** (Red). Əvvəlcə 366-cı alayın tanklarının köməyilə piyada qüvvələri şəhərə doğru irəliləyərək artilleriya atəşi ilə şəhərdə olan əsgər qərargahları və atəş mövqelərini məhv etmişdilər. Şəhərin müdafiəçiləri səhərə qədər düşmənə qarşı rəşadətlə döyüşmüşdülər. Onların bir neçəsi kamikadze şücaəti göstərərək bədənlərinə partlayıcı qurğu bağlayaraq özlərini düşmən texnikasına çırpmışdılar. Sonuncu müqavimət məntəqəsi səhər saat 7-də susdurulmuşdur. Atışma zamanı Xocalıda yüzlərlə adam döyüşə-döyüşə həlak olmuşdu. Ağdama tərəf müxtəlif istiqamətlərdən hərəkət edən dinc əhali yolda erməni silahlı qüvvələri tərəfindən atəşə tutularaq girov götürülmüş, dəhşətli işgəncələrə məruz qalmışdır. Dinc sakinlərin qaça biləcəyi yolların qarşısında gizlənmiş erməni əsgərləri gəlib keçənləri qətlə yetirmişdilər. ***Ermənistan hərbi birlikləri qətlə yetirdikləri insanların üzərində xüsusi əməliyyat apararaq onların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmışlar.*** Ermənilərin bu vəhşiliklərini əks et-

dirən çoxsaylı sənədlərdən bir neçəsini verməklə kifayətlənirik (Bu barədə ətraflı iəlumat üçün bax: 11; 21; 30; 31; 33; 44; 45 və s.).

«1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə ***Xocalı şəhərində erməni quldurları tərəfindən qətlə yetirilən şəxslərin xəsarətinin təhlili***:Xocalı hadisəsi zamanı bizim birliyin ekspertləri tərəfindən məhkəmə tibbi müayinədən 181 meyid keçirilmişdir. Həmin meyidlərdən 130 nəfəri kişi, 51 nəfəri isə qadındır. Müayinə olunan meyidlərdən 13 nəfəri azyaşlı uşaq olmuşdur.Xəsarətlərin əmələgəlmə mexanizminə görə bölünməsi aşağıdakı qaydada olmuşdur:a) qəlpə təsirindən - 20 nəfər; b) güllə təsirindən - 151 nəfər; c) küt alət təsirindən - 10 nəfər.

Xəsarətlər yerləşdiyi nahiyəyə görə aşağıdakı kimi olmuşdur:a)baş nahiyəsi -40;b) döş qəfəsi -74; c) qarın nahiyəsi -17 d) ətrafları-11.

Bununla yanaşı müayinə olunmuş meyidlərdən 3 nəfərində ətrafların donması, 33 nəfərində işgəncə əlamətləri, yəni ***başın dərisinin soyulması, qadınlarda döşlərin kəsilməsi, burun və qulaq qığırdaqlarının kəsilməsi, qadınların cinsiyyət üzvlərinə odlu silahdan atəş açılması əlamətləri aşkar edilmişdi. Eyni zamanda göz almalarının çıxarılması, dişlərin sındırılması, kişilərin cinsiyyət üzvlərinin kəsilməsi müşahidə olunmuşdur.*** Müayinə olunmuş 31 meyiddə isə konbinə olunmuş, yəni bədənin müxtəlif nahiyələrinin güllə yarası və küt alətlə, kəsici-deşici alətlə yetirilmiş xəsarətlər olmuşdur. Müayinə olunmuş meyidlərdən 13 nəfərində bədənin bütün səthini əhatə edən yanıq kömürləşmə aşkar edilmişdir. Eyni zamanda müayinə edilən meyidlərdən 10 nəfərində ***güllə yarası ilə birlikdə onların üzərindən hərbi texnikanın keçməsi əlaməti olmuşdur.***





Baş məhkəmə tibb eksperti,
professor R.M.Yusifov (33, 27-29).

***Həsənova Fitat***: başına küt alətlə vurub zədələdikdən sonra əl-qolu bağlanıb gözləri çıxarılıb.

***Məmmədova Məhruzə***: əvvəlcə bu qadının gözləri çıxarılıb, sonra döş vəziləri və burnu kəsilib.

***Məmmədova Tamara Səlim*** qızı: əvvəlcə güllə yarası alıb, sonra gözləri çıxarılıb və döşləri kəsilib.

***Aslanov İqbal Bahadır oğlu***: əvvəlcə güllə yarası alıb, sonra gözləri çıxarılıb və cinsiyyət üzvləri kəsildikdən sonra bədəni yandırılıb.

***Hüseynov Şakir Mustafa oğlu, İmani Ağayar, Məmmədov Saday, Hüseynov Allahverdi Qulu oğlu, Rəcəbov Cəbrayıl Mehdi oğlu, Fərzəliyev Cahan Hümbət oğlu, Kərimov Füruz*** diri-diri yandırılmışlar.

***Kərimova Firəngül***: döşü, qulaqları kəsilmiş, gözləri çıxarılmışdır. Sonra da bədəni doğranıb.

***Əzimova Dilarə Seydulla qızı***: döşü kəsilmiş, güllələnmişdir.

***Səlimov Bahadur***: cinsiyyət üzvü kəsilmiş, sonra bədəni yandırılmışdır.

***Behbudova Sürəyya Yusif qızı***: cinsiyyət üzvünə çoxlu güllə vurulmuşdur.

***Kərimov Samuray***: arxa keçəcək dəliyində boş içki şüşəsi. Bu işgəncədən sonra gözləri çıxarılmış və güllələnmişdir.

Erməni quldurları əsir götürdükləri adamlara qarşı qeyri-insani rəftar etmişlər. Məsələn, Xəzangül Məmmədova adlı bir qız bildirir ki, gözümüzün qarşısında ***əvvəlcə atamın ayaqlarına benzin tökdülər, sonra isə od vurub yandırdılar. Milli Ordunun 2 əsgərinin diri-diri başını kəsdilər***. Əsir düşmüş başqa bir Xocalı sakini

Səriyyə Talıbova isə gördüklərini belə deyir: "Bizi erməni qəbiristanlığına gətirdilər. ***Dörd nəfər gənc mesxeti türkünü və üç azərbaycanlını vaxtilə türklərə qarşı vuruşmuş bir erməninin qəbri üstündə qurban kəsdilər.*** Bundan sonra əsgərlər və quldurlar valideynlərinin gözü qabağında uşaqlara işgəncə verib öldürməyə başladılar. Sonra ***buldozerlərin köməyilə meyidləri dərəyə tökdülər. İnsan cildinə girmiş bu vəhşilərin ürəyi bununla da soyumadı. Onlar əynində milli ordunun forması olan iki azərbaycanlı gətirdilər və vintaçanla onların gözlərini dəldilər"*** (33, 91).

Qadınlar, uşaqlar və qocalardan ibarət bir dəstə adam Qaraqaya tərəfə getmiş,Əsgəranın qarşısında meşədə gizlənmişdi. Onlar gecə qarlı-şaxtalı havada səhərə qədər dayanıb gizlənmişdilər.

Səhər dan yeri ağaran zaman soyuqdan tir-tir əsən insanlar meşədən çıxıb Ağdama tərəf hərəkət etmək istəyəndə atəşə tutularaq qətlə yetirilmişdi. Bu dəstənin içərisindən təsadüf nəticəsində bir neçə adam xilas olub Ağdama gələ bilmişdi.

Başqa bir dəstə adam isə Abdal-Gülablı kəndinə tərəf qaçmışdı. Onları yolda Ağbulaq, Naxçıvannik və Dəhraz kəndlərinin silahlı ermənilər mühasirəyə alıb atəşə tutmuşdu. Bu istiqamətdə xeyli azərbaycanlı öldürülmüş, 250 nəfər isə əsir götürülərək dəhşətli işgəncələrə məruz qalmışdır.Yalnız 15 nəfərə qədər adam ölümdən və girov düşməkdən xilas olub axşama yaxın Ağdamın Gülablı kəndinə gəlib çıxmışdı.

Təlaş və vahimə içində qaçan adamların 300 nəfərdən ibarət olan bir dəstəsi də böyük çətinliklə ermənilərin yaşadığı Dəhraz kəndinə gəlib çıxa bilmiş, ancaq burada da onlar mühasirəyə alınmışdılar. Dəstədə üç nəfərin əlində ov tüfəngi olmuşdu. Təslim olmaq istə-





məyən xocalılar atışma zamanı erməni pulemyotçusunu vura bilirlər. Yalnız güllələri qurtardıqdan sonra onları əsir götürürlər və ermənilər öldürülmüş pulemyotçunun əvəzinə 10 nəfəri dərhal güllələyir, qadın və qızların başlarına dəhşətli müsibət açırlar.

Qeyd edək ki, Xocalıda ermənilər qanlı qırğın törətdikləri gecədə Əsgəran yaxınlığındakı Qaraqaya adlanan ərazidə xocalıları xilas etmək üçün Ağdamdakı könüllü dəstələr ermənilərlə ağır döyüşlər aparmışdı. Məsələn,belə dəstələrdən birində vuruşan Canpolad Rzayev Qaraqaya yaxınlığındakı döyüşün ilk anlarında sərrast atəşlə ermənilərin 2 ədəd PDM-ni məhv etdikdən sonra Əsgəran körpüsü yaxınlığında qəflətən düşmən tankı ilə üzbəüz gəlir. O, düşmənin bu tankını da sıradan çıxarır və 30 nəfər Xocalı sakininin həyatını xilas edərək qərargaha gətirir. Sonra tankını ermənilərin yaşadığı Naxçıvannikə, Əsgəran tərəfə sürür. Erməni quldurlarl bu yolda pusquda dayanaraq xocalıların qarşısını kəsib yaxınlıqdakı donuz pəyəsinə yığmışdılar. Canpolad yoldaşları ilə düşmənə qarşı rəşadətlə döyüşür və 30 nəfərə yaxın erməni quldurunu məhv etdikdən sonra donuz pəyəsinə doldurulmuş 100- ə yaxın Xocalı sakinini azad edir. Bundan sonra o, rusların idarə etdiyi PDM-lə qarşılaşır. Bu döyüşdə xalqının, torpağının azadlığı uğrunda mübarizə aparan Canpolad Rzayev qəhrəmancasına həlak olur (9, 75).

Ümumiyyətlə, ***1992-ci il fevralın 25-dən 26-na keçən gecə rus əsgərləri ilə birlikdə ermənilərin Xocalıda həyata keçirdikləri hərbi əməliyyat öz miqyası, qəddarlığı və amansızlığı ilə insanı dəhşətə gətirir.*** Qəsəbəyə hücum edən qüvvələr arasında yerli ***erməni hərbi birləşmələri ilə yanaşı ruslaradan ibarət olan 366-cı alayın komandirləri, əsgərləri beynəlxalq qanunları və hərbi Nizamna-***

***məni deyil, milli nifrəti əsas tutaraq soyqırım həyata keçirmişdilər.*** Erməni qaniçənləri bu şəhərdə yaşayan azərbaycanlılara qarşı milli-etnik və dini zəmində soyqırım aktı törədərək şəhəri tamamilə yandırmış və dağıtmışlar. ***Bu faciəli gecədə "dinc əhalidən 613 nəfər (bax: əlavə 2), o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıq və işgəncə verməklə öldürülmüş, 76-sı uşaq olmaqla 487 nəfərə ağır bədən xəsarəti yetirilmiş, 1275 sakin-uşaqlar, qadınlar və qocalar girov götürülərək ağlasığmaz zülmə, təhqirlərə və həqarətə məruz qalmışlar. Onlardan 150 nəfər itkin düşmüşdür.*** Sonradan onlardan 1165 nəfərini geri almaq mümkün olmuşdur. ***Bu qətliam zamanı 7 ailə büsbütün məhv edilmiş, 25 uşaq hər iki valideynini, 224 uşaq bir valideynini itirmişdir. Bundan başqa 230 ailə öz başçısını itirib. 200 nəfərin ayaqları soyuqdan qanqrena olmuşdur. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyil"***(21, 30; 31, 6; 44).

Vaxtilə Xocalıya pənah gətirmiş ***Mesxeti türklərinin 7 nəfəri şəhərin müdafiəsi zamanı həlak olmuş,12 nəfəri əsir götürülmüş, 86 nəfərindən də heç bir xəbər yoxdur.***

Ermənilərin Xocalıdakı vəhşiliyini əks etdirən çoxsaylı sənədlər göstərir ki, ***rus və Ermənistan Silahlı Qüvvələrinin və onların tabeçiliyində olan muzdlu əsgərlərin və terrorçu dəstələrin törətdiyi vəhşilik məhz soyqırım aktıdır*** və ***beynəlxalq hüquq normalarına, insan haqqlarına tamamilə ziddir.*** Onu da bildirək ki, Xocalı qətliamının dünya ictimaiyyətinə çatdırılmasında, ermənilərin əsir götürülmüş azərbaycanlılara qarşı törətdiyi vəhşiliyin lentə alınmasında cəsur telejurnalist ***Çingiz Mustafayevin*** çox böyük zəhməti olmuşdur. Sonralar o, erməni qəsbkarlarına qarşı Naxçıvannik kəndi yaxınlığında aparılan döyüşü lentə alarkən qəhrəmancasına həlak olmuş, göstərdiyi xidmətlərə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Cəsur, vətənpərvər insan olan Ç.Mustafayev Xocalıda gördüyü dəhşətli mənzərəni belə təsvir edir: ". Yüzlərlə insan cənazəsi...əksəriyyəti yaxın məsafədən, başından güllələnmiş 2 yaşından 15 yaşınadək uşaq, qadın və qoca meyidləri. Meyidlərin vəziyyətindən aşkar bilinir ki, heç biri müqavimət göstərməyə, qaçmağa cəhd etməyib. Onları son dərəcə soyuqqanlıqla, vəhşiliklə qətlə yetiriblər.





Hər şeydən əvvəl aydın olur ki,bəzilərini kənara çəkib tək-tək öldürmüş, digərlərini ailəliklə güllələmişdilər. Bir çox meyidlərdə yeddi-səksiz, hətta daha çox güllə yarası var. Həmin güllələrdən biri mütləq başa dəyib. Deməli, yaralananların işini bu yolla bitirmişlər.

Bir neçə uşağın qulaqları kəsilmişdi. Kişilərin əksəriyyətinin kəlləsi dağıdılmışdı.Qarət olunmuş meyitləri saymaq mümkün deyildi.

Soyqırımın nişanələri olan yerə ilk dəfə iki vertalyotla fevralın 28-də gəldik. Hələ səmada ikən ***500 metr radiusu olan sahənin insan cəsədləri ilə örtüldüyünün şahidi olduq.*** Həmin yerlər erməni quldurlarının nəzarəti altında olduğuna görə pilotlar aşağı enməyə ehtiyat edirdilər.Buna baxmayaraq biz yerə endik. Vertalyotdan çıxan kimi atışma başlandı. Bizi müşayiət edən milis işçiləri əvvəlcədən razılaşdığımız kimi, meyitləri vertalyota yükləyib sahiblərinə çatdırmalı idilər. Lakin 4 meyiti yuxarı qaldıra bildilər. Onları qınamaq çətindir. Gördüyümüz mənzərə hamının ağlını başdan çıxarmışdı. Özümüzə gələ bilmirdik.

Martın 2-də xarici jurnalistlərlə təkrar həmin yerə gələndə də eyni vəziyyətlə rastlaşdıq. Meyitlərin əksəriyyəti daha eybəcər şəklə salınmışdı. ***Görünür, cəllad-***

***lar hər gün vəhşiliklərini davam etdirməkdən zövq alırdılar.*** (31, 30).

Xocalıda dinc insanların vəhşicəsinə qətlə yetirilməsinin şahidi olan «Moskovskiye novosti» qəzetinin müxbiri Viktoriya İvlevanın etirafları da tükürpəricidir. O, Xocalıya hücum edənlərin birinci eşalonunda deyil, ikincisində gedib. Bu zaman o qarşıdan «nə isə buludu xatırladan bir şey yaxınlaşdığını» görüb, qeyd edir ki, «sonra bildim ki, bu bulud kimi görünən yarıçılpaq adamlar dəstəsi imiş. Türklərin dəstəsinin sonunda üç uşağı olan qadın gedirdi. Qarın üstüylə, ayaqyalın. O çox çətin hərəkət edirdi, tez-tez yıxılırdı. Onun uşaqlarının ən kiçiyi ikigünlük idi» (27, 9). Bu adamların sonrakı taleyini isə biz cəsur telejurnalist Ç. Mustafayevin çəkldiyi kadrlarda görürük.

Bu dəhşətli faciə ermənilərin qəddarlığını, insanlığa ləkə olan hərəkətlərini gözləri ilə görən bu vəhşiliklərin şahidi olan Rusiya Federasiyası Baş Kəşfiyyat İdarəsinin polkovniki V.Savelyevi də təəccübləndirmiş və sarsıtmışdı. «Mən bütün bunları yazmaya bilmərəm. Hər şey gözlərim önündə baş verib. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmərəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlşı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. ***Təkcə on doqquz səhifəlik məxfi arayışı həm Kremlə, həm də Müdafiə Nazirliyinə, Baş Kəşfiyyat İdarəsinin generallarına göndərdim. Oxuyun-dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi ... Bu oyunlara rus zabitlərini qoşmaqla onları alçaltdılar, şərəfinə lənət damğası vurdular. Mən on addımlıqda güllə yarasından can verən səkkiz-doqquz yaşlı qızcığaza heç cür kömək əlimi uzada bilmədim. Allahın mənə lənət edəcəyindən qorxdum»*** (seçdirmə -red.) (21, 142- 145).





***Ermənilərin öldürülən azərbaycanlıları dəfn etmə üsulu isə ümumiyyətlə insanlığa yaraşmayan hərəkət olmuşdur.*** Belə əxlaq sahibi olanların Avropa və Amerikada himayə edilməsi, təəssüf doğurmaya bilməz. Bu məsələdən bəhs edərkən V.Savelyev yazır: «Onları yarım metr qazılmış çalalara atıb üstünü torpaqlayırdılar. Axşamlar belə çalaların ətrafında itlərin və çaqqaların səs-küyündən,dartışmalarından qulaq tutulurdu, adam vahimələnirdi. ***Hər yerdən laxtalanmış qan və ölmüş cəsəd iyi gəlirdi»*** (21, 144).

Erməni və rus hərbi birlikləri Xocalıda soyqırımı elə dəhşətli və qəddarlıqla həyata keçirmişdilər ki, bu o dövrdə bir çox dünya mətbuatı səhifələrində də öz əksini tapmışdır. Akif Asırlı «Türkün Xocalı soyqırımı» adlı əsərində xarici ölkə mətbuatında yer alan məqalələrdən xeyli sitat vermişdir. Oxucuların marağına səbəb ola biləcəyini düşünərək onlardan bir neçəsini diqqətə çatdırırıq:

***«Vaşinqton-Post» qəzeti***: «Dağlıq Qarabağ qurbanları Azərbaycan şəhərində torpağa basdırılıb. Qaçqınlar deyirlər ki, ermənilərin hücumu zamanı yüzlərlə adam həlak olub. Həlak olmuş 7 nəfərin meyitini bu gün göstəribilər, onlardan 2-s uşaq, 3-ü qadındır. 120 qaçqın Ağdam hospitalındadır, onların bədənlərində çoxsaylı dərin yaralar var».

***«Tayms» qəzeti***: «Erməni əsgərləri yüzlərcə qaçqın ailəsini qırıblar. Sağ qala bilənlər xəbər verirlər ki, erməni əsgərləri 450-dən artıq azərbaycanlını güllələyiblər. Onlardan çoxu uşaq və qadınlardır. Yüzlərcə, mümkündür ki, minlərcə insan itkin düşüb. «Onlar atəş açırdılar, atəş açırdılar, atəş açırdılar»-deyə Xocalıdan digər qadın və uşaqlarla birlikdə Ağlama qaçmış Raziya Aslanova bildirib. O deyib ki, əri və oğlu öldürülüb, qızı itkin düşüb».

*«Tayms» qəzeti*: «Qırğın aşkar oldu. Anatoli Levin: «Dağlıq Qarabağın yamaclarında aralarında qadın və uşaq olan 60-dan çox meyit aşkar olunub, bu isə erməni qoşunları tərəfindən azərbaycanlı qaçqınların qırılması haqda məlumatları təsdiqləyib. Yüzlərlə qaçqın hələ də tapılmayıb. Onlaran çoxu tanınmaz hala düşüb. Balaca bir qızcığazın isə yalnız başı qalıb».

*«İzvestiya» qəzeti*: «Videokamera qulaqları kəsilmiş uşaqları göstərib. Yaşlı qadınlardan birinin üzünün yarısı kəsilib. Kişilərin baş dərisi soyulub».

*«Sandi Tayms» qəzeti*: «Tomas Tols erməni əsgərlərinin törətdikləri qırğınlar barədə məumatlar verən ilk reportyordur. Xocalı sadə Azərbaycan şəhəri olub. Lakin dinc dövrdə əkinçiliklə məşğul olan minlərlə azərbaycanlı evi olub. Ötən həftə şəhər yer üzündən silinib».

*«Fayneyşnl tayms»* qəzeti: «Ermənilər Ağdama gedən qaçqın kolonunu güllələyiblər. Azərbaycanlılar 1200 meyit sayıblar. Livandan olan reportyor təsdiq edib ki, varlı daşnak icması Qarabağa silah və adam göndərir».

*«İzvestiya» qəzeti*: «mayor Leonid Kravest: «Mən özüm yamacda yüzə qədər meyit gördüm. Oğlan uşaqlarından birinin başı yox idi. Hər yerdə xüsusi qəddarlıqla öldürülmüş qoca, qadın və uşaq meyitləri gördüm».

*«Fayneyşnl tayms» qəzeti*: «General-polkovnik bildirib ki, 366-cı alaydan 103 hərbi qulluqçu Dağlıq Qarabağda qalıb».

*«Le Mond» qəzeti*: «Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında 3 baş dərisi soyulmuş, dırnaqları çıxarılmış meyit görüblər. Bu, Azərbaycan təbliğatı yox, reallıqdır».





*«Valer aktual» jurnalı*: «Bu Muxtar vilayətdə erməni hərbi birləşmələri Yaxın Şərqdə olanlarla birlikdə ən müasir hərbi texnikaya, eləcə də vertalyotlara malikdir. ASALA Suriya və Livanda hərbi düşərgə və silah anbarlarını məhv ediblər, 100-dən artıq müsəlman kəndini qırıblar».

*«Qolos Ukraini» qəzeti:* V.Skaçko: «Müharibənin sifəti olmur. Yalnız məkrli maska, qanlı göz yaşları, ölum, bədbəxtlik, dağıntılar...

Xocalıda körpələri qətlə yetirdilər. Bəs analarını? Allah insanı cəzalandırmaq istəyəndə onun ağlını alır».

O dövrdə Türkiyə Respublikasının prezidenti S.Dəmirəl, Xarici İşlər Naziri H.Çətin, Türkiyə Böyük Millət Məclisinin sədri H.Cindoruk öz çıxış və bəyanatlarında bu qətliamı pisləmiş, beynəlxalq təşkilatları buna ən ciddi reaksiya verməyə çağırmışdılar. Təəssüf ki, belə həssaslığı biz uzun illər bir «ittifaqda» birləşdirdiyimiz «qardaş» sovet respublikalarından görə bilmədik.

Xocalı soyqırımına ən kəskin etiraz bildirən ölkələrdən biri Türkiyə olmuşdur. Belə ki, 1992-ci il martın əvvəlində qardaş ölkənin Ankara, İzmir, İqdir, Qars və s. şəhərlərində erməni-rus ordusunun vəhşiliklərini pisləyən, Azərbaycanla həmrəylik bildirən çoxminli mitinqlər keçirilmişdir. Mitinqlərin təşkilatçıları Türkiyə hökumətindən tələb edirdilər ki, təcili surətdə Ermənistan hökumətinə təsir göstərib Dağlıq Qarabağda azərbaycanlılara qarşı genosid siyasətinə son qoysunlar.

Doğrudur, böyük dövlətlər və beynəlxalq təşkilatlar məsələyə ikili standartla yanaşaraq heç bir reaksiya vermədilər, özlərini nədənsə görməməzliyə vurdular. İrakın Küveytə hücumu zamanı işğalçıya qarşı göstərilən operativlik indi soyuqqanlıqla əvəz olundu.

Qeyd edək ki, ermənilər Xocalı soyqırımına əvvəlcədən hazırlaşdıqlarından bu aksiyadan bir neçə gün əvvəl dünyanın onlarla ölkəsindən qəzet, televiziya jurnalistlərini hadisələri işıqlandırmaq üçün buraya dəvət etmişdilər. Onlar buraya hadisələri obyektiv işıqlandırmaq üçün deyil, hadisələri saxtalaşdırmaq, «fağır, sakit, əməksevər» ermənilərin müsəlmanlar tərəfindən qətlə yetirilməsini sübut etmək üçün təşrif buyurmuşdular.

Polkovnik V.Savelyevin arayışında ermənilərin belə saxtakarlığına aid bir neçə maraqlı faktlar vardır. O yazır: «həmin ərəfədə Fransadan gəlmiş «Operator-II» özəl studiyasının erməni əməkdaşları isə (Gül Bareylan, Şerin Sitaryan) Xocalı ətrafında qalaqlanmış meyitlərin yandırılmasını lentə köçürdülər. Rusiyanın 2-ci batalyonunda vuruşan zabit İvan Karebelinkovun verdiyi məlumata görə bu yer... Xocalının şimal-şərq hissəsində kiçik təpəciklər olan bir yer idi...

Xocalı faciəsini «işıqlandırmaq» (ermənilər buna qəhrəmanlıq deyirlər) üçün Xankəndinə dünyanın 32 ölkəsindən 47 nəfər erməni jurnalist gəlmişdi. Onların bir qismi general Zaviqarovun ayırdığı zirehli maşınların gözlüklərindən, qərargah məskənlərindən ***hadisələri izləyir, qeydlər götütür, bəziləri də operativ çəkilişlər aparırdı. Dağılmış, viranə qalmış yerləri dünyaya göstərir və acı bir təəssüflə qeyd edirdilər:...Azərbaycanlılar günahsız erməniləri qırırlar»*** (21, 145-146).

Xocalı soyqırımı zamanı ***dinc əhaliyə qarşı daha çox qəddarlıq edənlər, adam öldürənlər Rusiya, Ermənistan və digər ölkələrdəki havadarları tərəfindən müxtəlif formalarda mükafatlandırıldı. Bu isə təcavüzü, vəhşiliyi şirnikləndirmək deməkdir.*** Belə məsələdən bəhs edən onlarca fakt və sənədlərdən yalnız bir neçəsindən sitat





verməklə onun doğru olduğunu göstərmək istəyirik. «Xocalının işğal edilməsi planının strateji tərəflərini ermənilərlə yanaşı, ruslar da... çox düşünüblər. Nəticədə birinci batalyonun qərargah rəisi, mayor Abram Çitçiyan mayor Nabokix və kapitan İ.Lixodey hərbi əməliyyatlarda bilavasitə vuruşublar. Zabit İ.Karabelnikovun məlumatına görə A.Çitçiyan 13 nəfərlik Babayevlər ailəsini «güllədən keçirib». ***Ona 1993-cü ildə Fransa erməni diasporu tərəfindən 150 min dollar mükafat və ən böyük «Kilsə mükafatı» verilib.*** A . Çitçiyan 1994-cü il sentyabr ayının 2-də Fransaya mühacirət edib və orada yaşayır.

Üçüncü batalyon Xocalı işğal olunan gecə, müharibə zonasından çıxarıldı, amma oranı tərk etmədi. 366-cı polk isə ərazidən çıxarılmadı. Ordu tərksilah olundu. Zabitlər satqınlıq etdilər. Silahlara gəlincə, işlənməmiş silahları ermənilər üçün ayırdılar. ***Qərara alındı ki, ermənilərdən bunun müqabilində pul və zinət şeyləri alınsın.***

... Həmin gün ermənilərin özünümüdafiə dəstəsi adı ilə vuruşan, əslində «Asala» terror təşkilatının Xankəndində yaradılmış özəyinin başçısı kimi tanınan ***İllarion Allahverdiyan 24 nəfər rus zabit və əsgərinə pul mükafatlarını elan etdi.*** Məsələn, dəstənin önünə çıxarılmış ***rus zabiti Yevgeni Qolubyevə üstündə «Asala» yazılmış 25 qramlıq qızıldın tökülmüş orden və beş min ABŞ dolları təntənəli*** surətdə təqdim etdi. Və yaxud həmin gün ***sıravi Anastas S.İvanova 10 min dollar təqdim etməklə İrəvanda onu gözləyən «Hundy» markalı avtomobilin sənədlərini verdi.***

Nəticədə erməni silahlı dəstələrilə rus zabitləri arasında şəxsi bağlaşmalar, «Döyüş müqavilələri» də imzalandı. (21, 146-148).

Xocalı soyqırımı ərəfəsində Rusiyanın 4-cü ordusunun 23-cü diviziyasınnı 366-cı motoatıcı alayının komandiri ***polkovnik Zaviqarovun ermənilərlə əlbir olub azərbaycanlıları öldürməsi, azərbaycanlılar yaşayan kəndləri atəşə tutudurub dağıtması, silahları ermənilərə verərək alayın şəxsi heyətinin ermənilər tərəfindən döyüşlərdə iştirak etməyə məcbur etməsinin müqabilində pul, rüşvət alması və s. qanunsuz hərəkətləri barədə istər ordu rəhbərliyinə, istərsə də Rusiyanın siyasi rəhbərliyinə çoxsaylı müraciətlər göndərilmişdi.*** Bu müraciətlərdə 366-cı alayın DQMV-nın ərazisindən çıxarılması və onun komandirinin ən qısa müddətdə cəzalandırılması tələb edilirdi.

***Rusiyanın ordu və siyasi rəhbərliyi polkovnikin heç*** nədən çəkinib qorxmaması və azərbaycanlılara qarşı ***daha qətiyyətli və amansız olması üçün «çox gözəl»*** tədbir görmüşdü. Gələcək soyqırımın ən fəal və əsas icraçısı olan ***polkovnik Zaviqarova 1992-ci il fevral ayının 24-də saat 21¹⁵- dəqiqədə – yəni Xocalı soyqırımından bir gün əvvəl general rütbəsi vermişdi.***

Xocalı soyqırımında 366-cı alayın komandiri, tapşırıqların «mahir» icraçısı Polkovnik Zaviqarovun günahı xüsusilə böyükdür. O, bir tərəfdən ***erməniləri silah, sursat və s. ilə təmin etmiş, digər tərəfdən, alayın əsgərləri qarşısında çıxış etmiş, onların milli, dini hisslərindən sui-istifadə edərək, əsgərləri qızışdırmış və azərbaycanlıları qırmağa təhrik etmişdir.***

V.Savelyev Zaviqarovun müsəlmanlara, o cümlədən azərbaycanlılra qarşı münasibətindən bəhs edərkən yazır: «1992-ci il fevral ayının 24-də saat $21^{15}$-də general rütbəsi almış Y.Zaviqarov zabitlər önündə belə bir çıxış edir ki, ***regiondakı müharibə torpaq müharibəsi yox, islamın xristinalığa qarşı müharibəsidir*** (seçdirmə –red.).





O çıxışında göstərirdi: «Dünyanın islam ölkələrinin nümayəndələri, hərbi müşavirlər Bakıya (?) yığışıblar ki, bizim xaçı necə sındırıb əzsinlər.... ***Xristianlığa qarşı bir yürüş var. Bu yürüşdə ya dinimizi, şərəfimizi qorumalıyıq, ya da şərəfsizliyi qəbul edib tabe olmalıyıq».***

Məhz belə təbliğatların nəticəsi idi ki, ***«... ermənilər ruslara məxsus «02-19-MM» nömrəli «Kamaz»la aradakı azərbaycanlı meyitləri yığıb Xocalıda tonqal qurdular...*** İnsanın insana olan nifrəti burada həddini aşmışdı. Kim yaratmışdı bunu, dərk edə bilmirdim.... mən sizə ermənilərə qoşularaq ***əsir alınmış azərbaycanlıları sıraya düzərək tək-tək məhv edən və bundan həzz alan rütbə zubitlərini tanıtmaq istəyirəm.*** (bundan sonra müəllif 366-cı alayın 19 nəfər rus millətindən olan zabitlərinin və 41 nəfər milliyyətcə erməni olan kiçik rütbəli şəxslərin adlanın verir. (bax: 21, 150-151).

Qeyd edək ki, Ermənistan və Rusiyanın bəzi vəzifəli şəxsləri lənətlə yad edilmək və cəzalandırılmaq qorxusundan ***Xocalı soyqırımında ermənilərin ruslarla əlaqələrini sübut edən sənədlərin bir hissəsini məhv etməyə çalışmışlar.*** Məsələn, V.Savelyev göstərir ki, «sıravi əsgər Qriqori Voroşilovun məlumatına görə, ***Xocalı ilə bağlı sənədlər 1992-ci il mart ayının 1-də Zaqafqaziya Hərbi Dairəsinin Aviasiya komandanı general-mayor S.Lukaşovun əmrilə yandırıldı» (21, 150).***

Lakin onlar öz niyyətlərinə çata bilmədilər. Bu soyqırımı əvvəlcədən planlaşdırıb hazırlayanların, həyata keçirən icraçıların əməlləri barədə yüzlərlə sənəd qalmış, bu hadisələrin şahidi olmuş minlərlə insanlar hələ də yaşayırlar.

Xocalı soyqırımı barədə Milli Məclisin "Qarabağ" fraksiyasının 2002-ci ildə hazırladığı qərar layihəsində göstərilir: "Ermənistan Silahlı Qüvvələri Beynəlxalq

Humanitar Hüququn bütün normalarını kobudcasına pozaraq dinc əhali, din xadimləri, Xocalı şəhərinin özünümüdafiə dəstələri, yaralılar və əsirlərlə qeyri-insani metodlarla davranmış, milli və dini mənsubiyyətinə görə bütöv bir şəhərin sakinlərini soyqırıma məruz qoymuş,insanlığa yaraşmayan bir faciə törətmişlər.

***1949-cu il Cenevrə Konvensiyasının I, III, IV bəndlərinə məhəl qoyulmadan*** yaralılarla, əsir düşənlərlə, mülki əhali ilə vəhşicəsinə rəftar edilmiş, onlara işgəncələr verilməklə qətlə yetirilmiş, üzərlərində xüsusi qəddarlıqlarla əməliyyatlar aparılmış,dinc əhalinin şəhəri tərk etməsinə şərait yaradılmamışdır.

***Xocalı şəhərinin işğalı zamanı 1954-cü il Cenevrə Konvensiyasının müddəaları da kobudcasına pozulmuş***, şəhərin qiymətli,mədəni abidələri yerlə-yeksan edilmişdir.

1972-ci il "Bakterioloji(bioloji) və toksin silahların ehtiyatının yaradılması, istehsalı, istifadəsinin qadağası və məhvi haqqında" Konvensiyanın,1993-cü il "Kimyəvi silahların ehtiyatının yaradılması, istehsalı, istifadəsi və məhvi haqqında" Konvensiyanın tələblərinə də riayət olunmamış, Xocalı şəhərində əhalinin kütləvi məhvi üçün ***kimyəvi silahlardan - zarin və zoman qazlarından***, ***"Fosken" tipli kimyəvi silahlardan,122 mm-lik top mərmilərinin tərkibində isə sionid maddəsindən istifadə edilmişdir.***

Həmçinin Ermənistan ərazisində üzərində ***"A-TOOZ" sözləri yazılmış xüsusi qutularda qablaşdırılmış nüvə tullantıları da Xocalı şəhərinin sakinlərinin soyqırımına qədər əvvəlcədən nəzərdə tutulmuş qonşu kəndlərdə basdırılmışdır.*** Xocalı şəhərinin şimali - qərb hissəsindəki Kolatağ, Seyidbəyli və Almalı kəndləri nüvə tullantılarının basdırıldığı ərazilərdəndir.





Xocalı şəhərinin sakinlərinin ***soyqırımı zamanı 1949-cu il Cenevrə Konvensiyasına əlavə olunan 1977-ci il "Beynəlxalq və qeyri-beynəlxalq hərbi konfliktlərdə qurbanların müdafiəsini gücləndirən"*** iki protokolun tələbləri də erməni birləşmələri tərəfindən kobudcasına tapdalanmışdır.

Bundan əlavə, ***1980-ci il "Adi silahların konkret növlərinin tətbiqini qadağan edən və məhdudlaşdıran" Konvensiyanın xüsusilə I və II müddəalarına məhəl*** qoyulmamışdır. AK markalı avtomatlar üçün, xüsusilə təhlükəli olan yeni millimetrlik güllələrdən (5, 45), piyadalar əleyhinə minalardan da bu soyqırım zamanı istifadə edilmişdir.

Beləliklə də, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri və onların tabeçiliyində olan muzdlu əsgərlər, terrorçu qruplar beynəlxalq hüquq normalarını, insan haqlarını, ayrı-ayrı dövrlərdə qəbul olunmuş konvensiyaları və protokolları ***"Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyasının tələblərini pozaraq*** Azərbaycan Respublikasının Xocalı şəhərində dinc sakinlərə, yerli özünümüdafiə dəstəsinin üzvlərinə, din xadimlərinə, yaralı və əsirlərə qarşı misli görünməmiş ***soyqırım aktı həyata keçirmişlər***"(23).

Bundan başqa bu qərar layihəsində çoxsaylı təkzibedilməz faktlar və sənədlər əsasında Xocalı soyqırımı həyata keçirən mülki və hərbi adamların adları göstərilir,onların Beynəlxalq Məhkəməyə verilməsi zərurəti qeyd olunur.Bu qətliamda iştirak edənlər aşağıdakılar olmuşlar:

1. Robert Koçaryan - Ermənistan prezidenti (seperatçıların lideri), Azərbaycan vətəndaşı;
2. Arkadi Qukasyan - Seperatçıların liderlərindən biri, Azərbaycan vətəndaşı;
3. Seyran Ohanyan - 366-cı alayın 2-ci batalyonunun komandiri, Ermənistan vətəndaşı;
4. Levon Ter-Petrosyan - (Sabiq Ermənistan prezidenti), Ermənistan vətəndaşı;
5. Polkovnik Zaviqarov - 366-cı alayın komandiri, Rusiya vətəndaşı, hazırda Ermənistan vətəndaşı;
6. Serj Babayan - ("Haydad" erməni terror təşkilatının səlahiyyətli nümayəndəsi) Azərbaycan vətəndaşı;
7. Suren Paşayan - ("Krunk" təşkilatının Fransa bölməsi), Fransa vətəndaşı;
8. Qabriel Şıxanyan - ("Vartan cəngavərləri" qrupunun Vyana bölməsi), Fransa vətəndaşı;
9. Aşin Simonyan - ("Asala" erməni terror təşkilatı), Fransa vətəndaşı;
10. Abram Çitçiyan - 366-cı alayın I batalyonunun qərargah rəisi, Rusiya vətəndaşı, hazırda Fransa vətəndaşı;
11. Polkovnik V.Baymukov - 366-cı alayın Arxa cəbhə üzrə komandir müavini, Rusiya vətəndaşı;
12. Polkovnik İ. V. Moiseyev - 366-cı alayın 1-ci batalyonunun komandiri, Rusiya vətəndaşı;
13. Mayor E.A.Nabokix -366-cı alayın 3-cü batalyonunun komandiri,Rusiya vətəndaşı;
14. Mayor V.Q.Hayriyan - 366-cı alayın kəşfiyyat rəisi, Ermənistan vətəndaşı;
15. Baş leytenant O.V.Mirzoyan - 366-cı alayın rota komandiri, Ermənistan vətəndaşı;
16. Baş leytenant Xrinxua S.V.- 366-cı alayın kəşfiyyat bölməsinin rəisi, Rusiya vətəndaşı;





17. Baş leytenant Qarmaş V.N. - 366-cı alayın Tank rotasının komandiri, Rusiya vətəndaşı;
18. Baş leytenant Nakonyan N.T. -366-cı alayın rota komandiri,Ermənistan vətəndaşı;
19. Baş leytenant Azriyan V.A.- 366-cı alayın Batareya komandiri, Ermənistan vətəndaşı;
20. Leytenant Bondarev V.A.-366-cı alayın kəşfiyyat rəisinin müavini, Rusiya vətəndaşı;
21. Leytenant Kuçov A.İ. - 366-cı alayın Radio-Kimyəvi bölməsinin rəisi,Ukrayna vətəndaşı;
22. General Kovalyov A.N. - Rusiya ordusunun yüksək çinli zabiti, Rusiya vətəndaşı;
23. Qalakçiyan Romb Arutunoviç - Xocalını bombalayan 39 nömrəli vertalyotun pilotu, Livan vətəndaşı;
24. Minoyan Razdan Alekseyeviç-40 nömreli vertalyotun pilotu, Suriya vətəndaşı;
25. Zahid əl-Məhəmməd - 29 nömrəli vertalyotun pilotu, Livan vətəndaşı;
26. Saracyan Ararat Qrekov - 17 nömrəli vertalyotun pilotu, Ermənistan vətəndaşı;
27. Pirimyan Suren Alekseyeviç - 45 nömrəli vertalyotun pilotu, Ermənistan vətəndaşı;
28. Aşot Manuçaryan - Ermənistan prezidentinin keçmiş müşaviri, Ermənistan vətəndaşı.

Qeyd edək ki, 366-cı alayın 02270 №-li hissəsinin əks-kəşfiyyat şöbəsinin rəisi, ***RF Baş Kəşfiyyat İdarəsinin polkovniki V.Savelyev*** Kremlə, Rusiya MN-ə və Baş Kəşfiyyat İdarəsinə yazdığı məktubda soyqırımda iştirak edən 19 nəfər yüksək rütbəli zabitin və 41 nəfər milliyyətcə erməni olan kiçik rütbəli şəxslərin adlarını sadalayır (6; 21, 150-151; 35).

***Xocalı soyqırımını həyata keçirməklə Rusiya və Ermənistan rəhbərliyinin əsas məqsədi xalqımızı tutduğu yoldan – Qərb, ABŞ, Türkiyə və azad dünya ilə yaxınlaşaraq Azərbaycanın müstəqilliyini, azadlığını möhkəmləndirmək yolundan çəkindirmək, mübarizə əzmini qırmaq, gözünü qorxutmaqdan ibarət idi.*** Azərbaycan Prezidenti Xocalı soyqırımının dərslərindən bəhs edərkən göstərir: «Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, düşmənlər öz niyyətlərinə çata bilmədi. 1990-cı ilin yanvar faciəsindən sonra xalqımıza qarşı Xocalıda törədilən ikinci böyük soyqırım aktı xalqımızın mübarizə əzmini qıra bilmədi. ***Bu faciələr zamanı həlak olanlar əslində Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyu uğrunda şəhid olmuşlar. Ona görə biz bu dəyərli insanların – şəhidlərin ruhuna rəhmət oxumaqla yanaşı, başımızı dik tutmalıyıq.*** Nə qədər qəmgin olsaq da, o qədər də nikbin olmalıyıq, irəliyə, gələcəyə ümidlə baxmalı, ümidlə yaşamalıyıq. Mən tam əminəm ki, Azərbaycan xalqı bu ağır mərhələdən də keçəcəkdir.

***Biz öz inamımızı itirməməliyik, məsləkimizdən, tutduğumuz yoldan çəkinməməliyik. Tutduğumuz yol bizim mənəvi dəyərlərimizə, adət-ənənələrimizə, dinimizə, dilimizə tariximizə sədaqətimizdir. Tutduğumuz bu yol Azərbaycanın müstəqilliyidir, milli azadlığıdır, müstəqil Azərbaycanın müstəqil dövlət kimi ədəbi olmasıdır» (2).***

Rus ordusu Xocalını işğal edib ***Qarabağın açarı kimi onu ermənilərə peşkəş verdi.*** Əslində Moskva ***Xocalını zəhərli bir xəncər kimi Azərbaycanın kürəyinə saplamaqla ondan intiqam alnış oldu.***

***Lakin Xocalının qanlı süqutu Azərbaycanı geriyə döndərə bilmədi.*** Ancaq irəlidə də köməksiz, sanki tanrı himayəsinə sığınmış xalqımıza arxa duran olmadı. «Arxada olduğu kimi, irəlidə də erməninin himayədarı





varmış. Azərbaycanı itirən üçün də, qazanmaq istəyən üçün də ermənilər eyni dərəcədə qiymətli imiş». (14, 24 fevral, 2001-ci il).

Xocalı faciəsinə göz yummaqla və Azərbaycanın haqq işinə arxa durmamaqla dünya düzənini dəyişənlərin də ikili standartlarla hərəkət etdiyi məlum oldu. Azadlıq və Ədalət qitəsi adlandırılan Amerikadan dünyaya yeni qaydalar diqtə edən ABŞ, Avropaya liderlik iddiasında olan Fransa Xocalının soyqırımını görməməzliyə vurub ermənilərin saxta göz yaşlarına dəsmal tutur. «Bütün bunlar Xocalı faciəsinə, Qarabağ məşəqqələrinə dözüb tarixin xalqımız üçün bu amansız dövründən dərs almağı tələb edir. Uğursuzluğun verdiyi dərsi doğru anlamaq ondan yaxa qurtarmağın çarəsidir» (Yenə orada).

Ermənilərin Xocalıda azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğın 1948-ci ildə BMT-də qəbul edilmiş «Genosid razılaşması»nın ikinci maddəsində yer alan «milli, etnik, irqi və dini inanclı bir qrupu qismən və ya tamamilə qırmaq» şəkilində təsvir edilən «soyqırım» qavramı ilə tamamilə uyğundur. Ermənilərin Xocalıdakı törətdikləri qətliam həmin sənədin «soyqırımın həyata keçirilmiş hesab ediləcəyi» şərtindəki ikinci maddədə yer alan beş bəndin birinci ikisi ilə uyğundur: «a» bəndindəki «bir qrupun üzvlərinin qətlə yetirilməsi» və «b» bəndindəki «qrup üzvlərinin fiziki və əqli cəhətdən ciddi şəkildə ziyana məruz qalması» şərtlərilə. Bundan başqa, Xocalı qətliamı beyəlxalq hüquqda mühüm yerə malik Nürinberq məhkəməsi təsis Sənədində və Məhkəmə Qərarında Tanınan (qəbul edilən) Beynəlxalq Hüquq Əsaslarının 6-cı maddəsinin ikinci bəndində təsvir edilən cinayətlər çərçivəsində də dəyərləndirilməlidir. Bir sözlə, Xocalıda baş verən vəhşiliklərin

«soyqırım» kimi bütün dünyada qəbul edilməsi üçün kifayət qədər hüquqi əsas var.

Zənnimizcə, Xocalı soyqırımının bütün dünyada tanınması və cinayətkarların cəzalandırılması üçün biz hələ xeyli işlər görməliyik. İlk növbədə soyqırım xüsusiyyətinin beynəlxalq hüquq çərçivəsində qəbul edilməsi və günahkarların cəzalandırılması üçün Azərbaycan dövləti rəsmən Avropadakı ədalət məhkəməsinə müraciət edib, 1948-ci ildə BMT-də qəbul edilən Soyqırım Müqaviləsi çərçivəsində cinayət işi qaldırılmasına çalışmalıdır. Həmin müraciətdə lazım olan dəlillərlə Ermənistanın bugünkü dövlət başçısı Robert Koçaryan və müdafiə naziri S.Sərksiyan da daxil olmaqla, Xocalı soyqırımını həyata keçirən bütün siyasi və hərbi komandanlığın adı açıq şəkildə göstərilməli, onların cəzalandırılması tələb edilməlidir. Həm Ermənistan (1993-cü ildə), həm də Azərbaycan (1996-cı ildə) BMT Soyqırım müqaviləsini imzaladıqları üçün bu nizamnamə qarşısında məsuliyyət daşıyır. Nümunə üçün deyək ki, Bosniya-Hersoqovina dövləti bu məhkəməyə müraciət edərək, Yuqoslaviyanın keçmiş dövlət başçısı Slobadan Miloşeviçin cəzalandırılmasını tələb etmişdi. Haaqa şəhərində yerləşən Beynəlxalq Məhkəmə 1995-ci ildə Srebrenitsa şəhərində 700 nəfərin qətlə yetirilməsini soyqırım kimi qiymətləndirib keçmiş prezidenti məsuliyyətə cəlb etmişdi.

Bunlarla yanaşı, məsələ BMT-nin gündəminə gətirilməli və hər il 26 fevral günü bütün dünyadakı BMT nümayəndəlikləri qarşısında aksiyalar keçirilməli, Azərbacyanın dövlət rəsmiləri Xocalı soyqırımı ilə bağlı BMT-də çıxış etməli və məsələnin mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması üçün müxtəlif tədbirlər həyata keçirilməlidir.





Eyni zamanda Xocalı muzeyinin yaradılması da zəruridir. Xaricdən Azərbaycana gələn dövlət və ictimai xadimlərin, qonaqların bu muzeyi və Xocalı şəhidlərinə uculdılmış abidənin ziyarət etmələrinin protokol qaydalarına salınması da təsirli təbliğat vasitələrindən biri olar.

Bundan başqa görə biləcəyimiz işlərdən bir istiqaməti də Avropa Şurasının Parlament Assambleyasıdır. Belə ki, AŞ PA-dakı deputatlarımız bu məsələyə həssas yanaşan bəzi ölkələrin millət vəkillərinin (məsələn, Türkiyə) dəstəyilə məsələnin Assambleyada gündəmə gətirilməsi və ən azı müzakirəyə çıxarılması üçün təşəbbüslər göstərə bilər.

Xocalı soyqırımı ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisi xeyli iş görmüşdür. Qanunverici orqanda hər il bu məsələ müzakirə olunmuş, onun beynəlxalq arenada tanınması üçün dünya dövlətlərinə müraciətlər qəbul etmişdir. Beynəlxalq təşkilatlara, ayrı-ayrı dövlətlərin parlamentlərinə göndərilən bu müraciətlərdə Xocalıda baş vermiş hadisələrin soyqırım olduğu və beynəlxalq konvensiyanın nəzərdə tutduğu müddəaya uyğun gəldiyi göstərilmişdir.

Qeyd edək ki, hələ 1992-ci ilin mart ayının 25-də Milli Məclis özünün 33412 saylı qərarı ilə bu hadisənin soyqırım olduğunu qeyd edib.

1994-cü ildə Xocalı soyqırımı ilə bağlı Milli Məclisin xüsusi iclası keçirilmiş və orada qərara alınmışdır ki, hər il fevralın 26-sı «Xocalıların soyqırımı günü» kimi qeyd olunsun. 26 mart 1998-ci ildə Azərbaycan prezidenti Heydər Əliyev «Azərbaycanlıların soyqırımı haqqında» fərman verdi. Burada ermənilərin Azərbaycanlılara qarşı həyata keçirdiyi təcavüz aktları, iddiaları əksini tapmaqla Xocalı hadisələri də bu təcavüzün bir mərhələsi kimi göstərilmişdir.

27 fevral 2007-ci ildə də Milli Məclisdə Xocalı soyqırımına həsr olunmuş dinləmələr keçirilmişdir (Daha ətraflı məlumat üçün bax: 5). Bu dinləmələrdən sonra Milli Məclis Xocalı soyqırımının günahkarlarını cəzalandırmaq, erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımını tanımaq, pisləmək, gələcəkdə bu cür cinayətlərin baş verməsinin qarşısını almaq üçün tədbirlər görülməsi üçün BMT, ATƏT, Avropa Şurası, Avropa Birliyi və digər beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə Bəyanatla müraciət göndərmişdir.

Milli Məclis Xocalı soyqırımının 15 illiyi ilə əlaqədar geniş qərar qəbul etmişdir. Qərarın birinci bəndində deputatlara xarici ölkələrə səfərlər zamanı, o cümlədən beynəlxalq təşkilatların tədbirlərində iştirak edərkən son yüz ildə azərbaycanlıların məruz qaldıqları soyqırım aktları, o cümlədən Xocalı faciəst haqqında həqiqətlərin daha geniş yayılmasını təmin etmələri, bu məqsədlə Milli Məclisin xarici ölkələrin parlamentləri ilə ədaqələr üzrə işçi qruplarının imkanlarından dolğun və səmərəli istifadə etmələri bir vəzifə olaraq tapşırılır. İkinci bənddə Ermənistanın ölkəmizə silahlı təcavüzü, Dağlıq Qarabağ və ətraf rayonların işğalı zamanı azərbaycanlılara qarşı törədilmiş soyqırım aktları, xüsusən Xocalı faciəsi ilə bağlı materialların toplanılması, öyrənilməsi, ümumiləşdirilməsi və yayılması məqsədi ilə Azərbaycan Respublikasının Milli Məclisi yanında İnformasiya-Tədqiqat Mərkəzi yaradılması nəzərdə tutulur. Üçüncü bənddə Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarına tövsiyyə edilir ki, Xocalı şəhərində soyqırımı aktının törədilməsində iştirak etmiş şəxslərin hamısının müəyyən edilməsi, cinayətkarların hüquqi məsuliyyətə cəlb olunması üçün görülən tədbirləri gücləndsinlər. Dördünü bənddə Azərbaycan Respublikasının Dağlıq Qarabağ problemi ilə məşğul olan dövlət və qeyri-dövlət qurumlarına tövsiyyə edilir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatların geniş yayılması, yalançı erməni təbliğatının ifşa edilməsi üçün səylərini birləşdirsinlər» (5).





Aparılan təbliğat, görülən işlər nəticəsində Xocalı soyqırımı zamanı ermənilərin törətdikləri vəhşiliklər barədə dünya xalqları, siyasətçiləri xeyli məlumatlandırılıb. Məsələn, ABŞ konqresmenlərindən Beynəlxalq Münasibətlər Komitəsinin üzvü Den Barton 2005-ci il fevralın 18-də Nümayəndələr Palatasında çıxış edərək amerikalı qanunvericiləri Xocalı soyqırımını tanımağa çağırmışdır. Konqresmenin fikrincə ABŞ konqresi Xocalı soyqırımını tanımaqla beynəlxalq ictimaiyyətin uzun illərdən bəri bu məsələ ilə bağlı sükut buzunu qıracaqdır. Den Barton çıxışında bildirmişdir ki, 1992-ci il fevralın 26-da erməni silahlı birləşmələri Rusiya hərbi alayının köməyi ilə nainki Xocalını tutmuş, həm də onu yerlə-yeksan etmişdir. O, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri faktların və rəqəmlərin dili ilə həmkarlarının diqqətinə çatdırmışdır. Onun istinad etdiyi sənədlər arasında Moskvanın «Memorial» hüquq-müdafiə mərkəzinin hazırladığı məruzə də var. Həmin məruzədə bildirilir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı yaşayış məntəqəsinin erməni silahlı birləşmələri tərəfindən tutulması ilə bağlı insan hüquqları kütləvi şəkildə pozulmuş, əsl soyqırım siyasəti aparılaraq çoxlu insanlar öldürülmüş, meyitlər üzərində əməliyyatlar aparılmış. cinayətlər və qəddarlıqlar törədilmişdir (22, 180-181).

2005-ci fevralın ortalarında və 2006-cı il fevralın 23-də Türkiyə Böyük Millət Məclisinin xüsusi iclasla-

rında Xocalı soyqırımı ilə bağlı məsələ geniş müzakirə olunmuşdur. Parlamentin üzvləri erməni silahlı dəstələrinin Xocalıda mülki əhaliyə qarşı törətdikləri cinayətləri görünməmiş vəhşiliklər kimi qiymətləndirmiş, erməni cəlladlarının qanlı əməlləri pislənilərək bunun Azərbaycan xalqına qarşı soyqırım olduğu vurğulanmışdır.

Fevralın 24-də Ankarada Türkiyənin ictimai-siyasi xadimlərinin bu ölkədə akkreditə olunmuş diplomatik korpusunun nümayəndələrinin iştirakı ilə H.Əliyev Fondunun təşkil etdiyi «Xocalı soyqırımı» sənədli filmi göstərilib. Tədbirdə Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın soyqırım ilə bağlı dünya ictimaiyyətinə müraciəti səsləndirilib.

Qeyd edək ki, ***Xocalı soyqırımının tanınması üçün Heydər Əliyev fondunun dəstəyi ilə dünyanın bir sıra inkişaf etmiş ölkələrində,*** məsələn, Moskvada, Londonda, Brüsseldə, Strasburqda, Osakada, Vyanada, Nyu-Yorkda, Parisdə, Berlində və b. şəhərlərdə müxtəlif tədbirlər keçirilmiş, ***bu faciəni özündə əks etdirən broşüralar, bukletlər və əsərlər çap edilərək yayılmışdır*** (Daha geniş məlumat üçün bax: 5; 34; 38; 41; 44).

Ermənilər və onların havadarlarının Xocalıda həyata keçirdiyi qətliamı dünyaya və o sıradan Avropaya, Amerika xalqlarına çatdırmaq üçün ***Dünya Azərbaycanlıları Konqresi (DAK)*** də xeyli işlər görmüşdür. 2006, 2007-ci illərdə DAK-ın təşkilatçılığı ilə «Xocalı soyqırımı və dünya azərbaycanlıları terora yox deyir» devizi ilə İstanbulda, Ankarada, Brüsseldə, Haaqada, Vaşinqtonda və digər şəhərlərdə elmi-praktiki konfranslar, brifinqlər, etiraz aksiyaları keçirmişdir.





Son dövrlərdə Azərbaycanın hüquq mühafizə orqanları Xocalı soyqırımında iştirak edənlərin müəyyənləşdirilməsi və axtarışa verilməsi sahəsində müəyyən işlər görmüşdür.

Belə ki, Respublika Hərbi Prokurorluğu Dağlıq Qarabağ və ətraf ərazilərdə erməni işğalçı birləşmələri tərəfindən törədilən ağır cinayət hadisələri ilə bağlı cinayət işlərinin ibtidai istintaqını üç istiqamətdə aparmışdır. Birinci istiqamət Xocalı, Qaradağlı, Meşəli, Bağanis-Ayrum faciəst, ikinci istiqamət əsir düşmüş, girov götürülmüş şəxslərə işgəncələr verilməsi, üçüncü istiqamət isə erməni işğalçılarının törətdikləri terror hadisələri ilə bağlıdır. Erməni işğalçılarının cinayət əməlləri Cinayət Məcəlləsinin soyqırımına görə məsuliyyət nəzərdə tutan 103-cü və digər maddələri ilə tövsif edilib, iş üzrə 206 təqsirləndirlən şəxs barəsində İnterpol vasitəsilə beynəlxalq axtarış elan edilib. Verilən məlumatlara görə Xocalı soyqırımı ilə bağlı 31, Qaradağlı faciəsi ilə bağlı 17, Bağanis-Ayrum faciəsi üzrə 18, işgəncə faktları ilə bağlı 29, terrorla bağlı 2 nəfər təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərardad çıxarılıb («Gündəlik Azərbaycan», 03 fevral 2007-ci il).

«Böyük Ermənistan» ideyasının əsas carçılarından biri olan Z.Balayanın Xocalı soyqırımında birbaşa iştirakını təsdiqləyən faktlar artıq mövcuddur.

APA-nın 2007-ci il fevral məlumatına görə İnterpol xətti ilə haqqında beynəlxalq axtarış elan olunan ***Z.Balayan 1996-cı ildə nəşr olunan «Ruhumuzun canlanması» adlı əsərində*** Xocalı soyqırımına haqq qazandırıb və bu şəhərdə azərbaycanlılara qarşı soyqırım həyata keçirdiyini fəxrlə etiraf edib (28). ***«Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlanmışdılar. Türk uşağı***

***çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu.*** Daha sonra bu 13 yaşındakı türkə onların atalarının bizim uşaqlara etdiklərini etdim. Saata baxdım, türk uşağı yeddi dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. İlk sənətim həkimlik olduğuna görə humanist idim, ***buna görə də türk uşağına etdiyim bu əməllərə görə özümü xoşbəxt sayıram. Amma ruhum xalqımın bir faizinin belə qisasını aldığı üçün sevincdən qürurlanırdı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha üç türk uşağına etdik. Mən bir erməni vətənsevəni kimi öz vəzifəmi yerinə yetirdim.*** Xaçatur da çox tərləmişdi, amma mən onun və digər əsgərlərimizin gözlərində intiqam və güclü humanizmin mücadiləsini gördüm. Ertəsi gün bir kilsəyə gedərək 1915-ci ildə ölənlərimiz və ruhumuzun dünən gördüyümüz çirkabdan təmizlənməsi üçün dua etdik. Ancaq biz Xocalını vətənimizin bir parçasını işğal edən 30 min nəfərlik çirkabdan təmizləməyi bacardıq» (Yenə orada). APA-nın məlumatında o da göstərilir ki, Xocalıda ermənilərin soyqırımı gerçəkləşdirdiyini, insanlığa qarşı cinayət işlətdiklərini təsdiqləyən bu fikirlər Zori Balayanın 1996-cı ildə dərc olunmuş «Ruhumuzun canlanması» adlı kitabının 260-262-ci səhifəsində öz əksini tapıb.

Rusiyada fəaliyyət göstərən «Memorial» təşkilatı 1992-ci ildə qəbul etdiyi bəyanatlarda Xocalı hadisəsini soyqırım kimi xarakterizə etmişdi. Maraqlıdır ki, bütün fəaliyyəti boyu Azərbaycana qarşı olan Şahnazyan «Xocalı işi» adlı yazısının sonunda qeyd edir ki, «bu faciənin genosidi xatırlamasına heç bir şübhə yoxdur» («Gündəlik Azərbaycan», 27.02.2007-ci il).






























































































































XOCALI
QATİLLƏRİ
MƏHKƏMƏYƏ!

# IV. XOCALI SOYQIRIMI HAQQINDA SƏNƏD VƏ MATERİALLAR

## "XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNƏ SÜKUT DƏQİQƏSİ ELAN EDİLMƏSİ HAQQINDA"

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1992-ci il fevral ayının 26-da Ermənistan silahlı qüvvələri Azərbaycan xalqına qarşı misli görünməmiş Xocalı soyqırımını törətmişlər. Bu kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycan dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində qara ləkə kimi qalacaqdır.

Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədilə **qərara alıram:**

Hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 fevral 1997-ci il





## "XOCALININ MÜDAFİƏSİNDƏ FƏRQLƏNMİŞ ŞƏXSLƏRİN TƏLTİF EDİLMƏSİ HAQQINDA"

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında erməni qəsbkarlarına qarşı mübarizədə, Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində xüsusilə fərqlənərək şücaət və mərdlik göstərdiklərinə, Vətən qarşısındakı borclarını şərəflə yerinə yetirdiklərinə görə aşağıdakılara "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin.*

Mövsüm Şahin oğlu Məmmədov
Şuşa polis şöbəsinin əməkdaşı.

Ələsgər Xanlar oğlu Novruzov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Füzuli Salah oğlu Rüstəmov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Araz Bahadur oğlu Səlimov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

* Əlif Lətif oğlu Hacıyev, Tofiq Mirsiyab oğlu Hüseynov və İnqilab Ələkbər oğlu İsmayılov da Xocalı soyqırımı zamanı erməni qəsbkarlarına qarşı döyüşdə göstərdikləri şücaət və mərdliyə görə ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşlər.

II. Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında, torpaqlarımızın erməni təcavüzündən müdafiəsində, Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində fərqləndiklərinə görə aşağıdakılar **"Azərbaycan Bayrağı" ordeni** ilə təltif edilsinlər:

Bəxtiyar Qulu oğlu Aslanov Xocalı sakini.

Firdovsi Fazil oğlu Vəliyev
hərbi qulluqçu (ölümündən sonra)

Taleh Zəkara oğlu Quliyev
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

İbrahim Nəriman oğlu Əzizov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.

Firidun İsa oğlu Əliyev
Xocalı polis bölməsinin əməkdaşı.

Xəzani Kərəm oğlu Əsgərov
Şuşa polis şöbəsinin əməkdaşı (ölümündən sonra).

Elman Camal oğlu Məmmədov
Xocalı rayon İcra Hakimiyyətinin başçısı

Elburus Azad oğlu Məmmədov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.

Xosrof Bilal oğlu Məmmədov
Ağdam özünümüdafiə dəstəsinin döyüşçüsü.

Sərvər Məhəmməd oğlu Rəcəbov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.





Xəqani Siyavuş oğlu Səlimov
Xocalı polis bölməsinin əməkdaşı.

Elxan Nəsib oğlu Səfiyev
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Əliyar Kamran oğlu Usubov
Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Rövşən Qaçay oğlu Həsənov
Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Mürşüd Səməd oğlu Hüseynov
Xocalı sakini (ölümündən sonra).

III. Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında, erməni işğalçılarına qarşı mübarizədə Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində igidlik göstərərək vətəndaşlıq borclarını vicdanla yerinə yetirdiklərinə görə aşağıdakılar **"İgidliyə görə" medalı** ilə təltif edilsinlər:

Taleh Umudvar oğlu Abbasov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Mahir Tanrıverdi oğlu Abdullayev
Kosalar özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Elşad Qiyas oğlu Abışov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Habil Mövsüm oğlu Abışov
Xocalı sakini (ölümündən sonra).

Rasim Mirsalam oğlu Ağayev
Kosalar polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Ziyadxan Salah oğlu Allahverdiyev
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

İlham Baxşeyiş oğlu Allahverdiyev
Xocalı sakini (ölümündən sonra).

Etibar Baloğlan oğlu Allahyarov
Xocalı sakini (ölümündən sonra).

Bəhmən Yaqub oğlu Bağırov
Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Namiq Məhəmməd oğlu Bilalov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Əli İmran oğlu Vəliyev
Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra).

İlham Süleyman oğlu Qarayev
Xocalı hava limanında xətt polis bölməsinin əməkdaşı.

Yaşar Qaytaran oğlu Qasımov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

İslam İdris oğlu Quliyev
Xocalı sakini (ölümündən sonra).

Natiq Vəliyəddin oğlu Quliyev
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).





Zöhrə Lətif qızı Quliyeva
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Yelmar İsgəndər oğlu Əbdülov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Arif xanlar oğlu Əliyev
Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Eldar Kəriş oğlu Əliyev
Xocalı sakini (ölümündən sonra).

Əbülfət Əli oğlu Əliyev
Xocalı hava limanında xətt polis bölməsinin əməkdaşı (ölümündən sonra).

İlham Bahadur oğlu Əliyev
Xocalı sakini (ölümündən sonra).

Sərxan İslam oğlu Əliyev
Xocalı polis bölməsinin əməkdaşı.

Namiq Şahmalı oğlu Əliməmmədov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü

Faiq Şahmalı oğlu Əliməmmədov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Eldar Aslan oğlu Zeynalov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Malik Ağayar oğlu İmani
Xocalı sakini (ölümündən sonra).

Ziyəddin Savalan oğlu İsgəndərov
Ağdam polis şöbəsinin əməkdaşı (ölümündən sonra).

Bəhram Mətləb oğlu İsmayılov
Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Firuz Samran oğlu Kərimov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Murad Şəfa oğlu Mehdiyev
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Fikrət Buruzlu oğlu Mehdiyev
Kosalar özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Əli Mürsəl oğlu Mehrəliyev
Xocalı sakini (ölümündən sonra).

Sadıq Oqtay oğlu Mədətov
Xocalı polis bölməsinin əməkdaşı.

Razmik Suren oğlu Məmmədov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Rasif Salman oğlu Məmmədov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Sərvər Yelmar oğlu Məmmədov
Kosalar özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Murad Cəmil oğlu Məhərrəmov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.





Şahid Lətif oğlu Muradov
Xocalı polis bölməsinin əməkdaşı.

Natiq İsmayıl oğlu Nağıyev
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.

Ramiz Kamal oğlu Nəsirov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.

Felmar Şahmar oğlu Rzayev
Xocalı sakini.

Eldar Əmir oğlu Rüstəmov
Xocalı sakini (ölümündən sonra).

Zakir Kamran oğlu Usubov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Zahir Əbilqasım oğlu Usubov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.

Canan Binnət oğlu Fərzəliyev
Xocalı hava limanında xətt polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Davud Məşdi oğlu Haqverdiyev
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Yaşar Hacı oğlu Hacıyev
Xocalı polis bölməsinin əməkdaşı.

Rza Lətif oğlu Hacıyev
Xocalı hava limanında xətt polis bölməsinin əməkdaşı.

Bəhmən Salman oğlu Hənifəyev
Xocalı sakini (ölümündən sonra).

Mehdi Ramil oğlu Həsənov
Xocalı sakini (ölümündən sonra).

Yamən Kazım oğlu Həsənov
Xocalı özünümüdafiə dəstəsinin döyüşlüsü.

Şöhrət Usub oğlu Həsənov
Xocalı sakini (ölümündən sonra).

Hətəm Qurban oğlu Hümbətov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Çingiz Usub oğlu Hüseynov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Vaqif Rəsul oğlu Şükürov
Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Murad Əliş oğlu Şükürov
Xocalı sakini.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 fevral 1997-ci il.





## XOCALI SOYQIRIMININ ONUNCU İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜRACİƏTİ

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Bu gün mən xalqımızın tarixində kədərli və faciəli bir səhifə olan Xocalı soyqırımı münasibətilə sizə müraciət edirəm. Bu qəddar və amansız soyqırımı aktı insanlığın tarixinə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi daxil olmuşdur.

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist –millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir. Bir sıra dövlətlərin hakim dairələri tərəfindən himayə olunan bu mənfur siyasət Çar Rusiyası və Sovet hakimiyyəti dövründə ardıcıl davam etdirilmiş, SSRİ-nin süqutundan sonra xalqımızın doğma torpaqlarından qovulması, qaçqın və köçkünə çevrilməsi kütləvi qırğınlarla müşayiət olunmuşdur. Təcavüzkar erməni millətçilərinin və sərsəm "Böyük Ermənistan" ideoloqlarının etnik təmizləmə və soyqırımı siyasətinin nəticələrini bütövlükdə iki milyon azərbaycanlı müxtəlif vaxtlarda öz üzərində hiss etmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra erməni separatçılarının Dağlıq Qarabağda başladıqları təcavüzkar siyasət yüzlərlə kənd və qəsəbənin dağılması, on minlərlə günahsız insanın qanının axıdılması, yüz minlərlə insanın öz evindən, elindən didərgin salınması ilə nəticələnmişdir. Lakin Xocalı faciəsi bunların ən dəhşətlisi olmuşdur. Bütün bu qanlı hadisələrin qarşısının alınmama-

sında, o cümlədən Xocalı faciəsinin baş verməsində, şəhərin təpədən dırnağa qədər silahlanmış amansız düşmənlə üz-üzə müdafiəsiz qalmasında erməni qəsbkarları ilə bərabər, Azərbaycanın o zamankı rəhbərliyi, habelə hakimiyyət uğrunda hər cür yolverilməz vasitələrlə mübarizə aparan müxalifət qüvvələri də birbaşa məsuliyyət daşıyırlar. Əslində, o zaman respublikaya rəhbərlik edən şəxslər şəhərin müdafiəçilərinə təcili kömək göstərmək, faciə barədə dünya ictimaiyyətinə geniş məlumat vermək, beynəlxalq aləmə həyəcan təbili çalmaq əvəzinə, Xocalı dəhşətlərinin həqiqi miqyasını xalqdan gizlətməyə cəhd etmiş, tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmişlər. Hətta sonralar da Xocalı faciəsinin mahiyyətini açmaq, onun günahkarlarını ifşa etmək, dünya ictimai fikrinə çatdırmaq üçün heç bir iş görülməmiş, əksinə, bu faciə hakimiyyətlə müxalifətin qarşılıqlı ittihamları və siyasi mübarizəsi vasitəsinə çevrilmişdir.

Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu az olan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları uzağa gedən məqsəd güdürdülər. Məqsəd Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Lakin mənfur düşmən öz niyyətlərinə çata bilmədi. Doğrudur, faciə bütün Azərbaycan xalqını sarsıtmış, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vurmuşdur. Lakin xocalılar hətta amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlamaması üçün mühüm şərtdir.

Hazırda Azərbaycan dövləti, vətəndaşlarımız, xaricdəki soydaşlarımız tərəfindən Xocalı faciəsi haqqında həqiqətlərin dünyaya çatdırılması, onun əsl soyqırımı aktı kimi tanıdılması istiqamətində mühüm addımlar atılır, kitablar yazılır, jurnalist tədqiqatları aparılır. Ayrı-ayrı ölkələrin parlamentlərində, beynəlxalq təşkilatlarda bu faciə müzakirəyə çıxarılır, dünya ictimaiyyətinin diqqəti bu məsələyə cəlb edilir.

Bu kədərli onuncu ildönümü günündə Xocalı şəhidlərinin əziz xatirəsini bir daha dərin hüznlə yad edir, onlara Allahdan rəhmət diləyir, həlak olanların yaxınlarını, doğmalarını, bütün Azərbaycan xalqını bir daha əmin edirəm ki, haqq-ədalət yerini tapacaq, Xocalı şəhidlərinin və qəhrəmanlarının uğrunda mübarizə apardığı ideallar – azad və müstəqil Azərbaycan Respublikası daim yaşayacaqdır.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

25 fevral 2002-ci il

Əlavə 2

## XOCALI SOYQIRIMI ZAMANI ŞƏHİD OLANLAR*

| | | |
|---|---|---|
| 1 | Abbasov Vahid Muxtar oğlu | 1972 |
| 2 | Abbasov Salah İsmayıl oğlu | 1909 |
| 3 | Abbasov Taleh Umudvar oğlu | 1961 |
| 4 | Abbasov Knyaz Əliqulu oğlu | 1963 |
| 5 | Abbasov Mütəllib Əli oğlu | 1972 |
| 6 | Abbasova Əntiqə Heydər qızı | 1935 |
| 7 | Abışov Etibar Mövsüm oğlu | 1965 |
| 8 | Abışov Əli Əbdül oğlu | 1918 |
| 9 | Abışova Məruzə Məhəmməd oğlu | 1930 |
| 10 | Abdinov Samir Əmir oğlu | 1973 |
| 11 | Abdullayev Yusif Qoca oğlu | 1932 |
| 12 | Abdullayev İlham Bayram oğlu | 1973 |
| 13 | Abdullayev Yalçın Müzəffər oğlu | 1970 |
| 14 | Abdullayev Mahir Şahmar oğlu | 1971 |
| 15 | Abdullayev Rafiq İngilis oğlu | 1969 |
| 16 | Abdullayev Sərvan Şahmar oğlu | 1979 |
| 17 | Abdullayev Ələddin Salman oğlu | 1952 |
| 18 | Abdullayeva Maya Sərhad qızı | 1986 |
| 19 | Ağayev Zahid Səttar oğlu | 1963 |
| 20 | Ağayev Allahverdi Səttar oğlu | 1982 |
| 21 | Azadov İlham Əyyub oğlu | 1962 |
| 22 | Allahverdiyeva Teybə Nəbi qızı | 1933 |
| 23 | Allahverdiyeva Validə Astan qızı | 1963 |
| 24 | Allahverdiyeva İradə Astan qızı | 1965 |
| 25 | Allahverdiyev Hidayət Bəhram oğlu | 1936 |

* Siyahı Xocalı rayon icra hakimiyyətindən götürülmüşdür.





| | | |
|---|---|---|
| 26 | Allahverdiyev Bəhram Hidayət o. | 1976 |
| 27 | Allahverdiyev Bəhram Mumuş oğlu | 1975 |
| 28 | Allahverdiyev Zabil Əkbər oğlu | 1967 |
| 29 | Allahverdiyeva Kifayət Hüseynalı q. | 1942 |
| 30 | Ağayarova Züleyxa Yunis qızı | 1965 |
| 31 | Aslanova Gülsabah Qəyyum qızı | 1972 |
| 32 | Allahyarova Qəmzə Qaraş qızı | 1940 |
| 33 | Allahyarova Şəfiqə Zeynal qızı | 1969 |
| 34 | Allahyarov Etibar Baloğlan oğlu | 1968 |
| 35 | Aslanov Qulu Bəhram oğlu | 1927 |
| 36 | Aslanov İqbal Qulu oğlu | 1970 |
| 37 | Allahverdiyev Salah İmamqulu o. | 1967 |
| 38 | Abbasova Suqra Əliş qızı | 1918 |
| 39 | Abbasova Həmayıl Canış qızı | 1917 |
| 40 | Abbasov Vəlyəddin Umudvar o. | 1940 |
| 41 | Abbasov Vəlyəddin Umudvar o. | 1963 |
| 42 | Allahverdiyev Novruz Salah oğlu | 1947 |
| 43 | Allahverdiyev Mahir Novruz oğlu | 1974 |
| 44 | Ağayarov Nəbi İsak oğlu | 1981 |
| 45 | Ağayarov Roman İsak oğlu | 1986 |
| 46 | Abışova Mədinə Bədirxan qızı | 1908 |
| 47 | Aslanova Elnarə Tofiq qızı | 1978 |
| 48 | Aslanov Qəzənfər Qurban oğlu | 1937 |
| 49 | Aslanov Xəqani Kazım oğlu | 1955 |
| 50 | Allahverdiyev Ziyadxan Saleh o. | 1957 |
| 51 | Abışova Məhbubə Qurban qızı | 1960 |
| 52 | Abışova Çinarə Nazim qızı | 1982 |
| 53 | Abışova Minarə Rəhim qızı | 1910 |
| 54 | Abışov Mobil Mövsüm oğlu | 1968 |
| 55 | Abışov Səadət Niyaz qızı | 1967 |
| 56 | Abışov Habil Mövsüm oğlu | 1966 |
| 57 | Abışova Məryəm Məşədi qızı | 1932 |

| | | |
|---|---|---|
| 58 | Abışov Çingiz Nazim oğlu | 1985 |
| 59 | Abışova Gülzar Gülalı qızı | 1964 |
| 60 | Allahverdiyev Mumuş Bəhram o. | 1923 |
| 61 | Abışov Eyvaz Talıb oğlu | 1950 |
| 62 | Allahverdiyev İlham Baxşeyiş oğlu | 1963 |
| 63 | Abdullayev a Maya Saleh qızı | 1908 |
| 64 | Abbasov Eyvaz Kamran oğlu | 1983 |
| 65 | Abbasov Elxan Kamran oğlu | 1970 |
| 66 | Atakişiyev Fərhad Rəhman oğlu | 1970 |
| 67 | Atakişiyev Eldəniz Qaçay oğlu | 1959 |
| 68 | Ağayev Rasim Mirsalah oğlu | 1967 |
| 69 | Ağayev Adil Akif oğlu | 1969 |
| 70 | Ağayev Elçin Vaqif oğlu | 1965 |
| 71 | Ağayev Elşən Şükür oğlu | 1965 |
| 72 | Ağayev Mübariz Ərşad otlu | 1970 |
| 73 | Ağayev Saleh Quba oğlu | 1956 |
| 74 | Ağayarova Sevinc İsa qızı | 1985 |
| 75 | Ağayev Rövşən Məmməd oğlu | 1966 |
| 76 | Ağalarova Güllü Surxay qızı | 1934 |
| 77 | Ağalarov Sadiq Şirxan oğlu | 1932 |
| 78 | Ağayev Vidadi Şəmsəddin oğlu | 1960 |
| 79 | Abdullayev Samir Əmir oğlu | 1973 |
| 80 | Abdullayev Mahir Tanrıverdi o. | 1971 |
| 81 | Allahverdiyev Vidadi Mürsəl oğlu | 1977 |
| 82 | Alıyev Möhü Məhəmməd oğlu | 1928 |
| 83 | Alışov Kazım Şura oğlu | 1960 |
| 84 | Alışanov Əliqulu Tohid oğlu | 1972 |
| 85 | Bilalov Namiq Məhəmməd oğlu | 1961 |
| 86 | Butko Dmitriy Nikolayeviç | 1930 |
| 87 | Behbudova Sürəyya İbrahim qızı | 1930 |
| 88 | Behbudova Gülnaz Yusif qızı | 1962 |





| | | |
|---|---|---|
| 89 | Behbudova Gülbahar Yusif qızı | 1968 |
| 90 | Bağırova Zəhra Sarı qızı | 1930 |
| 91 | Bağırova Nailə Həsən qızı | 1956 |
| 92 | Bağırov Bəhmən Yaqub oğlu | 1966 |
| 93 | Bağırov Elşən Həsən oğlu | 1965 |
| 94 | Bədişov Əli Rəis oğlu | 1968 |
| 95 | Bəşirov Fəxrəddin Çərkəz oğlu | 1966 |
| 96 | Bəşirov Ceyhun Bəşir oğlu | 1967 |
| 97 | Bəxtiyarov Kamil Murtuza oğlu | 1973 |
| 98 | Babayev Ramiz Şəfa oğlu | 1970 |
| 99 | Babayeva Fənar Fərman qızı | 1943 |
| 100 | Babayev Telman Alı oğlu | 1949 |
| 101 | Bayramov Zahid Tapdıq oğlu | 1965 |
| 102 | Bayramov Rövşən Zahid oğlu | 1969 |
| 103 | Bayramov Məzahir Oruc oğlu | 1963 |
| 104 | Bayramov Tahir Rafiq oğlu | 1973 |
| 105 | Bayramov Habil Nağı oğlu | 1968 |
| 106 | Bəhmənova Dilarə Məhərrəm qızı | 1950 |
| 107 | Bəhmənov Akif Vaqif oğlu | 1974 |
| 108 | Bəbirov Tofiq Niftalı oğlu | 1966 |
| 109 | Babayev Qədir Əsgər oğlu | 1935 |
| 110 | Babayev Bəbir Əsgər oğu | 1942 |
| 111 | Babayeva Qəribə Muxtar qızı | 1938 |
| 123 | Babayev Bəkir Bəbir oğlu | 1965 |
| 113 | Bayramov Cəllad Səməd oğlu | 1948 |
| 114 | Behbudov Vaqif Yusif oğlu | 1963 |
| 115 | Behbudov Abbas Behbud oğlu | 1973 |
| 116 | Behbudov Adil Behbud oğlu | 1956 |
| 117 | Binəliyev Əlili Gülalı oğlu | 1967 |
| 118 | Binəliyev Cabbar Gülalı oğlu | 1969 |
| 119 | Bidzinov Zeynali Məmməd oğlu | 1926 |
| 120 | Bidzinov Maqsud Alı oğlu | 1928 |

| | | |
|---|---|---|
| 121 | Binnətov Rövşən Cəlil oğlu | 1975 |
| 122 | Bəylərov Bəylər Novruz oğlu | 1954 |
| 123 | Cabbarov Azad Pirqulu oğlu | 1968 |
| 124 | Camalov Natiq Yunis oğlu | 1957 |
| 125 | Cəbrəyılova Səmayə Sarı qızı | 1950 |
| 126 | Cəbrayılov Mikayıl Əli oğlu | |
| 127 | Cəbrayılov Cəbrayıl Nuşirəvan | 1959 |
| 128 | Cavadov Əli Müsül oğlu | 1953 |
| 129 | Cəfərova Xəzəngül Əli qızı | 1951 |
| 130 | Cəfərov Müseyib Səfiyar oğlu | 1995 |
| 131 | Cəfərov Nüsrət Fazil oğlu | 1975 |
| 132 | Cəfərova Rəfiqə İman qızı | 1937 |
| 133 | Cəfərov Samir Tacir oğlu | 1987 |
| 134 | Cəfərov Məhəmməd Vəlikişi oğlu | 1895 |
| 135 | Cəfərov Soltan Boran oğlu | 1961 |
| 136 | Cəfərov Adil Əli oğlu | 1961 |
| 137 | Cəfərov Səfər İsgəndər oğlu | 1969 |
| 138 | Cəfərov Firəddin Lənkəran oğlu | 1971 |
| 139 | Cəfərov Fuad Fərman oğlu | 1966 |
| 140 | Cəfərova Bağdad Hətəm qızı | 1910 |
| 141 | Cavadov Vaqif Əliş oğlu | 1966 |
| 142 | Cabbarov Xıdır Sədrəddin oğlu | 1969 |
| 143 | Cavadov Əhməd Əmir oğlu | 1973 |
| 144 | Çobanov Tapdıq Xədicə oğlu | 1949 |
| 145 | Çabonova Nəzakət Tapdıq qızı | 1984 |
| 146 | Dadaşov Mübariz Dadaş oğlu | 1968 |
| 147 | Dünyamalıyev Adil Xanəli oğlu | 1966 |
| 148 | Dünyamalıyev Zamin Əsgər oğlu | 1951 |
| 149 | Dünyamalıyev İsmayıl Dünyamalı o. | 1953 |
| 150 | Dünyamalıyev Sabir Xanəli oğlu | 1956 |
| 151 | Eyvazov Hidayət Əli oğlu | 1964 |





| | | |
|---|---|---|
| 152 | Edilov Elşən Baxşəli oğlu | 1964 |
| 153 | Əbdülov Məzahir Yaqub oğlu | 1960 |
| 154 | Əbdülov Zahid Yelmar oğlu | 1973 |
| 155 | Əbdürrəhmanov Famil Sabir oğlu | 1967 |
| 156 | Əbilov Məzahir Yaqub oğlu | 1969 |
| 157 | Əbdülov Yelmar İsgəndər oğlu | 1949 |
| 158 | Əbdülov Savalan Qaraş oğlu | 1937 |
| 159 | Əzizov Əzim Məşədi oğlu | 1911 |
| 160 | Əzizova Zərifə Ələkbər qızı | 1953 |
| 161 | Əzizov Hüseyn Nəriman oğlu | 1956 |
| 162 | Əzizov Mehman Qüdrət oğlu | 1959 |
| 163 | Əzimov Akif Seydulla oğlu | 1961 |
| 164 | Əzimov Natiq Abbasqulu oğlu | 1986 |
| 165 | Əzimov Həsənbala Şahmar oğlu | 1935 |
| 166 | Əzimova Pərvanə Hüseyn qızı | 1947 |
| 167 | Əzimova Dilarə Seydulla qızı | 1956 |
| 168 | Əliyev Əyyub Sarı oğlu | 1928 |
| 169 | Əliyev Ələkbər Əlehsan oğlu | 1915 |
| 170 | Əliyeva Sürəyya Bayram qızı | 1934 |
| 171 | Əliyev Eldar Kəriş oğlu | 1963 |
| 172 | Əliyev İslam Əbdüləli oğlu | 1933 |
| 173 | Əliyeva Səhər Çərkəz qızı | 1932 |
| 174 | Əliyev Arif Xanlar oğlu | 1970 |
| 175 | Əliyev Zəfər Düşgər oğlu | 1969 |
| 176 | Əliyev Kamil Hidayət oğlu | 1967 |
| 177 | Əliyev Nasir Şahmar oğlu | 1971 |
| 178 | Əliyev Natiq Teymur oğlu | 1973 |
| 179 | Əliyev Rəhman Zakir oğlu | 1970 |
| 180 | Əliyev Sadiq İsa oğlu | 1967 |
| 181 | Əliyev Fikrət Abdulla oğlu | 1953 |
| 182 | Əliyev Habil Misir oğlu | 1975 |

| | | |
|---|---|---|
| 183 | Əliyev Habil Əkbər oğlu | 1970 |
| 184 | Əliyev Əli Hümbət oğlu | 1954 |
| 185 | Əliyev Hümbət Fərrux oğlu | 1967 |
| 186 | Əliyeva Arzu | |
| 187 | Əliyev Əbülfət Əli oğlu | 1963 |
| 188 | Əliyev Təvəkgül Baxış oğlyu | 1955 |
| 189 | Əliyev Bakir Şiraslan oğlu | 1973 |
| 190 | Əliyeva Dilarə Oruc qızı | 1939 |
| 191 | Əliyev Elgiz Firdovsi oğlu | 1984 |
| 192 | Əliyev Firdovsi İsa oğlu | 1956 |
| 193 | Əliyeva Heyran Mürşüd qızı | 1962 |
| 194 | Əliyev Elçin Firdovsi oğlu | 1982 |
| 195 | Əliyev Ağəli Nayib oğlu | 1932 |
| 196 | Əliyeva Sürəyya Behbud qızı | 1931 |
| 197 | Əliyev Çiçək Ələkbər qızı | 1978 |
| 198 | Əliyev Səbuhi Cahangir oğlu | 1985 |
| 199 | Əliyev Səlim Cahangir oğlu | 1985 |
| 200 | Əliyeva Xavər Yusif qızı | 1957 |
| 201 | Əliyeva Svetlana Cavanşir qızı | 1957 |
| 202 | Ələkbərova Zeynəb Cümşüd qızı | 1923 |
| 203 | Ələkbərov Təvəkgül Ələkbər oğlu | 1956 |
| 204 | Ələkbərov Səxavət Təvəkkül oğlu | 1981 |
| 205 | Ələsgərov Vahid Rəşid oğlu | 1962 |
| 206 | Əliməmmədov Namiq Şahmalı o. | 1962 |
| 207 | Əliməmmədov Faiq Şahmalı oğlu | 1969 |
| 208 | Əmirova Raya Qabil qızı | 1959 |
| 209 | Əmirova Yeganə Təvəkgül qızı | 1957 |
| 210 | Əhmədov Yelmar Nayıb oğlu | 1986 |
| 211 | Əliyev Vasif Əliabbas oğlu | 1969 |
| 212 | Əliyev Vüqar Mirələm oğlu | 1973 |
| 213 | Əhmədova Durna Salman qızı | 1922 |
| 214 | Əhmədov Rəfail Nayib oğlu | 1948 |





| | | |
|---|---|---|
| 215 | Əhmədov Eldar Nayib oğlu | 1945 |
| 216 | Əhmədova Sərvinaz Muxtar qızı | 1900 |
| 217 | Əhmədzadə Şahin Əyyub oğlu | 1957 |
| 218 | Əhmədov İbrahim Səfər oğlu | 1958 |
| 219 | Əhmədov Natiq İlyas oğlu | 1968 |
| 220 | Əhmədov Natiq Kəriş oğlu | 1967 |
| 221 | Əhmədov Həsən Hümbət oğlu | 1948 |
| 222 | Əhmədov Vaqif İslam oğlu | 1957 |
| 223 | Əhmədova Zibeydə Bədəl qızı | 1928 |
| 224 | Ələkbərov Əsgər Qurban oğlu | 1930 |
| 225 | Əliyev Elşən Səhlədar oğlu | 1973 |
| 226 | Əliyev Ənvər Zeynal oğlu | 1959 |
| 227 | Əliyeva Yeganə Məhərrəm qızı | 1960 |
| 228 | Əsgərov Eldar Nizami oğlu | 1986 |
| 229 | Əsgərov Nizami | 1960 |
| 230 | Əliyev Mikayıl Atababa oğlu | 1957 |
| 231 | Əzizov Fikrət Abbas oğlu | 1965 |
| 232 | Əliyev Ülfət İman oğlu | 1974 |
| 233 | Əliyev İlham Bahadur oğlu | 1966 |
| 234 | Ələsgərov Məzahir Məhərrəm oğlu | 1969 |
| 235 | Əliyev Ayaz Elman oğlu | 1970 |
| 236 | Əsgərov Xəzani Kərəm oğlu | 1962 |
| 237 | Əsədov Yalçın Asif oğlu | 1957 |
| 238 | Əliyev Nadir Qaçay oğlu | 1967 |
| 239 | Fərzəliyev Canan Binnət oğlu | 1962 |
| 240 | Fərzəliyev Qədim Fərzəli oğlu | 1933 |
| 241 | Göyüşov Qurban Ramazan oğlu | 1974 |
| 242 | Göyüşov Tanrıverdi Ənvər oğlu | |
| 243 | Fərmanov Mübariz İsrəfil oğlu | |
| 244 | Haqverdiyev Həvva Zeynalabdin q. | 1927 |
| 245 | Haqverdiyev Davud Məşədi oğlu | 1951 |

| | | |
|---|---|---|
| 246 | Haqverdiyev Marif Yaqub oğlu | 1969 |
| 247 | Haqverdiyev Şahin Məşdi oğlu | 1962 |
| 248 | Hacıyev Əlif Lətif oğlu | 1953 |
| 249 | Hacıyev Süleyman Lətif oğlu | 1949 |
| 250 | Hacıyev Tahir Hacı oğlu | 1957 |
| 251 | Hacıyev Alim Əjdər oğlu | |
| 252 | Həmdiyeva Mehriban Rəcəb qızı | 1954 |
| 253 | Həmidova Kifayət Çıraq qızı | 1955 |
| 254 | Həmzəyev Abdulla Köşəli oğlu | 1965 |
| 255 | Həmzəyev Bəşir Rüstəm oğlu | 1974 |
| 256 | Hənifəyev Bəhmən Salman oğlu | 1957 |
| 257 | Həsənov Rövşən Qaçay oğlu | 1958 |
| 258 | Həsənova Günəş Əbdül qızı | 1910 |
| 259 | Həsənova Məxmər Ələkbər qızı | 1942 |
| 260 | Həsənov Elgün Nazim oğlu | 1988 |
| 261 | Həsənova Aygün Nazim qızı | 1991 |
| 262 | Həsənova Göyçək Heydər qızı | 1933 |
| 263 | Həsənova Lətafət Həsən qızı | 1976 |
| 264 | Həsənov İmran Ələkbər oğlu | 1940 |
| 265 | Həsənova Gülçöhrə Yaqub qızı | 1968 |
| 266 | Həsənov Ramil İbrahim oğlu | 1947 |
| 267 | Həsənov Mehdi Ramil oğlu | 1973 |
| 268 | Həsənov Həsən İbrahim oğlu | 1933 |
| 269 | Həsənov Əli Mürsəl oğlu | 1936 |
| 270 | Həsənov Şöhrət Usub oğlu | 1944 |
| 271 | Həsənov Tabil Qasım oğlu | 1960 |
| 272 | Həmənova Şövkət Şikar qızı | 1951 |
| 273 | Həsənova Tofiqə Həsən qızı | 1955 |
| 274 | Həsənova Fitat Əhəd qızı | 1940 |
| 275 | Həsənova Qətibə Mirsiyab qızı | 1952 |
| 276 | Həşimov Səlim Kərim oğlu | 1963 |
| 277 | Hümbətova Firuzə Musa qızı | 1934 |





| | | |
|---|---|---|
| 278 | Hümbətova Simuzər Cəlil qızı | 1976 |
| 279 | Hümbətova Südabə Rəşid qızı | 1969 |
| 280 | Hümbətov Muğan Cəlil oğlu | 1973 |
| 281 | Hümbətov Hətəm Qurban oğlu | 1960 |
| 282 | Hümbətov Talış İsgəndər oğlu | 1931 |
| 283 | Hümbətova Anahid Eldar qızı | 1979 |
| 284 | Hüseynova Rəsmiyyə Aleksandr q. | 1968 |
| 285 | Hüseynov Emin Aleksandr oğlu | 1975 |
| 286 | Hüseynova Məxmər Qurban qızı | 1949 |
| 287 | Hüseynov Çingiz Usub oğlu | 1955 |
| 288 | Hüseynov Yaşar | |
| 289 | Hüseynov Bakir Mirsiyab oğlu | 1956 |
| 290 | Hüseynov Mirsiyab Həzrətqulu o. | 1922 |
| 291 | Hüseynova Minəş Cümşüd qızı | 1934 |
| 292 | Hüseynov Tofiq Mirsiyab oğlu | 1954 |
| 293 | Hüseynova Süsən Hüseyn qızı | 1971 |
| 294 | Hüseynov Tacir Hüseyn oğlu | 1973 |
| 295 | Hüseynova Nəsibə Hüseyn qızı | 1982 |
| 296 | Hüseynova Növrəstə Fərmayıl qızı | 1922 |
| 297 | Hüseynov Hüseyn İsmayıl oğlu | 1934 |
| 298 | Hüseynov Əziz Alış oğlu | 1956 |
| 299 | Hüseynova Xoşbəxt Hüseyn qızı | 1963 |
| 300 | Hüseynov Mürşüd Səməd oğlu | 1934 |
| 301 | Hüseynov Allahverdi Qulu oğlu | 1967 |
| 302 | Hüseynov Hüseyn Fərəc oğlu | 1936 |
| 303 | Hüseynova Zinyət Yunis qızı | 1940 |
| 304 | Hüseynov Rəşid Hüseyn oğlu | 1962 |
| 305 | Hüseynova Maral Kamil qızı | 1985 |
| 306 | Hüseynova Sara Səfər qızı | 1964 |
| 307 | Hüseynova Səadət Qədim qızı | 1974 |
| 308 | Hüseynov Vüqar Hilal oğlu | 1971 |
| 309 | Hüseynova Mehriban Allahverdi q. | 1965 |

| | | |
|---|---|---|
| 310 | Hüseynov Rəcəb Elxan oğlu | 1984 |
| 311 | Hüseynov Məhsər Elxan oğlu | 1991 |
| 312 | Hüseynova Şəbnəm Elxan qızı | 1986 |
| 313 | Hüseynova Sevil Əyyub qızı | 1961 |
| 314 | Həşimova Şövkət Şükür qızı | 1943 |
| 315 | Hümbətova Sevil Cəlil qızı | 1967 |
| 316 | Hüseynova Nəsibə Hüseyn qızı | 1969 |
| 317 | Hüseynov Zöhrab Hüseyn oğlu | 1971 |
| 318 | Həsənova Xəyalə Eldar qızı | 1987 |
| 319 | Həsənov Tacir Eldar oğlu | 1990 |
| 320 | Hüseynova Nərgiz Cəbrayıl qızı | 1963 |
| 321 | Hüseynov Şakir Mustafa oğlu | 1956 |
| 322 | Hüseynova Ətrabə Cəbrayıl qızı | 1932 |
| 323 | Həsənov Tofiq Bəylər oğlu | 1970 |
| 324 | Həsənov Vahid Möhsün oğlu | 1958 |
| 325 | Həsənov Telman Yelmar oğlu | 1939 |
| 326 | Hüseynov Hüseyn Şükür oğlu | 1956 |
| 327 | Həsənov Pərviz Varaşil oğlu | 1976 |
| 328 | Hüseynova Qızbəs Mərdan qızı | 1934 |
| 329 | Həsənov Elşad Qaçay oğlu | 1949 |
| 330 | Həsənov Ramiz Allahverdi oğlu | 1971 |
| 331 | Həsənov Qabil Qasım oğlu | 1960 |
| 332 | Hümbətov Bəhlul Müseyib oğlu | 1937 |
| 333 | Xəlilov Arzu Xəlil oğlu | 1977 |
| 334 | Xəlilov Araz Xəlil oğlu | 1984 |
| 335 | Xəlilov Tahir Qaçay oğlu | 1962 |
| 336 | Xudiyev Zahid Bəhlul oğlu | 1965 |
| 337 | Xəlilova Zərifə Zəkara qızı | 1964 |
| 338 | Xəlilova Lalə Tahir qızı | 1988 |
| 339 | Xəlilov Qaçay Rəhim oğlu | 1943 |
| 340 | Xudayarova Sürəyya Alış qızı | 1916 |
| 341 | İsfəndiyarov Eldar Hümbət oğlu | 1972 |





| | | |
|---|---|---|
| 342 | İlyasov Əhməd Məmməd oğlu | 1968 |
| 343 | İlyasov Məhəmməd İlyas oğlu | 1940 |
| 344 | İsmayılov İnqilab Ələkbər oğlu | 1962 |
| 345 | İsmayılov İbiş Kərim oğlu | 1938 |
| 346 | İsmayılova Mənzər Məşədi qızı | 1908 |
| 347 | İsmayılov Vidadi Lətif oğlu | 1951 |
| 348 | İbrahimov Əlixan Xəlil oğlu | 1955 |
| 349 | İbrahimova Fatma Məşədi qızı | 1959 |
| 350 | İmani Ağayar Salman oğlu | 1929 |
| 351 | İmani Malik Ağayar oğlu | 1950 |
| 352 | İsmayılov İsmayıl Lətif oğlu | 1957 |
| 353 | İmani Ağababa | 1910 |
| 354 | İsmayılov Bəhram Mətləb oğlu | 1967 |
| 355 | İsmayılov Elyas Bayram oğlu | 1938 |
| 356 | İsmayılova Şövkət Oruc qızı | 1940 |
| 357 | İbadullayev Nadir Nəbi oğlu | 1967 |
366-cı polkun sıravi qulluqçusu, rabitəçi Afik İsabeliyevin məlumatına görə isə, o, fevralın 24-də (1992)

kapitan İ.Lixodeyin komandasında topçu dəstəsində vuruşub və Xocalının işğalında iştirak edib.

- Siz necə vuruşurdunuz? – sualına belə cavab verib:

Biz həm də qorxurduq. Ölümdən qorxurduq. Əlimizə keçənləri məhv edirdik. Bəzən küləkdən tərpənən ağaclar, xışıldayan yarpaqlar da bizi qorxuya salırdı... ***mən bilmirəm Azərbaycan xalqı məni bağışlayarmı?... Anam azərbaycanlılara qarşı ermənilərlə əlbir olub vuruşduğum üçün, məndən imtina edib...*** Artıq evə gedə bilmirəm, hamı məndən üz döndərib. Amma məni məcbur etdilər. Əmr verdilər. Biz isə əmrə tabe idik... Məni artıq heç kəs bağışlamır...("Bir erməni məzarı" – müəllif: Əbdül Fateh. "Beyrut" nəşri. 1994-cü il).

A.İsabeliyev bunu da deyir ki, ermənilər ruslara məxsus hərbi texnikanı satın almışdılar..

Fevral ayının 25-dən 26-na keçən gecə Xocalı yandırıldı, işğal edildi. Qoşun isə sakitləşmək bilmirdi. Polkovnik V.Savelyev "məxfi arayış"ında qeyd edir: "Üçüncü batalyon Xocalı işğal olunan gecə, müharibə zonasından çıxarıldı, amma oranı tərk etmədi. 366-cı polk isə ərazidən çıxarılmadı. Ordu tərksilah olundu. Zabitlər satqınlıq etdilər. ***Silahlara gəlincə, işlənməmiş silahları ermənilər üçün ayırdılar. Qərara alındı ki, ermənilərdən bunun müqabilində pul və zinət şeyləri alınsın.*** "Böyük Ermənitan"adlı bədnam və rüsvayçı plan uğrunda vuruşanlara gəlincə, bu hələlik açıq qalmış məsələdir".

1992-ci il mart ayının 19-da (müsəlman təqvimində bu gün Növruz günü, bahar bayramı idi) Xocalıda öldürülmüş azərbaycanlılar üçün kiçik bir qəbirstanlıq salındı. Orada 54 nəfər öldürülmüş günahsız azərbaycanlı dəfn edildi. Ermənilərin Fransa Diasporunda telekanal müəllifi Surik Şaqenyan bu mənzərəni elə həmin günün axşamı İranın, Türkiyənin, Moskvanın, Yerevanın, Vaşinqtonun, Londonun, Parisin, Bonnun telekanallarına çıxartdı. Ermənilərin öldürülmüş azərbaycanlıların meyitlərinə etdikləri hörmət və ehtiramdan...(?), təşkil olunmuş dəfn mərasimindən danışdı. Bakıda isə hələ heç kəs hadisələrin, Xocalıda baş vermiş faciənin səbəblərini araşdıra bilmirdilər. Yaradılmış deputat komissiyasından tutmuş, müxalifət partiyalarınadək hamı iflic vəziyyətində idi, hakimiyyət çat vermişdi. Təhlükəsizlik orqanları öz informasiya mənbələrinin - əsas güclərinin düşüncə və ağıllarını itirmişdi. Təhlükəsizlik sisteminin bir qrupu müxalifətlə necə deyərlər "əhd-peyman" bağlamışdılar. A.Mütəllibov hakimiyyəti cəmiyyətdə və dövlətdə siyasi gücünü artıq itirmişdi. O, öz ehtiraslarının, komandasındakı fitnəfəsadın qurbanı olmuşdu.

Həmin ərəfədə rus kəşfiyyatçısı V.Savelyev Azərbaycan hakimiyyətini təsvir edib yazırdı: "...Xocalı işğalından sonra A.Mütəllibov hakimiyyəti öz yaşamaq hüququnu itirdi... Nazirlər isə Baş Nazirin ətrafında dövlət daxilində dövlət yaratmışdılar..."

Polkovnik V.Savelyev daha sonra yazırdı: "... Polkun çıxarılmasıda ***hərbi sursatların ermənilərə verilməsində bilavasitə iştirak edənlərə baxın:***

- ***General – polkovnik Qromov***
- ***General – leytenant Qrekov***
- ***General – leytenant Ohanyan***
- ***A.Andranov – deputat***
- ***Polkovnik Y.Zarviqarov (sonra general oldu)***
- ***Polkovnik O.Kraule***

Dördüncü ordu 23-cü motoatıcı diviziya nümayəndələrinin Xocalı əməliyyatında iştirak etmələri üçün şə-

rait yaratdı. 2 ci motoatıcı diviziyanın komandan müavini A.Babukov və K.Yermolayev isə erməni yaraqlılarına verilmiş hərbi texnikanın geri qaytarılmasını tələb edirdi. Onları isə kim idi eşidən?!"

RF hərbi əks kəşfiyyatının rəisi işləmiş, polkovnik V.Savelyev məsələləri şərh edərək qeyd edir: "...1992-ci il fevral ayının 23-dən hərbi şəhərcik "Qrad" qurğularından atəşə tutulduqdan sonra polkovnik Y.Zarviqarov polkun daimi dislokasiya məntəqəsindən ehtiyat bölgəyə keçirilməsi haqqında qərar verib. Qərar isə erməni silahlı dəstələrinin heç bir müqaviməti olmadan həyata keçirilib. Dislokasiya yerinin dəyişdirilməsi heç də zərurətdən irəli gəlməyib. Bu zaman bir sıra bölmələrin döyüş texnikaları çıxarılmayıb. Həmin günlərdə ***Xankəndi şəhərinə gələn general-leytenant İ.Ohanyan (mayor Ohanyanla qarışdırmamalı)" təkid edib ki, artilleriya diviziyası, zenit artilleriya diviziyası, tank rotası, texnikası saxlanılsın. Nəticədə ermənilər heç bir maneə ilə rastlaşmadan 23 ədəd "PDM", 3 ədəd ZSU -23-4,8 ədəd D-30 və xeyli digər döyüş texnikası ələ keçirdilər".***

***Həmin gün*** ermənilərin özünümüdafiə dəstəsi adı ilə vuruşan, əslində ***"Asala" terror təşkilatının Xankəndində yaradılmış özəyinin başçısı kimi tanınan İllarion Allahverdiyan 24 nəfər rus zabitinə və əsgərinə pul mükafatlarını elan etdi.*** Məsələn, dəstənin önünə çıxarılmış rus zabiti Yevgeni Qolubevə üstündə "Asala" yazılmış 25 qramlıq qızıldan tökülmüş orden və beş min ABŞ dollarını təntənəli surətdə təqdim etdi. Və yaxud həmin gün sıravi Anastas S.İvanova 10 min dollar təqdim etməklə İrəvanda onu gözləyən "Hunday" markalı avtomobilin sənədlərini verdi...

Nəticədə erməni silahlı dəstələrilə rus zabitləri arasında şəxsi bağlaşmalar, "Döyüş müqavilələri"də imzalandı.





Yadınıza salım ki, bütün bunlar, yəni ermənilərlə ruslar arasında olan bu hərbi bağlaşmaların bir qismi şifahi sərəncamlarla edilirdi. ***Bunun üçün hər sərəncamın, general sözünün öz qiyməti var idi. Məsələn, Xankəndi şəhərindəki 463-cü Əlahiddə Kimyəvi-mühafizə Batalyonu və 909-cu Əlahiddə Kəşfiyyat Batalyonunun döyüş planları ilə bağlı, ermənilər tərəfindən vuruşması barədəki əmrin qiyməti 18 min dollar idi.***

Polkovnik V.Savelyev "Məxfi arayışı"nda bütün bunlara toxunaraq yazır: "...Birinci batalyon ehtiyat bölgəyə keçirilən zaman polkovnik İvan Moiseyev texnikanı və şəxsi heyəti dağlar arasındakı "Çapar" dərəsində saxlayıb, gözləmə mövqeyi tutub. Sonra onun batalyonu Çixani yaşayış məntəqəsinə daxil olub. Ermənilərin mühasirəsinə düşüb. Nəticədə batalyon könüllü sürətdə öz döyüş texnikasını ermənilər üçün qoyub. İvan Moiseyev və şəxsi heyətə pul təklif edilərək birlikdə vuruşmağa çağırılıblar..."

Qeyd edim ki, Xocalının ətraf yaşayış məntəqələrini də dağıdan, külünü göyə sovuran elə İvan Moiseyevin batalyonu olub. Və bu batalyon da ermənilər arasında "İvanın vəhşi batalyonu" kimi tanınıb.

Araşdırmalarımıza görə, ***366-cı alaydakı hərbi texnika və silahların 85 faizi ermənilərin əlinə keçib. Üstəlik, Fransadan göndərilən 142 ədəd avtomat, 7 min 600 ədəd güllə, 460 ədəd zirehli jilet, 11 ton konservləşdirilmiş yemək, min iki yüz cüt ayaqqabı (altı ölçüdə), 146 ədəd tapança...ermənilərin istifadəsinə verildi.*** Amerikada istehsal olunmuş 149 ədəd ratsiya da ermənilərə paylandı.

Fransa senatı isə Xocalı ilə bağlı heç bir məlumatın olmamasından gileyləndi və bütün günahları Azərbaycanın Fransadakı diplomatik korpusunda gördü.

*Və bu ilin fevral ayının 14-də bu da məlum oldu ki, Fransada "Xocalı faciəsini"ermənilərin faciəsi kimi təbliğ edib tanıdıblar.* Bizim səfarətxanaya gəlincə, onları sadəcə geri çağırıb ittiham etməkdən başqa...ayrı heç nə qalmırdı. Digər tərəfdən erməni diplomatı O.Ter-Qriqoryanın 1992-ci ilin aprel ayında İrəvanın Teatr meydanındakı çıxışında deyirdi: "...Erməni təbliğatı Bakının diplomatik mərkəzlərində artıq özünə istənilən mövqeyi tutub..."(?) Bunun isə ətrafında düşünmək lazım idi.

Diplomat çıxışının bir yerində isə xatırladır ki, ermənilərlə rusların dostluğunun sınmayan sütunları var. Ter-Qriqoryan deyir: "...Hələ 300 il bundan qabaq ermənilər I Pyotrdan xahiş etdilər ki, yadelli işğalçılara qarşı vuruşanda onlardan da istifadə etsinlər... Əgər Moskvada (təkcə şəhərin özündə) 1959-cu ildə 18,4 min nəfər erməni var idisə, indi bu rəqəm 47 min nəfərdir...RF-nin xaricdəki diplomatik korpuslarında çalışanların sayı 142 nəfərdir. Onların 59 nəfəri jurnalist kimi fəaliyyət göstərir..."

Sıravi əsgər Qriqori Voroşilovun məlumatına görə, Xocalı ilə bağlı ermənilərin ruslarla əlaqələrinə dair sənədlərin bir qismi 1992-ci il mart ayının 1-də Zaqafqaziya Hərbi Dairəsinin aviasiya komandanı general -mayor S.Lukaşovun əmrilə yandırıldı. Polkovnik V. Savelyev isə "Məxfi arayışın"da bütün bunlara toxunaraq xatırladır: "...Ermənilər ruslara məxsus "02-19-MM" nömrəli "Kamaz"la ərazidəki azərbaycanlı meyitləri yığıb Xocalıda tonqal qurdular...İnsanın insana olan nifrəti burada həddini aşmışdı. Kim yaratmışdı bunu, dərk edə bilmirdim... mən sizə ermənilərə qoşularaq əsir alınmış azərbaycanlıları sıraya düzərək tək-tək məhv edən və bundan həzz alan rütbə sahiblərini tanıtmaq istəyirəm:





**Polkovnik B.Baymukov –arxa cəbhə üzrə polk komandirinin müavini.**

**Polkovnik İ.V.Moiseyev – birinci batalyonun komandiri.**

**Mayor S.İ.Ohanyan - ikinci batalyonun komandiri.**

**Mayor E.A.Nabokix – üçüncü batalyonun komandiri.**

**Mayor V.İ.Citçiyan - birinci batalyonun qərargah rəisi.**

**Mayor V.Q.Hayriyan – polkun kəşfiyyat rəisi.**

**Baş leytenant O.V.Mirzaxayzarov – rota komandiri.**

**Baş leytenant S.V.Xrinxua – kəşfiyyat bölməsinin rəisi.**

**Baş leytenant V.N.Qarmaş – tank rotası komandiri.**

**Baş leytenant H.T.Hakopyan – rota komandiri.**

**Baş leytenant V.İ.Valilovski - rota komandiri.**

**Baş leytenant A.B.Lısenko – bölmə komandiri.**

**Baş leytenant V.A.Azarov – batereya komandiri.**

**Baş leytenant İ.S.Abraimov – tank əleyhinə batareya komandiri.**

**Leytenant O.V.Balezni – üçüncü tank rotasının komandiri.**

**Leytenant A.V.Smakin – tank bölməsinin komandiri.**

**Leytenant S.İ.Raçkovski – mühəndis –istehkam rotası komandiri.**

**Leytenant V.İ.Bondaryev – kəşfiyyat rəisinin müavini.**

**Leytenant A.İ.Kulov – radio kimyəvi bölməsinin rəisi.**

**(eləcə də 41 nəfər milliyyətcə erməni olan kiçik rütbəli şəxslər)"**

***1992-ci il fevral ayının 24-də saat 21.15 dəqiqədə general rütbəsi almış Y.Zaviqarov zabitlər önündə belə bir çıxış edir ki, regiondakı müharibə torpaq müharibəsi yox, islamın xristianlığa qarşı müharibəsidir. O, çıxışında göstərirdi: "...Dünyanın islam ölkələrinin nümayəndələri, hərbi müşavirlər Bakıya (?) yığışıblar ki, bizim xaçı necə sındırıb, əzsinlər... Xristianlığa qarşı yürüş var. Bu yürüşdə ya dinimizi, şərəfimizi qorumalıyıq, ya da şərəfsizliyi qəbul edib tabe olmalıyıq".***

Bakıda isə Ali Baş Komandan A.Mütəllibov cənabları tərəfindən vəzifələr bölünür, səriştəsiz kadrların sərəncamları verilirdi. Kadrlar isə hər şey demək idi. Əslində polkovnik V.Savelyevin – vicdanlı rus kəşfiyyatçısının "Məxfi arayışı" səriştəli, haqsızlıqla barışmayan bir zabitin ən böyük etirafıdır. ***Bu etirafların, misli olmayan bu tarixi sənədlərin Birləşmiş Millətlər Təşkilatına, Avropa Şurasına göndərilməsini təmin etməliyik. Bu isə vacib bir iş olaraq qalır.***

**Rövşən Novruzoğlu**

"Respublika" qəzeti, 25 fevral 2001-ci il





## XOCALI FACİƏSİ BEYNƏLXALQ CİNAYƏT OLARAQ ERMƏNİSTANIN AZƏRBAYCAN XALQINA QARŞI APARDIĞI MƏQSƏDYÖNLÜ SOYQIRIM SİYASƏTİNİN TƏRKİB HİSSƏSİDİR

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə Azərbaycan xalqına qarşı ən dəhşətli cinayətlərdən biri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində tarixdə insanlığa qarşı törədilən görünməmiş vəhşiliklərdən biridir. Bir gecənin içində yüzlərlə günahsız insan xüsusi qəddarlıqla məhv edilib. Xocalı şəhərinin işğalının faciəli nəticələri bunlardır: 613 nəfər, o cümlədən 106 nəfər qadın və 63 uşaq qətlə yetirilib, 487 nəfər şikəst olub, 1275 adam erməni əsirliyinin dəhşətlərindən keçib, 150 nəfər itkin düşüb, şəhərin özü isə yerlə-yeksan edilib. Bu faciənin nəticəsində onlarca uşaq, qadın və qoca güllələnib. Ermənistanın silahlı qüvvələri və muzdlular bütöv ailələri məhv edib, insanları amansızcasına qətlə yetirmişlər: adamların dərisi soyulub, qulaqları kəsilib və başlarının dərisi soyulub çıxarılmışdır.

## I. XOCALI SOYQIRIMININ BEYNƏLXALQ CİNAYƏT KİMİ SƏCİYYƏSİ

Soyqırımın hüquqi məzmunu BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur və hər hansı milli, etnik, irqi, yaxud dini

qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlərdən ibarətdir:

- bu cür qrup üzvlərinin öldürülməsi;
- belə bir qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi;
- hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;
- bu cür qrupda doğumun qarşısını almağa yönəldilmiş tədbirlərin görülməsi;
- uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.

Soyqırım cinayəti üçün xüsusi niyyətin olması zəruri ünsür sayılır. Bu soyqırım cinayətini obyektiv cəhətinə görə oxşar beynəlxalq cinayətlərdən fərqləndirir. Soyqırım cinayətini təşkil edən əməllərdən hər biri öz xarakterinə görə şüurlu, bilərəkdən və ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Burada cinayətkarların fikrinin xüsusi istiqamətini və ya əməlin neqativ nəticələri ilə bağlı əvvəlcədən mövcud olan konkret niyyəti ortaya çıxarmaq tələb olunur.

Qabaqcadan xüsusi olaraq düzəldilmiş pusqulardan qaçıb canını qurtarmaq istəyən azərbaycanlı mülki əhalinin avtomat, pulemiyot və başqa silahlardan gülləbaran edilməsi məhz soyqırım niyyətini sübut edir.

Həmin cinayətin azərbaycanlı milli qrupuna qarşı yönəlməsi də danılmaz faktdır.

Soyqırım cinayətini təhlil edərkən onun üç əsas ünsürünün mövcud olması aydınlaşır:

- tanınan milli, etnik, irqi və ya dini qrupun olması;
- bu cür qrupu tamamilə və ya qismən məhv etmək niyyətinin olması (mens rea);





- tanınan qrupla bağlı soyqırım hərəkətlərindən hər hansı birinin törədilməsi (actus reus).

Deməli, soyqırım aktı hökmən milli, etnik, irqi və ya dini qrupa qarşı yönəldilməlidir. Başqa qrupa, məsələn, siyasi və ya sosial qrupa qarşı yönələn bu cür hərəkətlər soyqırım kimi qiymətləndirilə bilməz.

Soyqırım anlayışı qadağan olunmuş əməlin ümumi nəticələrinə dair konkret niyyətin olmasını tələb edir. Soyqırım cinayətinin tövsifedici əlaməti kimi niyyət özündə bir neçə cəhəti birləşdirir:

- niyyət, təsadüfi, bu və ya digər konkret qrupa məxsus olan bir, yaxud bir neçə şəxsin deyil, qrupun məhv edilməsindən ibarət olmalıdır. Fərqin şəxsiyyəti yox, məhz müəyyən qrupa mənsubluğu soyqırımın qurbanlarını təyin etmək üçün həlledici meyardır;
- niyyət özü-özlüyündə, başqasından fərqlənən bir qrupun məhv edilməsindən ibarət olmalıdır. Soyqırım bütöv insan qrupunun mövcudluğu hüququnu tanımaqdan imtinadır. Adamöldürmə (hemosid) isə ayrı-ayrı insan varlıqlarının yaşamaq hüququnun tanımaqdan imtina kimi səciyyələnir. Deməli, actuz reus (qadağan olunmuş əməl) bir adamla məhdudlaşa bilər, lakin mens rea (niyyət) qrupun mövcudluğu əleyhinə yönəlməlidir;
- niyyət, qrupun "tamamilə və ya qismən" məhv edilməsindən ibarət olmalıdır.
- niyyət məhz, milli, etnik, irqi və ya dini qruplardan birinin məhv edilməsindən ibarət olmalıdır.

Soyqırım cinayətinə görə məsuliyyətin ortaya çıxması üçün müəyyən qrupun tamamilə və ya qismən məhv edilməsindən ibarət son nəticənin əldə olunması tələb kimi qoyulmur. Bunun üçün həmin cinayətin obyektiv cəhətini edən əməllərdən hər hansı birinin müəy-

yən qrupun tamamilə və ya qismən məhv edilməsi niyyət ilə törədilməsi kifayətdir.

Soyqırım cinayətinin obyektiv cəhətinə aid olan məhvetmə anlayışı qrupun ən müxtəlif vasitələrlə cismən məhv olunmasını bildirir.

"Barselona Traktion" işi üzrə qərarında BMT-nin Beynəlxalq Məhkəməsi soyqırım aktlarının qadağan olunması ilə bağlı öhdəlikləri erqa omnes öhdəliklər adlandırmışdır. Beynəlxalq Məhkəmə soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın əsasında duran prinsipləri beynəlxalq adət hüququnun bir hissəsi, bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanımışdır.

## II. XOCALI SOYQIRIMININ BEYNƏLXALQ CİNAYƏT KİMİ TANINMASI ÜÇÜN ƏSAS VERƏN HÜQUQİ SƏNƏDLƏR

BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırım Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiya.

Nürnberq Hərbi Tribunalının Nizamnaməsi (Nizamnamədə birbaşa soyqırım cinayəti göstərilməsə də, həmin cinayəti təşkil edən əməllər insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri kimi nəzərdə tutulmuşdur).

Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (mad.4.)

Ruanda Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (mad.1.)

Beynəlxalq Cinayət Məhkəməsinin Statusu (mad.6.)





Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (mad.103.)

Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı.

## III. XOCALI SOYQIRIMININ BEYNƏLXALQ HÜQUQİ NƏTİCƏLƏRİ

Beynəlxalq hüquq soyqırım cinayəti ilə əlaqədar aşağıdakıları müəyyənləşdirmişdir:

Soyqırım cinayəti törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür.

Soyqırım cinayətinin təkcə icraçıları deyil, soyqırım törətməyə sui-qəsd, soyqırıma birbaşa və açıq təhrikçilik, soyqırımda iştirak etmək də cinayət məsuliyyəti doğurur.

Soyqırım cinayəti törətmiş şəxslərə universal yurisdiksiya prinsipi tətbiq olunmalıdır.

Soyqırım cinayətini törətməkdə əmrin icrasına istinad, şəxsi cinayət məsuliyyətindən azad etmir.

Soyqırım cinayətinin törədilməsinin qarşısının alınması üçün tədbir görməyə görə rəhbər şəxs məsuliyyət daşıyır.

Soyqırım cinayətlərinə cinayət məsuliyyətinə cəlbetmə müddətləri tətbiq edilmir.

Soyqırım cinayətinə görə qanunun retrorktiv tətbiqinə yol verilir.

Soyqırım cinayətini törətmiş şəxslər cinayət məsuliyyətinə cəlb edilməsi üçün tələb edən dövlətə verilməlidir.

Beləliklə, ermənilər tərəfindən Xocalı əhalisi olan

etnik azərbaycanlılara qarşı törədilmiş bütün əməllər beynəlxalq hüquq sənədlərinə uyğun olaraq soyqırım kimi qiymətləndirilir və beynəlxalq hüquq prinsiplərinə görə bəşəriyyətə qarşı cinayət sayılır.

## IV. XOCALI FACİƏSİNİN BEYNƏLXALQ CİNAYƏT OLARAQ ERMƏNİSTANIN AZƏRBAYCAN XALQINA QARŞI APARDIĞI MƏQSƏDYÖNLÜ SOYQIRIM SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ OLMASI FAKTININ DÜNYA İCTİMAİYYƏTİNƏ ÇATDIRILMASI

Azərbaycan MEA İnsan Hüquqları İnstitutunun Ekspert şurasının 19 fevral 2002-ci il tarixli iclasında qəbul edilmiş "Xocalı faciəsi beynəlxalq cinayət olaraq Ermənistanın Azərbaycan xalqına qarşı apardığı məqsədyönlü soyqırım siyasətinin tərkib hissəsidir" adlı bu sənəd Azərbaycan Respublikası Milli Məclisinə, habelə Türkiyə, Gürcüstan, Rusiya və digər dövlətlərin parlamentlərinə, BMT İnsan Hüquqları Ali Komissarlığı, Avropa Şurası Parlament Assambleyası, Avropa Şurası İnsan Hüquqları Baş Direktorluğu, ATƏT-in Parlament Assambleyası və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu kimi beynəlxalq təşkilatlara, o cümlədən milli və beynəlxalq qeyri-hökumət insan hüquqları müdafiəsi təşkilatlarına, Azərbaycan diasporunu təmsil edən mərkəz və birliklərə göndəriləcəkdir.

**Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun analitik informasiya mərkəzi**





**Əlavə 1**

## QARADAĞLI KƏNDİNDƏ ÖLDÜRÜLƏNLƏR HAQQINDA

Xocavənd (keçmiş Martuni) rayonunun Qaradağlı kəndinin sahəsi (evlərin tutuduğu sahə) 40 hektar, əkin sahəsi isə15.min hektar olmuşdur. Kənd dağətəyi zonada yerləşdiyindən əhalinin bir qismi meyvə-tərəvəzçilik, daha çox hissəsi isə maldarlıqla məşğul olurdu. Kənddə 350 nəfər şagirdin təhsil aldığı bir orta məktəb,kənd sovetinin inzibati binası,2 mağaza,bir kənd həkim ambulatoriyası, iki idman zalı, bir kinoklub, 200 yaşayış evi var idi.

Çox mühüm strateji əhəmiyyətə malik olduğu üçün həmişə ermənilərin təzyiqinə məruz qalırdı. Silah –sursat cəhətdən ermənilərdən xeyli zəif olmasına baxmayaraq kənd camaatı 4 il (1988-1992, 17 fevral) düşmənlərlə qəhrəmancasına mübarizə aparmışdır.

Sonradan yaradılmış Xocavənd rayonu ümumilikdə 130 şəhid verib. Bunlardan 77 nəfəri təkcə Qaradağlı kəndinin payına düşür.

## 1990-1991-CI İLDƏ HƏLAK OLANLAR

1991-ci ili iyunun 28-də Qaradağlı kəndinin 5 km-də yerləşən Vərəndəli sahəsindəki ferma ermənilər tərəfindən yandırıldı.Orada işləyən və ermənilərə qarşı cəsarətlə vuruşan 6 nəfər də qətlə yetirilib yandırılmışdı.

Bunlar aşağıdakılardır:

1. Axundova Məxmər Məcid qızı (1938-1991)
2. Şirinov İltifat Əjdər oğlu (1962-1991)
3. Şirinova Qaragöz Həbil qızı (1936-1991)
4. Hüseynova Səbiqə Mürsəl qızı (1936-1991)

5. Tağıyev Bakir Həbil oğlu(1948-1991)
6. Məmmədov Tohid Cəmil oğlu (1936-1991)

1991-ci il sentyabrın 8-də Ağdamdan Qaradağlıya geri qayıdan avtobus Martuninin 3 km-də güllə-borana məruz qaldı.Nəticədə 7 nəfər həlak oldu:

Bunlar aşağıdakılardır:

1. Quliyev Əloğlan Əlaslan oğlu (1973-1991)
2. Hüseynova Rahilə Şahmar qızı (1948-1991)
3. Babayeva Validə Həmid qızı (1952-1991)
4. Quliyeva Nazənin Rəşid qızı (1955-1991)
5. Hüseynova Qənifə Həmid qızı (1939-1991)
6. Hüseynova Gülzəndə Bakir qızı (1960-1991)
7. Hüseynova Rəşxəndə Bayram qızı (1902-1991)
8. Quliyev Gündüz Əlqəmə oğlu (1969-1991)

## BAŞQA VAXTLARDA QƏTLƏ YETİRİLƏNLƏR:

1. Hüseynov Xandəmir Bəbir oğlu (1932-1991)
2. Bayramov Sultan Rəşid oğlu (1958-1991)
3. Hüseynov Zülfüqar Dəmir oğlu (1951-1991)
4. Quliyev Ələkbər Məmməd oğlu (1946-1991)
5. Əliyev Qasım Hüseyn oğlu (1910-1991)

## 1992-ci İL FEVRAL AYININ 15-16-17-DƏ GEDƏN DÖYÜŞLƏRDƏ, YAXUD, HƏMİN DÖYÜŞDƏ ƏSİR ALINARAQ ERMƏNİLƏR TƏRƏFİNDƏN ÖLDÜRÜLƏNLƏR:

1. Axundov Hafiz Elşad oğlu (1943-1992)
2. Bayramov Elmidar Rəşid oğlu (1961-1992)
3. Bayramov Arif İbrahim oğlu (1940-1992)
4. Bayramov Rəşid Həşim oğlu (1927-1992)
5. Vəliyev Mobil Mürsəl oğlu (1952-1992)
6. Vəliyev Fazil Cavad oğlu (1957-1992)





7. Quliyev Nəbi Mütəllim oğlu (1972-1992)
8. Quliyev Mirzəli Müslət oğlu (1952-1992)
9. Quliyev Ələstan Nəriman oğlu (1944-1992)
10. Quliyev Kamal Bəylər oğlu (1928-1992)
11. Dadaşov Eldar İsa oğlu (1939-1992)
12. Dadaşov Uğur Eldar oğlu (1977-1992)
13. Dadaşov Mikayıl İslam oğlu (1973-1992)
14. Dadaşov Manaf İslam oğlu (1973-1992)
15. Zeynalov Nobil Əliş oğlu (1955-1992)
16. Əliyev Zahid Zeynal oğlu (1955-1992)
17. Əliyev Vətən Əmirxan oğlu (1972-1992)
18. Əzizov Alov Əfqar oğlu (1967-1992)
19. Əzizov Atəş Əfqar oğlu (1971-1992)
20. Dolxanov Rəhim Məhkəmə oğlu (1972-1992)
21. Tağıyev Kamil Sərdar oğlu (1973-1992)
22. Əliyev Xaliq Məhərrəm oğlu (1977-1992)
23. Məmmədov Ədalət Şahmar oğlu (1958-1992 )
24. Məmmədov Məmməd Əmirxan oğlu (1950-1992)
25. Məmmədov Ərəstun Ağalar oğlu (1970-1992)
26. Mustafayev Talıb Yaqub oğlu (1973-1992)
27. Nağıyev Aftandil Xanlar oğlu (1977-1992)
28. Rəhimov Məhi Surxay oğlu (1922-1992)
29. Rüstəmov Zivər Alıhüseyn oğlu (1918-1992)
30. Tağıyev Zakir Gülüm oğlu (1963-1992)
31. Xəlilov Zahid Əyyub oğlu (1949-1992)
32. Tağıyen Faiq Həsrət oğlu (1961-1992)
33. Tağıyev Telman Tevon oğlu (1953-1992)
34. Həsənov Məmməd Məhəmməd oğlu (1970-1992)
35. Hüseynov Fehruz Mahmud oğlu (1952-1992)
36. Hüseynov Həbib Həmzə oğlu (1938-1992)
37. Hüseynov İbiş Həbib oğlu (1977-1992)

38. Hüseynov Niftalı Bakir oğlu (1978-1992)
39. Hüseynov Dəmir Musa oğlu (1920-1992)
40. Hüseynov Fədail Zülfüqar oğlu (1975-1992)
41. Hüseynov Nahid Adil oğlu (1971-1992)
42. Hüseynov Şahmurad Alıhüseyn (1978-1992)
43. Hüseynov İmran Əsəd oğlu (1937-1992)
44. Hüseynov Əbülfət Mehman oğlu (1977-1992)
45. Hüseynov Şura Hüseynalı oğlu (1956-1992)
46. Şirinov Böyükkişi Lələ oğlu (1931-1992)
47. Hüseynov Əsgər Səməd oğlu (1922-1992)
48. Nəzərov Şura İbad oğlu (1928-1992)





## XOCALININ İŞĞALI ƏRƏFƏSİNDƏ AZƏRBAYCAN KƏNDLƏRİNİN ZƏBT OLUNMA XRONOLOGİYASI

| | |
|---|---|
| 30.10.91 | Tuğ, Səlakətin kəndləri |
| 12.11.91 | Ahullu kəndi |
| 19.11.91 | Xocavənd kəndi |
| 15.12.91 | Cəmilli kəndi – əhalisi 600 nəfər, şəhid -15 nəfər |
| 21.12.91 | Nəbilər kəndi |
| 23.12.91 | Meşəli kəndi – əhalisi – 350 nəfər, şəhid -29 nəfər |
| 25.12.91 | Həsənabad kəndi |
| 28.12.91 | Kərkicahan qəsəbəsi – əhalisi -1800 nəfər, şəhid-33 nəfər |
| 21.02.92 | Qaybalı kəndi, Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndləri - əhalsi 2241 nəfər – şəhid 15 nəfər |
| 15-17.02.92 | Qaradağlı kəndi –əhalisi 1200 nəfər, şəhid - 77 nəfər |

**Azərbaycanın işğal olunmuş əraziləri.**
**Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti***

| | | |
|---|---|---|
| Ərazi | - | 4388 km$^2$ |
| Əhali | - | 189 085 |
| Ermənilər | - | 145 450 (76,9%) |
| Azərbaycanlılar | - | 40688 (21,5%) |
| Ruslar | - | 1922 (1%) |
| Digərləri | - | 1025 (0,6%) |

* Rəqəmlər H.Əliyev adına fondun «Qarabağ reallıqları» seriyasından nəşr etdiyi «Xocalı soyqırımı». Bakı, 2006 broşürasından götürülmüşdür.

***Şuşa rayonu***

Ərazi - 289 km²
Əhali - 20579
Azərbaycanlılar - 19036 (92,5%)
Ermənilər - 1377 (6,7%)
İşğal olunma tarixi - 8 may 1992-ci il

-12 yanvar 1989-ci il - SSRİ Ali Soveti Rəyasət Heyəti «Azərbaycan SSR-nin Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik forması haqqında» qərar verir.

Məqsəd: Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək. Ancaq xalqımızın apardığı mübarizə nəticəsində bu qərar 1989-cu il noyabrın 12-də ləğv edildi.

01 dekabr 1989-cu il - Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi.





***Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən kənarda işğal edilmiş rayonlar:***

| *İşğal olunduğu tarix* | *Ərazisi (kv..km)* | *sərhəd uzunluğu* | *Köçkün düşənlər* |
|---|---|---|---|
| Laçın - 18 may 1992-ci il | -1835 | -303 | -71.000 |
| Kəlbəcər -2 aprel 1993-cü il | -3054 | 228 | - 74.000 |
| Ağdam- 23 iyul 1993-cü il | -1154 | -198 | - 165.000 |
| Füzuli - 23 avqust 1993-cü il | -1386 | -180 | - 146.000 |
| Cəbrayıl- 23 avqust 1993-cü il | -1051 | -193 | - 66.000 |
| Qubadlı- 31 avqust 1993-cü il | -802 | -171 | - 37.000 |
| Zəngilan- 29 oktyabr 1993-cü il | -707 | -188 | - 39.000 |

***İşğalın qurbanları***

Şəhid olanlar - 20.000-dən artıq
Yaralanan və şikəst edilənlər - 50.000-dən artıq
İtkin düşənlər - 4866

Qaçqın və məcburi köçkünlərin sayı-1 milyondan artıq. Münaqişə zonasında 4965 nəfərədək adam əsir düşmüşdür, bunlardan 69 nəfəri uşaq, 320 nəfəri qadın, 358 nəfəri isə qocalardır.

***Dağıntı və vurulan ziyan:***

Yaşayış məntəqələri - 890
Evlər - 150.000
İctimai binalar - 7.000

| | |
|---|---|
| Məktəblər | -693 |
| Uşaq bağçaları | - 855 |
| Səhiyyə müəssisələri | -695 |
| Kitabxanalar | - 927 |
| Məbədlər | - 44 |
| Məscid | - 9 |
| Tarixi yerlər | - 9 |
| Muzey və tarixi abidələr | - 464 |
| Muzey eksponatları | - 40.000 |
| Sənaye və kənd təsərrüfatı müəssisələri | - 6000 |
| Avtomobil yolları | - 800 km |
| Körpülər: | - 160 |
| Su kəmərləri | - 2300 km |
| Qaz kəmərləri | - 2000 km |
| Elektrik xətləri | - 15000 km |
| Meşə | - 280.000 ha |
| Əkin yerləri | - 1.000.00 ha |
| Suvarma sistemləri | - 1200 km |

Beləliklə, Azərbaycanın 14 min kv$^2$ ərazisi, 558 km sərhədləri, civə, obsidiyan, perilit ehtiyatlarının hamısı, tikinti və üzlük materiallarının 35-60 faizi, mineral su ehtiyatlarının 40 faizi, meşə fondunun 23,8 faizi, 2 qoruq və yasaq, 3 iri su anbarı, 7,8 faiz su ehtiyatları və s. Ermənistanın işğalı altındadır və bu ərazilərdən ətrafa ekoloji təhlükə yayılır (Bax: Həsənov T. Azərbaycan ərazilərinin Erəmənistan tərəfindən işğalının ağır sosial-iqtisadi nəticələri. Bakı, 2002, səh.33)

***İşğal nəticəsində dəyən ümumi ziyan 60 milyard ABŞ dolları.***





## Erməni terror təşkilatlarının Azərbaycandakı vəhşiliklərinin bir hissəsi*

– 16 sentyabr 1989-cu il – Tbilisi-Bakı sərnişin avtobusunun partladılması. 5 nəfər ölmüş, 25 nəfər yaralanmışdır.

– 10 avqust 1990-cı il – Tbilisi-Ağdam sərnişin avtobusu patladılmışdı. 20 nəfər ölmüş, 30 nəfər yaralanmışdı.

Bu cinayətə görə A.Avanesyana və M.Tatevosyana qarşı cinayət işi qaldırılmışdır.

– 18 fevral 1990-cı il – Şuşa-Bakı sərnişin avtobusu partladılmış, 13 nəfər yaralanmışdı.

– 08 yanvar 1992-ci il – Bakı-Krasnovodsk (Türkmənistan) marşrutu ilə hərəkət edən paromun partladılması. 25 nəfər ölmüş, 88 nəfər yaralanmışdır.

– 01 fevral 1994-cü il - Bakı dəmiryolu vağzalında Kislovodsk-Bakı qatarının partladılması. 3 nəfər ölmüş, 20 nəfər yaralanmışdı.

– 19 mart 1994-cü il – Bakı metropoliteninin «20 yanvar» stansiyasında qatarın partladılması. 14 nəfər ölmüş, 49 nəfər yaralanmışdı.

– 20 noyabr 1991-ci il – Erməni terrorçuları Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında içərisində Azərbaycanın görkəmli dövlət xadimlərinin, Rusiya və Qazaxıstandan olan müşahidəçilərin olduğu «Mi-8» vertalyotunu vurub salmış, orada olan 19 nəfərin hamısı öldürülmüşdü.

– 30 may 1991-ci il – Rusiya Federasiyasının Dağıstan Respublikasının Xasavyurt stansiyası yaxınlığında Moskva-Bakı sərnişin qatarı partladılmışdı. 11

* Məlumatlar 19 və 34-dan götürülmüşdür.

nəfər ölmüş, 22 nəfər yaranalmışdı.

– 3 iyul 1994-cü il – Bakı metropoliteninin «28 may»-«Gənclik» stansiyaları arasında qatarın partladılması. 14 nəfər ölmüş, 54 nəfər yaralanmışdı.

– 31 yanvar 1991-ci il – Dağıstanın Temirtau stansiyası yaxınlığında Moskva-Bakı sərnişin qatarı partladılıb. 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

– 28 fevral 1992-ci il – Rusiyanın Qudermes stansiyası yaxınlığında Kislavodsk-Bakı sərnişin qatarı partladılıb, 11 nəfər həlak olub, 18 nəfər yaralanmışdır.

– 02 iyul 1993-cü il – Bakı dəmiryolu stansiyasında sərnişin qatarı partladılıb, dövlətə külli miqdarla ziyan dəyib.

– 09 fevral 1994-cü il - Xudatda yük qatarı partladılıb, dövlətə külli miqdarda ziyan dəyib.

– 13 aprel 1994-cü il – «Daqostanskie oqni» stansyası yaxınlığında Bakı sərnişin qatarı partladılıb, 6 nəfər həlak olub, 3 nəfər yaralanıb.

Azərbaycan, eləcə də xarici ölkələrin müvafiq məhkəmələri tərəfindən prosessual qaydada sübuta yetirilib ki, həmin terror aktlarının 32-si Ermənistanın xüsusi xidmət orqanlarının bilavasitə iştirakı ilə həyata keçirilib.

Aparılan araşdırmalardan məlum olub ki, Azərbaycanda mülki əhaliyə qarşı terrorçu fəaliyyət bilavasitə Ermənistan dövlət orqanları və separatçı qurum tərəfindən üçüncü ölkə vətəndaşları, Azərbaycanın azsaylı xalqlarının nümayəndələri, hərbi əsir və girovlardan istifadə yolu ilə təşkili, maliyyələşdirilməsi və reallaşmasına cəhdlər göstərilib. Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federal Təhlükəsizlik Xidmətinin əməkdaşlığı nəticəsində Ermənistan Milli Təhlükəsizlik Baş İdarəsinin şöbə rəisi polkovnik Can Ohanesyanın, onun müavini mayor Aşot Qaloyanın, Rusiya Federal Əks Kəşfiyyat Xidmətinin terrorizmlə mübarizə idarəsinin baş əməliyyat müvəkkili, mayor Boris Simonyanın başçılığı ilə Rusiya ərazisində fəaliyyət göstərən erməni separatçılarından ibarət terrorçu qrup məsuliyyətə cəlb olunub. Moskvada yerləşən və Valeri Petrosyanın rəhbərlik etdiyi «TİRR» Assosiasiyası tərəfindən maliyyələşdirilən həmin qrup Rusiya və Azərbaycan ərazisində dəmiryolu qatarlarında bir neçə partlayış törədib. Bu şəxslər Rusiya və Azərbaycan məhkəmələri tərəfindən müxtəlif müddətlərə azadlıqdan məhrumetmə cəzasına məhkum olunublar.

Dağıstan ərazisində fəaliyyət göstərən terrorçu-separatçı «Sadval» təşkilatı üzvlərinin 1994-cü il martın 19-da Bakı metropoliteni stansiyalarından birində törətdikləri və 14 nəfər dinc sakinin ölümü, 42 nəfərin yaralanması ilə nəticələnən partlayışın Ermənistanın xüsusi xidmət orqanların tərəfindən təşkil edilməsi faktı da prosessual qaydada tam sübuta yetirilib. Çoxsaylı şahid ifadələri və maddi sübutlar bu təşkilatın yaraqlılarının Ermənistanın Nairi və Arzni rayonlarında yerləşən, xüsusi xidmət orqanlarına məxsus hərbi-təxribat hazırlığı bazalarında, habelə Dağıstanın Məhərəmkənd rayonu ərazisində təşkil edilsiş xüsusi düşərgələrdə təlim keçdikləri birmənalı şəkildə təsdiqlənib. Məhz Ermənistanın xüsusi xidmət orqanları terror aktlarının icrası üçün cinayətkarları zəruri partlayıcı materiallar və texniki vasitələrlə təchiz edib və maliyyətəlşdiriblər.

«Azərbaycanın milli təhlükəsizlik orqanları həmin cinayətin erməni terroru ilə bağlı 43 təşkilatçısı və icraçısını aşkarlayıb. Onlardan 30 nəfəri Azərbaycanın Ali məhkəməsinin hökmü ilə müxtəlif müddətlərə azadlıqdan məhrum olunub, ölkəmizin hüdudlarından kənarda gizlənənlər barəsində isə əməliyyat-axtarış tədbirləri davam etdirilir» («24 saat» qəzeti, 18.XI.2006)

Ümumiyyətlə, 1988-ci ildən 2000-ciilədək erməni terrorçuları Azərbacyanda 373 terror aktları həyata keçirilmişdir. Nəticədə 1568 adam həlak olmuş, 1808 nəfər isə yaralanmışdır.





## XOCALI DƏRDİ BAYATILARDA

Xocalı faciəsi ürəyi riqqətə gətirən mövzu olduğundan alimlərimiz, yazıçı və şairlərimiz tez-tez bu mövzuya müraciət edib xeyli sanballı əsərlər yazmışlar. Bu faciəni görüb gələnlərin, ailə üzvlərindən və ya qohum-əqrabasından kimisə itirənlərin bir qismi isə öz hiss və həyəcanlarını, kədər və düşüncələrini ürəkləri dağlayan bayatılara çevirmişlər. Onlarca belə bayatılardan bir neçəsi də Əzizə xanım tərəfindən söylənmişdir.

1992-ci ilin iyulunda Ağdərə uğrunda gedən döyüşlərdə Azərbaycan Milli Qəhrəmanı Şirin Mirzəyevin qardaşı oğlu Mübariz Mirzəyev həlak olmuş və Ağdamda dəfn olunmuşdur. Mübariz Mirzəyevin əslən Xocalıdan olan anası Əzizə xanım Ağdam ermənilər tərəfindən işğal edildiyi üçün oğlunun qəbrini ziyarət edə bilmədiyindən hər il Xocalı soyqırımı günü gəlib Bakıdakı Xocalı şəhidlərinə ucaldılmış abidə kompleksini ziyarət etməklə özünə təskinlik tapır. Onun ürəkləri sızıldadan, insanlığı olan hər kəsi bu faciəyə biganə qalmamağa səsləyən bayatılarından bir neçəsini təqdim edirik:

Xocalının yastı yolu,
Qar gəlib basdı yolu.
Dedilər qaçaq qurtaraq
Yağılar kəsdi yolu.

Xocalım buz bağladı
Çölü yarpız bağladı.
Öldük qarşı meşədə
Yaramız buz bağladı.

Tank gəlir yan verir,
Xocalını nişan verir.
Bir şəhərin adamları
Meşədə can verir.
(23, 27 fevral 2006)

*Ceyran ana. Milli qəhrəman İnqilab İsmayılovun anasıdır. Ceyran ana həmin müdhiş gecədə oğlunu, nəvəsini və yaxın qohumlarını itirmişdir. Həmin gündən ürəyindəki dərdi öz bayatıları ilə səsləndirən ana oğul dağına dözə bilməyərək dünyasını dəyişmişdir.

Boz dağı gəzməyə gəlin,
Gülləri üzməyə gəlin,
Qalxın, atam oğulları,
Məzarım qazmağa gəlin.

Dağda duman yeri var,
Qaşda kaman yeri var,
Bozdağdan əl çəkmirəm
Orda güman yeri var.

Bozdağa gedən gəlməz,
Bilmərəm nədən gəlməz,
Üzülər qatarından,
Çıxar cərgədən gəlməz.

Yaylağın yeri bəlli,
Yeləni-yeli bəlli,
Bozdağda oğlum qalıb,
Hər yanda yeri bəlli.

* Bayatı və Ə.Quluzadənin şeri üçün bax: (21, 100-101, 138-139)





Ay oğul nə gəzirsən,
Qola düymə düzürsən,
Gözüm yolda qalıbdı,
Bozdağda nə gəzirsən?

Elə yaman ağlaram,
Suya sünbül bağlaram,
Oğlum Bozdağda yatır,
Onçun yaman ağlaram.

Bozdağın qarı mənəm,
Gün vursa, ərimərəm,
Qəbrimi yaxşı qazın,
Cavanam, çürümərəm.

Buxarı qurum oldu,
Yandıqca qurum oldu,
Bozdağda düşüb qaldı,
Anana zülüm oldu.

*Ələmdar Quluzadə –şair*

**Salam, Xocalı dərdim**

Mən qoynunda doğuldum,
Sən içimə köçmüsən,
Nağıl dili olmasın, qıl körpüdən keçmisən.
Nəyinə güvənmişəm, nəyimə and içmisən?
Toyuna, bayramına bir vaxt salam verərdim-
Salam Xocalı dərdim!

Qırxqız mehin mizrabın, Qarqar qopuzun idi,
Çölün də, çınqılın da şəkərin, duzun idi.
Qoynuna qısılanda qolların uzun idi,

Sənə ana deyərdim, mənə oğul deyərdin-
Salam Xocalı dərdim!

Əlim ətəyə çatmır, əlim göylərə dəyir,
Ələyənlər ələyib əyilməzləri əyir.
Yetim uşaq görəndə yaralarım göynəyir,
Bu dərd tək mənim olsa ürəyimdə çəkərdim-
Salam Xocalı dərdim!

Qara, qərib daşı var hər əyilən xurcunun,
İstəyi gizli deyil burnumuzun ucunun.
Sağlığını istəyir axı borclu borcunun,
Sənin dərdin olmasa bəlkə çoxdan ölərdim,
Salam Xocalı dərdim!

Məni daş tək kündələ, məni qum kimi yoğur,
Bu dünyanın havası məni dördəlli boğur.
Üzümə bahar doğmur, üzümə payız doğur,
Əlim əlinə dəysə ayağını öpərdim-
Salam Xocalı dərdim!

Mən qanımı görmüşəm düşmənin qarşısında,
Eşqim dəli olubdu həsrət yaraşığında.
Tonqal çatacağam mən bu dərdin işığında,
Sevincim incimәsin, mən dərdimə güvəndim-
Salam Xocalı dərdim!

Ürəyim ülkər qızı, idrakın nizəsi var,
And mənə köhnə dostdur, sözümün təzəsi var.
Sevincin sirri bəlli, dərdin möcüzəsi var,
Pəncər kimi biçilib, xəncər kimi göyərdim-
Sağ ol Xocalı dərdim!
Sağ ol Xocalı dərdim!
Salam Xocalı dərdim!





# ƏDƏBİYYAT

*Azərbaycan dilində*


1. Əliyev H. «Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi edan edilməsi haqqında» və «Xocalının müdafiəsində fərqlənmiş şəxslərin təltif edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı. «Azərbaycan» qəzeti, 26 fevral 1997-ci il.
2. Əliyev H. Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına Azərbaycan Respublikası prezidentinin müracitəi. «Azərbaycan» qəzeti, 26 fevral 2002-ci il.
3. Əliyev İ. Təzəpir məscidində Xocalı faciəsinin ildönümü ilə bağlı çıxışı. «Azərbacyan» qəzeti, 24 fevral 2006-cı il.
4. Əliyev İ. Bəşəriyyətə qarşı ən ağır cinayətlərdən olan Xocalı soyqırımı Azərbaycan xalqının qan yaddaşından silinməyəcəkdir. «Azərbaycan» qəzeti, 27 fevral 2007-ci il

4a. Avşarova İ. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə. XIV-VII əsrlər) Bakı, 2007

5. «Azərbaycan» qəzeti, 27 fevral 2007-ci il
6. «Azadlıq» qəzeti, 27 fevral 2006-cı il
7. ARDSPİHA, f.1, siy.169, iş.249
8. Çilovdarlı A., Abbasqızı Ş. Türk yurdu Qarabağ-Yüz il müharibə, Bakı, 2000.
9. Əliyev Ə. Vətən fədailəri. Bakı,1993
10. Əziz B. Xocalı soyqırımı: baş verme səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Tarix və onun problemləri. 2002, №3, səh.84-98
11. Fərida H. Qarabağda talan var, Bakı, 1992
12. Göyüşov R. Azərbaycan arxeologiyası. Bakı, 1986

13. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı, 1993
14. Xalq qəzeti", 25 fevral,1992.
15. XX əsr Azərbaycan tarixi. Prof.Y.Yusifov və prof.T.Vəliyevin ümumi redaktəsi ilə. Bakı, 2004
16. «Yeni Yüz il» qəzeti. "Terrorizm separatçılıqla sıx bağlıdır", 2002, 28 mart.
17. Qarabağnamələr. I kitab. Bakı, 1989
18. Qırxqızlı Q. Əsrin faciəsi-Xocalı, Bakı, 1993
19. Mahmudov Y., Şükürov K. Qarabağ. Real tarix, faktlar, sənədlər. B., 2005
20. Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsində. Bakı, 1965
21. Məmmədova H. Xocalı: şəhidlər, şahidlər. Bakı, 2003
22. Məmmədov X, Məmmədov N. Türkiyə və Azərbaycanda erməni millətçilərinin cinayətləri, Bakı, 2006.
23. Milli Məclisdəki "Qarabağ" fraksiyasının Xocalı soyqırımı ilə bağlı hazırladığı sənədin layihəsi, "Yeni Müsavat", 29 mart 2002
24. Mir Cəfər Bağırov xatirələrdə, Bakı, 2006
25. Müslümqızı S. Qar üstünə qan yağırdı.Bakı, 1992
26. Nəcəfov B. Deportasiya. III h., B., 1998
27. Pompeyev Y. Qarabağ qan içində, Bakı, 1996
28. Sabah-News – Bütün Azərbaycanlıların oxuması vacibdir. Zori Balayanın tükürpədici etirafı. 10-17 fevral 2007, №6
29. Sultanov O. 80-ci illərin sonu, 90-ci illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə" Bakı, 1995
30. Sultanov Z. Qarabağın qara günləri, Bakı, 1992
31. Sultanov Z. Xocalı faciəsi, Bakı, 1993
32. Şükürov K. «Dağlıq Qarabağ: anlayışı və ərazisi





haqqında (tarix və müasirlik)». Qarabağ dünən, bügün və sabah. 1-ci Ümumrespublika elmi-əməli konfransı. Tezislər, B., 2002, səh.103-105
33. Yaqublu N. Xocalı qırğını, Bakı, 1992.

### *Rus dilində*

34a. Азербайджанская Сельскохозяйственная перепись 1921 года. Итоги. Том. I –й. Шушинский уезд. Баку 1922.
34. Деятельность армянских террористических организаций против Азербайджана. Фонд Г.Алиеа представляет. Из серии «Карабахские реалии». Баку, 2006
35. «Зеркало», 3 апреля 2004г.
36. К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. Документы и материалы 1918-1925. Баку,1989.
37. Карабахский вопрос. Степанакерт, 1991
38. Краткая информация об истории Карабаха. Фонд Г.Алиева представляет. Из серии «Карабахские реалии», Баку, 2006
39. «Комсомольская правда»,14 янв. 1992
40. «Московские новости», 6 июнья, 1993
41. Начало Карабхского конфликта. Фонд Г.Алиева представляет. Из серии «Карабахские реалии», Баку, 2006
42. Сводь статистическихь данных о населении Закавказского края, извлеченных изь посемейных списковь 1886. Тифлис, 1886
43. «Спорные границы на Кавказе». Москва, 1997.
44. Ходжалинский геноцид. Фонд. Г.Алиева представляет. Из серии «Карабахские реалии», Баку, 2006
45. «Ходжалы. Хроника Геноцида», Баку, 1993
46. Шагинян М.Нагорный Карабах. М.-Л. 1927

Rəssam: *Taleh Məlikov*

Kompyuter dizaynı: *Asəf Abdullayev*

Korrektor: Bakı Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının əməkdaşı: *Rəna Məlikli*

Kompyuter yığımı: Bakı Dövlət Universitetinin informasiya texnologiyaları mərkəzinin işçisi: *Sevinc Məmmədova*

Çapa imzalanmış 31.01.2008.
Formatı 84x108 1/32.
Fiziki çap vərəqi 7.
Ofset çap üsulu. Tirajı-1000
Qiyməti müqavilə ilə.

"RS Poliqraf" MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

## DÜZƏLİŞLƏR

| Səh. | Sətir | Getmişdir | Oxunmalıdır |
|---|---|---|---|
| 8 | 9-aşağı. | vandilizmi | vandalizmi |
| 9 | 1-aşağı. | töhvə | töhfə |
| 15 | 5-aşağı. | çəkiçi | çəkisi |
| 20 | 10-aşağı. | bödgəsində | bölgəsində |
| 40 | 15-yuxarı. | işinin | işini |
| 69 | 13-yuxarı. | Brois | Boris |
| 69 | 5-aşağı. | batalyonnun | batalyonun |
| 73 | 7-aşağı. | öldüpülmüş | öldürülmüş |
| 86 | 2-yuxarı. | iəlumat | məlumat |
| 92 | 10-aşağı. | qanişi | qanlı |
| 97 | 5-aşağı. | "Hundy" | "Hunday" |
| 101 | 5-aşağı. | soyqırımı | soyqırımını |
| 104 | 9-aşağı. | ədəbi | əbədi |
| 146 | 13-yuxarı. | Həttə | Həttа |
| 214 | 1-yuxarı. | yaranalmışdı | yaralanmışdı |
| 214 | 10-yuxarı. | Kislavodsk | Kislovodsk |
| 215 | 6-aşağı. | Məhərəmkənd | Məhərrəmkənd |
| 215 | 5-aşağı. | edilsiş | edilmiş |
| 217 | 2-aşağı. | qarşı | qarlı |
| 221 | 11-yuxarı. | "Azərbacyan" | "Azərbaycan" |